**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRGİZ ELSƏVƏR qızı BABAYEVA**

# 1945-1991-Cİ İLLƏR AZƏRBAYCAN SSR-İN ŞƏRQİ AVROPANIN SOSİALİST ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİ

**HSM-060213-Dünya siyasəti**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: *N.C. Əsədov*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAKI- 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ.................................................................................................4-11**

**I FƏSİL. II Dünya müharibəsindən sonra Azərbaycan SSR-in xarici siyasət strukturunun formalaşması və fəaliyyət mexanimzləri................12-24**

1.1Azərbaycan SSR XİN-in yaradılması və strukturu.....................12-18
1.2 Azərbaycan SSR XİN-in fəaliyyət mexanizmi və fəaliyyət sahələri.........................................................................................18-24

**II FƏSİL. Azərbaycan SSR-in Şərqi Avropanın sosialist ölkələri ilə siyasi və iqtisadi əlaqələri ...........................................................................25-42**

2.1 Siyasi əlaqələr..........................................................................25-32
2.2 İqtisadi əlaqələr........................................................................32-42

**III FƏSİL. Humanitar və mədəni əlaqələr...................................................43-73**

3.1 Elm və təhsil sahəsində əməkdaşlıq..........................................43-52
3.2 Mədəniyyətin müxtəlif sahələrində əlaqələr.............................53-73

**NƏTİCƏ.............................................................................................74-76**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.........................................77-81**

| | |
|---|---|
| ABŞ | Amerika Birləşmiş Ştatları |
| ADR | Almaniya Demokratik Respublikası |
| AXC | Azərbaycan Xalq Cümhuriyyəti |
| BXR | Bolqarıstan Xalq Respublikası |
| BKP | Bolqarıstan Kommunist Partiyası |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| ÇXR | Çexslovakiya Xalq Respublikası |
| EA | Elmlər Akademiyası |
| XXİK | Xalq Xarici İşlər Komissarlığı |
| XİN | Xarici İşlər Nazirliyi |
| KP | Kommunist Partiyası |
| QİYŞ | Qarşılıqlı İqtisadi Yardım Şurası |
| MXR | Macarıstan Xalq Respublikası |
| PXR | Polşa Xalq Respublikası |
| RXR | Rumıniya Xalq Respublikası |
| RKP | Rumıniya Kommunist Partiyası |
| RSFSR | Rusiya Sovet Federativ Sosialist Respublikası |
| Sov.İKP MK | Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi |
| SSRİ | Sovet Sosialist Respublikaları İttifaqı |
| SSR | Sovet Sosialist Respublikası |
| ZSFSR | Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan Sovet İttifaqının tərkibinə qatıldıqdan sonra onun müstəqil xarici siyasət kursuna son qoyulmuşdur. Yalnız XX əsrin ikinci yarısından xarici siyasət strukturlarının formalaşdırılmasına başlanılmışdır. Lakin bu strukturların fəaliyyəti formal xarakter daşıyırdı və xarici siyasət məsələlərinin həllində onların səlahiyyətləri, demək olar ki, yox idi. Sovet İttifaqının tərkibinə daxil olan bütün ittifaq respublikaları kimi Azərbaycanın da müvafiq orqanları Sovet Sosialist Respublikalar İttifaqının (SSRİ) orqanlarının fəaliyyəti ilə razılaşdırılırdı. XX əsrin ikinci yarısından Azərbaycanın Şərqi Avropanın sosialist ölkələri ilə iqtisadi, mədəni, humanitar və məhdud şəkildə siyasi əlaqələri mövcud olmuşdur. Siyasi əlaqələrin məhdud xarakter daşıması bir sıra amillərlə bağlı idi. Azərbaycanın Sovet İttifaqının diplomatik əlaqələrində iştirak etmək üçün geniş hüquqları yox idi və xarici ölkələrlə siyasi əlaqələr yalnız XX əsrin 70-ci illərindən saxlanılmışdır. Lakin bu münasibətlər yenə də məhdud xarakter daşıyırdı. Qeyd etmək lazımdır ki, Azərbaycan Sovet Sosialist Respublikasının (SSR) əlaqə saxladığı ölkələr və bu əməkdaşlığın formaları mərkəz, yəni Moskva tərəfindən müəyyənləşdirilirdi. Şərqi Avropanın sosialist ölkələri ilə ideoloji cəhətdən yaxınlıq bu əlaqələrin inkişafında önəmli faktor olmuşdur.

1945-1991-ci illər ərzində Şərqi Avropanın sosialist ölkələri olan Bolqarıstan, Macarıstan, Polşa, Almaniya Demokratik Respublikası (ADR), Çexslovakiya, Rumıniya və Yuqoslaviya ilə ikitərəfli və çoxtərəfli əlaqələr həm Sovet İttifaqının, həm də bu ölkələrin maraqlarına cavab verirdi. Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında mövcud olmuş münasibətlərin öyrənilməsi elmi və siyasi baxımdan aktuallıq kəsb edir.

Tədqiqat işinin elmi aktuallığı əsasən bu amillərlə bağlıdır: Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında əlaqələrin müxtəlif istiqamətləri ilə bağlı müəyyən tədqiqatlar aparılmışdır, lakin bu istiqamətdə tədqiq olunmamış bir sıra məsələlər mövcuddur. Bu məsələlərin araşdırılması, yeni materialların ortaya çıxarılması və onların təhlil edilməsi vacibdir.

Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında iqtisadi, mədəni, elmi əlaqələrə dair geniş tədqiqatlar aparılsa da, münasibətlərin siyasi xarakteri təhlil

edilməmişdir. Bu məsələ problemin elmi aktuallığını şərtləndirən amillərdən biri hesab olunur.

Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında mövcud olmuş zəngin mədəniyyət əlaqələrinin, xüsusilə, ədəbi və incəsənət sahəsində əlaqələrin araşdırılması olduqca mühüm aktuallıq kəsb edir. Bu baxımdan 1945-1991-ci illər ərzində göstərilən ölkələrlə Azərbaycan arasında mövcud olmuş humanitar və mədəni əlaqələrin inkişaf dinamikasının öyrənilməsi əhəmiyyətlidir.

Bu ölkələr arasında mövcud olmuş iqtisadi əlaqələr, xüsusilə, Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) daxilində mövcud olmuş iqtisadi əlaqələrin araşdırılması aktuallıq kəsb edən məsələlərdəndir. Azərbaycan SSR bütün ittifaq respublikaları kimi Şərqi Avropanın sosialist ölkələri ilə QİYŞ daxilində iqtisadi əlaqələrə malik olmuşdur. Azərbaycanın təbii resurları Sovet İttifaqının xarici ticarət əlaqələrində mühüm rol oynamışdır.

Problemin araşdırılmasının siyasi aktuallığına gəldikdə isə, Azərbaycan öz geostrateji mövqeyi və təbii-coğrafi ehtiyatları ilə Sovet İttifaqının xarici ölkələrlə əlaqələrində mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan həm Şərqi Avropa ölkələrinin, həm də dünyanın digər dövlətlərinin maraq obyektinə daxil idi. Bu baxımdan göstərilən dövr ərzində Azərbaycan SSRİ-nin xarici ölkələr ilə əməkdaşlığında mühüm rol oyanıyırdı.

Problemin araşdırılması 46 illik dövr ərzində Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında mövcud olmuş siyasi, iqtisadi-ticarət, elmi-texniki və mədəni münasibətlərin öyrənilməsi və araşdırılması baxımından əhəmiyyətlidir. Bu əlaqələrin fərqli aspektlərinin hərtərəfli öyrənilməsi və müəyyən nəticələrə gəlinməsi vacibdir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Dissertasiya işinin yazılmasında tədqiqat sahəsinə həsr olunmuş əsərlərdən geniş istifadə olunmuşdur. Araşdırma göstərir ki, Azərbaycan – Şərqi Avropa əlaqələrinə azərbaycan və rus dillərində bir sıra əsərlər həsr olunmuşdur.

Şərqi Avropa ölkələri və Azərbaycan arasında mədəni əlaqələrin inkişaf tarixi H.Məmmədovun monoqrafiyasında araşdırılmışdır(34). Monoqrafiyada Azərbaycanın

Bolqarıstan, Polşa və Rumıniya ilə mədəniyyətin müxtəlif sahələrində əməkdaşlığından bəhs olunur. Lakin monoqrafiyada Azərbaycanın ADR, Çexslovakiya, Macarıstan və Yuqoslaviya ilə əlaqələri öz əksini tapmamışdır.

Azərbaycanın XX əsrdə dünya ölkələri ilə əlaqələri S.Sayadovun monoqrafiyasında araşdırılmışdır(49). Monoqrafiya Şərqi Avropa ölkələri ilə Azərbaycan arasında XX əsrin ikinci yarısında mövcud olmuş iqtisadi, elmi və mədəni əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətlidir. Əsərdə XX əsrin 70-90-cı illərində mövcud olmuş əlaqələr geniş şəkildə araşdırılmışdır. 1960-cı illərdə isə elmi və mədəni əlaqələr hərtərəfli araşdırılsa da iqtisadi əlaqələrə geniş yer ayrılmamışdır.

Azərbaycanın XX əsrin ikinci yarısında beynəlxalq mədəni əlaqələri M.Qasımlının əsərində araşdırılmışdır(54). Əsər ölkələrarası mədəni əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətlidir. Əsər Şərqi Avropa ölkələri və Azərbaycan arasında XX əsrin ikinci yarısında mədəni əlaqələrin müxtəlif sahələrinin inkişaf dinamikasını izləməyə imkan verir. Burada ədəbi əlaqələr, teatr və kino sahəsində əlaqələr, incəsənət və musiqi sahəsində əlaqələr öz əksini tapmışdır.

XX əsrin ikinci yarısında Azərbaycanın xarici ölkələrlə əlaqələri Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin nəşri olan sənədlər toplusunda öz əksini tapmışdır(59, 60). İki hissədən ibarət topluda Azərbaycanın sosialist ölkələri olan Rumıniya, Çexslovakiya, Yuqoslaviya, Bolqarıstan, Polşa ilə əlaqələrinə dair sənədlər dərc olunmuşdur. Bu sənədlər nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin, o cümlədən bu ölkələrin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfirlərinin Azərbaycan SSR-ə səfərlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Azərbaycan SSR-in beynəlxalq humanitar əlaqələri İsmayıl İsmayılovun tarix üzrə fəlsəfə doktoru dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiya işində araşdırılmışdır(26). Tədqiqat işində XX əsrin 80-ci illərində Azərbaycanın beynəlxalq humanitar əlaqələri hərtərəfli araşdırılmışdır. Bu illərdə Azərbaycan SSR-də fəaliyyət göstərən dostluq cəmiyyətlərinin, gənclər təşkilatlarının, partiyaların fəaliyyətlətinə

diqqət yetirilmişdir. Tədqiqat işi 80-ci illərdə mövcud olmuş beynəlxalq humanitar əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Həmçinin Şərqi Avropanın ayrı-ayrı sosialist ölkələri ilə Azərbaycan arasında mövcud olmuş əlaqələr tədqiqat mövzusu olmuşdur. Məsələn, XX əsrin 80-ci illərində Azərbaycan SSR və Macarıstan arasında mövcud olmuş əlaqələr Z.Nuriyevanın məqaləsində araşdırılmışdır(38). Məqalədə Azərbaycan və Macarıstan arasında QİYŞ daxilində mövcud olmuş iqtisadi əlaqələr, 1980-ci illərdə qarşılıqlı səfərlər və keçirilmiş beynəlxalq simpoziumlarda iki ölkənin bir araya gəlməsi öz əksini tapmışdır. Məqalədə siyasi və iqtisadi əlaqələr araşdırılsa da mədəni əlaqələr diqqətdən kənar qalmışdır.

Şərqi Avropanın digər bir sosialist ölkəsi olan Bolqarıstan ilə Sovet İttifaqının əməkdaşlığında Azərbaycan SSR-in rolu Z.Sərdarovun monoqrafiyasında araşdırılmışdır(50). Əsər XX əsrin ikinci yarısında iqtisadi sahədə Bolqarıstan və Azərbaycanın müəssisələrinin qarşılıqlı əməkdaşlığı, həmçinin bu dövrdəki ticarət dövriyyəsinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Monoqrafiyada, həmçinin Bolqarıstan və Azərbaycan arasında mövcud olmuş elmi və mədəni əlaqələr hərtərəfli şəkildə tədqiq edilmişdir. Əsər elmi və mədəni əlaqələrin inkişaf dinamikasının öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.

1945-1991-ci illəri əhatə edən dövr kompleks şəkildə araşdırılmamışdır. Təqdim olunan tədqiqat işi 1945-1991-ci illər ərzində Azərbaycan və Şərqi Avropanın sosialist ölkələri arasında mövcud olmuş əlaqələrin kompleks şəkildə öyrənildiyi ilk elmi tədqiqat işdir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi yazılarkən zəngin mənbələrdən istifadə olunmuşdur. Həmin mənbələr bir neçə qrupa ayrılır: elmi ədəbiyyatlar, dövri mətbuat, arxiv materialları və internet resursları.

Elmi ədəbiyyatlarda Azərbaycanın sovet hakimiyyəti illərində xarici siyasətinin forma və xarakteri, xarici əlaqə orqanlarının fəaliyyəti (21, 22, 35), mədəniyyətin müxtəlif sahələrində əməkdaşlıq, təşkil olunan sərgi və yarmarkalar haqqında məlumatlar, bu əlaqələrin həyata keçirilmə formaları (13, 34, 54), ayrı-ayrı ölkələrlə

mövcud olmuş iqtisadi əlaqələrin xaraekterinə dair məlumatlar (18, 50) öz əksini tapmışdır.

Dövri mətbuatda xarici ölkələrin nümayəndə heyətlərinin Azərbaycan SSR-ə səfərləri, həmçinin azərbaycanlı nümayəndə heyətlərinin sosialist ölkələrə səfərləri və qarşılıqlı əməkdaşlıq, elm və təhsil sahəsində əldə olunmuş nailiyyətlərlə tanışlıq, həmçinin mədəniyyətin bir sahəsi olan ədəbi əlaqələrə dair məlumatlar, qardaş sosialist ölkələrin incəsənət xadimlərinə ithaf olunmuş məqalələr öz əksini tapmışdır(14, 15, 16, 23).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin nəşri olan iki hissəli sənədlər toplusunda (59, 60) Azərbaycanın xarici ölkələrlə mövcud olmuş siyasi əlaqələri, xarici ölkələrin siyasi partiyalarının nümayəndə heyətlərinin, SSRİ-dəki fövqəladə və səlahiyyətli səfirlərinin, həmçinin onların siyasi dairələrlə görüşlərinin öyrənilməsində mühüm mənbə hesab olunur.

Azərbaycan Respublikası Dövlət Arxivinin materialları problemin araşdırlımasında mühüm mənbələrdən olmuşdur. Azərbaycan SSR Xarici İşlər Nazirliyinin və Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin fondlarının (f.28, f.2693) materialları istifadə olunan mənbələr sırasına daxildir.(1, 2, 3, 4, 5, 6, 7, 8)

Problemin araşdırılmasında internet resurslarından geniş istifadə olunmuşdur. Burada Azərbaycanın sosialist ölkələrlə beynəlxalq elmi və mədəni əlaqələrinə dair məqalələr dərc olunmuşdur.(39, 40, 41, 42, 43, 45, 46, 47) Bu məqalələr Azərbaycanın XX əsrin ikinci yarısında mövcud olmuş mədəni əlaqələrin öyrənilməsi baxımından əhəmiyyətlidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi 1945-ci ildən 1991-ci ilə qədər Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında mövcud olmuş əlaqələri, bu əlaqələrin əsas forma və istiqamətlərinin öyrənilməsi, əsaslı mənbələr əsasında bu əlaqələrin həyata keçirilməsi prosesini araşdırmaq, təhlil etmək və nəticələr çıxarmaqdan ibarətdir. Bu məqsədlərin həyata keçirilməsi üçün dissertasiya işində aşağıdakı vəzifələr qarşıya qoyulur:

-Azərbaycan SSR-in sovet hakimiyyəti illərində mövcud olmuş xarici əlaqə orqanlarının strukturunun öyrənilməsi və fəaliyyət sahələrinin araşdırılması;
-Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında 1945-1991-ci illəri əhatə edən diplomatik-siyasi əlaqələrin öyrənilməsi və mövcud mənbələr əsasında araşdırılması;
-1945-1991-ci illərdə ölkələr arasında mövcud olmuş ticarət-iqtisadi münasibətlərin öyrənilməsi və ticarət dövriyyəsinin araşdırılması, həmçinin iqtisadi sahədə əməkdaşlığın istiqamətlərinin müəyyən edilməsi;
-Ölkələr arasında elmi-texniki əməkdaşlığın forma və istiqamətlərinin araşdırılması;
-Tədqiqat dövründə mövcud olmuş mədəni əlaqələrin inkişaf dinamikasının izlənilməsi və onların təhlil edilməsi;
-Azərbaycan SSR və Şərqi Avropanını sosialist ölkələri arasında mövcud olmuş əlaqələrin hərtərəfli araşdırılması və elmi nəticəyə gəlinməsi.

**Tədqiqatın obyekti** 1945-1991-ci illərdə Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında mövcud olmuş əlaqələrdir.

**Tədqiqatın predmeti** Şərqi Avropanın sosialist ölkələri ilə Azərbaycan arasında siyasi münasibətlər, iqtisadi, elmi-texniki əməkdaşlıq, o cümlədən mədəni əməkdaşlığın inkişaf dinamikasının öyrənilməsidir. Həmçinin Azərbaycan SSR Xarici İşlər Nazirliyinin yaranması və fəaliyyətinin öyrənilməsi tədqiqat işinin predmeti hesab olunur.

**Tədqiqatın xronoloji çərçivəsi** 1945-1991-ci illəri əhatə edir. Bu xronoloji çərçivə II Dünya müharibəsinin bitməsindən başlayaraq Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsinə qədər olan dövrü əhatə edir və bu dövr ərzində ölkələr arasında mövcud olmuş siyasi, iqtisadi, elmi-texniki və mədəni sahədə əməkdaşlığın inkişaf dinamikasını izləməyə imkan verir.

**Tədqiqatın metodoloji əsası və metodları.** Tədqiqat işinin metodoloji əsasını elmi-nəzəri yanaşmalar təşkil edir. Dissertasiya işində qarşıya qoyulmuş məsələni tədqiq edərkən nəzəri yanaşma metodu əsas götürülmüşdür və tarixilik, sistemlilik,

obyektivlik, ümumimləşdirmə kimi metodlardan istifadə olunmuşdur. Tarixilik prinsipinə əməl olunaraq elmi nəticə çıxarılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakılarla xarakterizə olunur:

-Elmi ədəbiyyatların və digər mənbələrin öyrənilməsi və sistemləşdirilməsi nəticəsində 1945-1991-ci illərdə Azərbaycan SSR və Şərqi Avropanın sosialist ölkələri arasında münasibətlər kompleks şəkildə araşdırılmışdır;

-Diplomatik-siyasi münasibətlər siyasi sənədlər əsasında təhlil edilmişdir, onların forma və mahiyyəti araşdırılmışdır;

-Azərbaycan SSR-in və Şərqi Avropanın sosialist ölkələrinin partiyaları arasındakı münasibətlər və qarşılıqlı səfərlərin mahiyyəti öyrənilmişdir;

-İqtisadi sahədə həm ikitərəfli, həm də çoxtərəfli əsasda əlaqələr araşdırılmışdır;

-Humanitar sahədə əməkdaşlığın inkişaf dinamikası öyrənilmiş və elmi-texniki nailiyyətlər araşdırılmışdır;

-Ölkələr arasında mədəni sahədə əlaqələr kompleks şəkildə araşdırılmışdır.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Tədqiqat işindən Sovet hakimiyyəti illərində Azərbaycanın xarici əlaqə orqanlarının fəaliyyət istiqamətlərinə, Azərbaycan və Şərqi Avropa ölkələrinin münasibətlərinə dair ümumiləşdirilmiş materialların hazırlanmasında, mühazirələrin tərtibində, Azərbaycanın Sovet hakimiyyəti illərində beynəlxalq əlaqələri mövzusunda elmi konfransların keçirilməsində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqat işi Azərbaycan Dillər Universitetinin Beynəlxalq Münasibətlər kafedrasında yerinə yetirilmiş və müzakirələr nəticəsində müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıda qeyd olunan məqalə və tezisi çap olunmuşdur:

1.Babayeva N. XX əsrin ikinci yarısında Azərbaycan SSR və Bolqarıstan Xalq Respublikası arasında elmi və mədəni əlaqələr // Gənc Tədqiqatçıların Elmi əsərləri

2.Babayeva N. XX əsrin 70-ci illərində Azərbaycan SSR və Rumıniya arasında siyasi əlaqələr // ADU tələbə elmi cəmiyyəti materialları.

**Tədqiqat işinin strukturu.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. 3 fəsil 6 yarımfəsli əhatə edir.

# I FƏSİL. II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCAN SSR-İN XARİCİ SİYASƏT STRUKTURUNUN FORMALAŞMASI VƏ FƏALİYYƏT MEXANİZMLƏRİ

## 1.1Azərbaycan SSR XİN-in yaradılması və strukturu

XX əsrin I yarısından Azərbaycan Xalq Cümhuriyyətinin(AXC) süqutundan sonra Azərbaycanda sovet hakimiyyəti quruldu və ölkədə bir sıra dəyişikliklər baş verdi. Azərbaycan beynəlxalq arenadan təcrid olunmağa başladı və tədricən öz xarici siyasət funksiyasını itirdi. Sovet hakimiyyəti illərində respublikada Xalq Xarici İşlər Komissarlığı(XXİK) fəaliyyət göstərirdi, lakin komissarlığın fəaliyyəti bir qayda olaraq mərkəzdən idarə olunurdu. Azərbaycan tədqiqat illərində müstəqil xarici siyasət kursuna malik olmamışdır[35,s.96].

Aprel işğalı və AXC-nin süqutundan sonra Xarici İşlər Nazirliyi(XİN) bağlandı və onun yerinə Xalq Xarici İşlər Komissarlığı yaradıldı. Lakin komissarlığın ştat tərkibi ixtisar olunmağa başladı. Aprel işğalından sonra XXİK-in qarşısında bir sıra vəzifələr dayanırdı: Avropa ölkələri ilə iqtisadi və siyasi sahədə müqavilələr bağlamaq, xarici ölkələrdən bir sıra mətbu nəşrlərin alınması və s. [12,s.97-98].

Bu dövrdə Azərbaycanda xarici ölkələrin nümayəndəliklərinin sayı məhdudlaşdırılırdı. Rusiyada konsulluq fəaliyyəti haqqında qəbul olunmuş əsasnamələr Azərbaycana da aid edilirdi, Azərbaycanda yerinə yetirilmək üçün ölkə ərazisinə göndərilirdi. Azərbaycan digər sovet respublikalarında diplomatik nümayəndəliklər yarada bilmirdi, çünki Rusiya hökuməti buna mane olurdu. Rusiya tərəfindən göstəriş verilirdi ki, Azərbaycanın xaricilərə viza verməsi sərtləşdirilsin.

1921-ci il 30 dekabr tarixində Rusiya XXİK kollegiyasının iclası keçirilir və burada bir sıra məsələlər müzakirə olunur. Məsələn, buraya ortaq konsulluqların təsisi, sovet respublikalarında diplomatik nümayəndəliklərin vəziyyəti, xarici pasportla bağlı məsələlər və s. aid idi. Bu iclasda sovet respublikalarının xarici dövlətlərdəki diplomatik nümayəndəliklərinin Rusiya Sovet Federativ Sosialist Respublikasının(RSFSR) səlahiyyətli diplomatik nümayəndəliklərinə tabe etdirilməsi haqqında qərar qəbul edildi. Rusiya hökumətinin atdığı addımlar nəticəsində

Azərbaycanın xarici dövlətlərdəki diplomatik nümayəndəlikləri ləğv olundu[12,s. 98-99].

1921-ci ilin əvvəllərində Cənubi Qafqaz respublikalarının Zaqafqaziya Seymində birləşməsinin zəruriliyi haqqında bir məsələ gündəmə gətirilmişdir. Burada olan vacib məsələlərdən biri Cənubi Qafqaz respublikalarının vahid xarici siyasət orqanlarının yaradılması idi. Zaqafqaziya Federasiyası İttifaq Şurasının dekretində bu respublikaların xarici siyasət kursunun birləşdirilməsi qərara alınır. Onların digər sovet respublikalarında olan diplomatik nümayəndəliklərinin bağlanması da bu qərara daxil idi. Eyni zamanda bu respublikalara digər xarici ölkələrdə diplomatik nümayəndəliklər saxlamaq hüququ verilirdi [35,s.96].

1922-ci il 11 fevral tarixində Nəriman Nərimanov Genuya konfransında Azərbaycan nümayəndəsi təyin edilmişdir və o, sovet respublikalarının ümumi səlahiyyətli nümayəndə heyətinin tərkibində iştirak edirdi. Ona verilmiş mandatda qərar qəbul etmək, müqavilə imzalamaq səlahiyyətləri var idi. Lakin bu konfransdan öncə Moskva şəhərində bir sıra sənədlərin imzalanması zəruri idi. İmzalanmış protokolda Azərbaycan genuya konfransında öz mənafeyini müdafiə etmək səlahiyyətini RSFSR-ə həvalə edirdi [61,s.148].

1922-ci ilin mart ayında Zaqafqaziya Seymi yaradılır və Azərbaycan da onun tərkibinə daxil olur. Bu, əslində, Azərbaycanın formal müstəqilliyinin ləğvi də demək idi. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası(ZSFSR) 1936-cı ilə qədər mövcud olmuşdur [35,s.96].

Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin bağlanması üçün ilk olaraq xarici dövlətlər olan nümayəndəliklərin tərkibində bir sıra dəyişikliklər edildi. Müsavatçılar diplomatik heyətin tərkibindən uzaqlaşdırılmış və onların yerinə bolşeviklər gətirilmişdir. Ümumiyyətlə, diplomatik nümayəndəliklərin öz fəaliyyətinə davam etmələrinin qarşısını almaq üçün burada bir sıra çətinliklər yaradılırdı. Məsələn, başlıca maneələrdən biri onların maliyyələşdirilməsi idi və onlar RSFSR nümayəndəliklərinə tabe etdirilirdi. Onlar üçün büdcədən maliyyə vəsaiti ayrılmırdı və bu da diplomatik heyətin əmək haqqlarına təsir edirdi. Diplomatik nümayəndəliklərə

öz fəaliyyətləri ilə məşğul ola bilmələri üçün lazımi sənəd və materialların göndərilməsində çətinlik yaradılırdı. Bu addımlardan sonra xarici dövlətlərdəki diplomatik nümayəndəliklərin ləğv olunması məsələsi gündəmə gətirilirdi.

Cənubi Qafqaz İttifaq Şurası yaradıldıqdan sonra burada Xarici İşlər Komissarlıqları fəaliyyət göstərsə də onların varlığı uzun sürmür, sonradan bu komissarlıqlar ləğv edilir. Bu komissarlıqların funksiyası İttifaq Soveti yanında təşkil olunan xarici əlaqələr şöbəsinə ötürülür. Cənubi Qafqaz respublikalarında xarici siyasət məsələləri ilə bağlı katibliyin yaradılması haqqında qərar verildikdən sonra İttifaq Soveti tərəfindən "Xarici siyasətin birləşdirilməsi haqqında" dekret verilir. 1922-ci ilin yayında Azərbaycanda Xarici İşlər üzrə Katiblik təsis edildi və Əliheydər Şirvani-Mustafabəyov bu Katibliyə rəhbərlik etməyə başladı [21,s.543]. Katibliyin səlahiyyəti xeyli məhdud idi. Burada viza və pasport şöbəsi, ümumi-siyasi şöbə, məxfi-siyasi şöbə, məlumat bürosu və maliyyə-təsərrüfat şöbəsi fəaliyyət göstərirdi [12,s.100-101].

1922-ci il dekabrın 30-da Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) yaranması ilə Azərbaycan ZSFSR tərkibində SSRİ-yə daxil olur və onun müstəqilliyinə son qoyulur [35,s.96]. SSRİ-nin yaranması ilə onun tərkibindəki respublikalarda diplomatik xidmətlə məşğul olan idarələrin fəaliyyətinə son qoyulmuşdur. Dekabr ayında Sovet İttifaqına daxil olan respublikaların öz xarici siyasət funksiyalarını mərkəzə həvalə etmələri barədə müqavilə imzalandı. 1923-cü ili oktyabr ayından etibarən Türkiyə və İranın nümayəndəlikləri istisna olmaqla Bakıda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edilmişdir. 1922-ci ildə Xarici İşlər Komissarlıqları ləğv olunduqdan sonra Azərbaycan xarici siyasət funksiyasını mərkəzə həvalə etmişdir və 22 ildən sonra 1944-cü ildə SSRİ Ali Sovetinin sessiyasında Azərbaycan Sovet Sosialist Respublikası(SSR) Xalq Xarici İşlər Komissarlığının yaranması haqqında qanun qəbul edilmişdir [21,s.543].

1943-cü ildə Moskvada xarici işlər nazirlərinin müşavirəsi keçirilən zaman aktual məsələlərdən biri II Dünya müharibəsindən sonra formalaşacaq dünya nizamı olmuşdur. Millətlər Cəmiyyəti artıq əvvəlki nüfuzunu itirmişdir. Amerika Birləşmiş

Ştatları(ABŞ) Millətlər Cəmiyyətinin üzvü deyildi və özünün üzv olacağı bir təşkilatın yaradılmasının tərəfdarı idi, SSRİ isə Finlandiyaya hücumundan sonra bu təşkilatdan kənarlaşdırılmışdır. Moskvada keçirilən müşavirədə yeni bir beynəlxalq təşkilatın yaradılması barədə razılığa gəlinmişdir. Bunun ardınca 1944-cü il avqust-oktyabr aylarında Dumbarton-Oks konfransı keçirilmişdir və konfransda ABŞ, SSRİ, Çin və Böyük Britaniya tərəfindən təkliflər irəli sürülmüşdür, bu da Birləşmiş Millətlər Təşkilatının(BMT) yaradılması idi. SSRİ yaradılacaq təşkilatda çox səslə təmin olunmaq istəyirdi. Eyni zamanda müttəfiq respublikaların BMT-də müstəqil dövlət kimi təmsil olunmalarının tərəfdarı idi. Lakin bu respublikaların xarici siyasət institutları olmadığı üçün təşkilatda müstəqil dövlət kimi təmsil oluna bilməzdilər. Bununla bağlı 1944-cü ilin fevral ayında SSRİ-də müttəfiq respublikalara xarici siyasət sahəsində müəyyən səlahiyyətlər verilməsi ilə bağlı qərar qəbul edilmişdir. Müttəfiq respublikalarda XXİK-in bərpa edilməsinə başlanılmışdır. XXİK-də diplomatik nümayəndəlikləri formalaşdırmaq məqsədilə diplomatik fəaliyyətlə məşğul olacaq işçilər üçün kurslar təşkil edilirdi və Azərbaycandan olan nümayəndələr üçün bu kurslarda 5 yer ayrılmışdır [22,s.105-106].

Azərbaycan SSR Ali Sovetinin mart ayında keçirilmiş sessiyasında Azərbaycan SSR XXİK-in yaradılması haqqında qərar qəbul edildi. Martın 8-də qəbul edilmiş qanuna əsasən Azərbaycan SSR Ali Soveti qərara alırdı ki, Azərbaycan SSR İttifaq-respublika XXİK təşkil edilsin və konstitusiyaya bir sıra əlavələr edilsin. Məsələn, konstitusiyanın 16-cı maddəsində göstərilirdi ki, Azərbaycan SSR-in xarici ölkələrlə bilavasitə əlaqələr yaratmaq, diplomatik nümayəndəliklərin mübadiləsini həyata keçirmək hüququ var. 19-cu maddəyə "ü" bəndi əlavə edilirdi və burada göstərilirdi ki, Azərbaycan SSR-in beynəlxalq münasibətlər arenasında öz nümayəndəliklərini təyin etmək hüququ var. 33-cü maddəyə əlavə edilmiş "f" və "q" bəndində Azərbaycan SSR-in xarici dövlətlərə diplomatik nümayəndəliklərini təyin etmə və geri çağırma, Azərbaycanda olan nümayəndələrin etibarnamə və övdətnamələrini qəbul etmək hüququ öz əksini tapırdı. 46-cı maddədə göstərilirdi ki, müttəfiq respublikanın xarici

dövlətlərlə qarşılıqlı əlaqələri SSRİ-nin müəyyən etdiyi ümumi qaydalar çərçivəsində olmalıdır [1,s.1-2].

Azərbaycan SSR-də Komissarlığın yaradılması haqqında qərar qəbul edildikdən sonra müvafiq olaraq komissarlığın tərkibinin formalaşdırılması üçün kadrların toplanılmasına başlanıldı. Bu işlərə müvəqqəti olaraq rəhbərlik etmək üçün Ağasəməd Əlizadə müavin təyin edilmişdir. Mahmud İsmayıl oğlu Əliyev isə 1944-cü ilin sentyabr ayında Azərbaycan SSR xalq xarici işlər komissarı təyin edildi [22,s.110]. Mahmud Əliyev xalq xarici işlər komissarı təyin olunmazdan əvvəl SSRİ xarici işlər komissarının müavini vəzifəsində çalışmışdır. O,1944-cü ildə komissar təyin olunduqdan sonra XXİK təşkilati baxımdan qurulmağa başlanıldı. Diplomatik kadrların hazırlanması və protokol-konsulluq işlərinin qaydaya salınması yönündə bir sıra işlər görüldü [51,s.6].

M.Əliyev Azərbaycanın səlahiyyətli nümayəndəsi kimi bir sıra dövlətlərlə iqtisadi və mədəni əlaqələrin yaradılmasında iştirak edirdi. Eyni zamanda bir sıra müşavirələrdə SSRİ nümayəndə heyətinin tərkibində iştirak edirdi. XXİK M.Muxtarov küçəsində 6 saylı ünvanda, 3 mərtəbəli binada öz fəaliyyətinə başladı. Binanın təmiri üçün büdcədən müvafiq vəsait ayrılmışdır. M.Əliyev səlahiyyətlərinin icrasına başladıqdan sonra Komissarlığın aparatının formalaşdırılması üçün müvafiq addımlar atıldı. Daha sonra SSRİ XXİK-in göstərişi ilə Komissarlıqda fəaliyyət göstərəcək əməkdaşların xarici dil öyrənmələri ilə bağlı bir sıra vəzifələri müəyyənləşdirildi. Onlar 2 və ya 3 il ərzində bir Qərb və bir Şərq dili öyrənməli idilər [22,s.110-113].

Azərbaycan SSR XXİK-in 9 noyabr 1944-cü ildə qəbul edilmiş 3 nömrəli qərarına əsasən Komissarlığın əməkdaşlarının xarici dil öyrənmələri ilə bağlı aşağıdakılar müəyyən olunmuşdur:

-Sadıxov İsmayıl Nəcəf oğlu (məxfi-şifr şöbəsinin kiçik referenti)-2 il müddətində ingilis dili proqramını bitirib, 1947-ci ildə imtahan verməli idi;

-Mahmudov Mahmud Səməd oğlu (siyasi şöbənin referenti)- 1949-cu ilə qədər 3 il ərzində fars dili proqramını bitirib imtahan verməli idi;

-Tahirov Müşfiq Hüseyn oğlu (protokol-konsulluq şöbəsinin katibi)- 1947-ci ilə qədər 2 il ərzində fransız dili proqramını bitirməli idi;

-Mərdanova Naimə Hacı qızı (kadrlar şöbəsinin katibi) – 2 il ərzində fransız dili öyrənib, 1947-ci ildə imtahan verməli idi və s. [3,s.27-28].

Komissarlıq yaradıldıqdan sonra onun təşkilati strukturu bu cür formalaşmışdır: siyasi şöbə, protokol-konsulluq şöbəsi, kadrlar şöbəsi, məxfi-şifr şöbəsi. Siyasi şöbənin müdiri vəzifəsinə Qayıbov Davud, protokol-konsulluq şöbəsinin müdiri vəzifəsinə Orucov Məmmədtağı, kadrlar şöbəsinin müdiri vəzifəsinə Əfəndiyev Məmməd, məxfi-şifr şöbəsinin müdiri vəzifəsinə isə Allahverdiyev Tofiq təyin edilmişdir [22,s.111].

1944-cü ildə Komissarlığın elmi-texniki bazasının formalaşdırılması məqsədilə M.Əliyev tərəfindən xarici dövlətlərin mətbuat orqanlarında nəşr olunan bir sıra jurnalların, diplomatiya tarixi ilə bağlı kitabların Azərbaycana gətirilməsi üçün bir sıra addımlar atıldı. Məsələn, İngiltərəyə məxsus “Tayms”, “Ekonomiks” qəzetləri, Misirin “Əl-Əhram” qəzeti, ABŞ-da nəşr olunan “Nyu York Tayms” və s. məlumat mənbələrini misal göstərmək olar. 1945-ci ildən Azərbaycan SSR XXİK-in fəaliyyəti daha da genişlənmişdir. Azərbaycanda fəaliyyət göstərən xarici nümayəndəliklərlə əlaqələr yalnız Komissarlıq vasitəsilə saxlanılırdı. Bu nümayəndəliklərin rəsmi səfərlərinin etibarlı olması üçün XXİK-in vizası tələb olunurdu və onlar rus ya da türk dillərinə tərcümə olunaraq təqdim edilirdi. Komissarlıq tərəfindən ayrı-ayrı xarici ölkələrin diplomatik nümayəndə heyətlərinin Azərbaycana səfərləri, onların diplomatik protokol qaydalarına uyğun olaraq qəbulu və yola salınması mərasimləri təşkil edilirdi. 1945-ci ilin ikinci yarısından bir qayda olaraq Bakıya gələn nümayəndəliklərin qarşılanması, protokol görüşlərinin həyata keçirilməsi Komissarlıq tərəfindən təşkil olunurdu [22,s.116-117].

Müharibədən sonra SSRİ-də aparılan struktur islahatlara uyğun olaraq 1946-cı ildə Azərbaycan SSR XXİK-in Xarici İşlər Nazirliyinə(XİN) çevrilməsi barədə qərar qəbul olunmuşdur. Bundan sonra XXİK öz fəaliyyətinə XİN olaraq davam etmişdir və XİN -ə Mahmud Əliyev, Tahirə Tahirova kimi nazirlər rəhbərlik etmişlər. Bu dövrdən Azərbaycan SSR-in beynəlxalq ictimai-siyasi proseslərdə iştirakı müxtəlif vasitələrlə

həyata keçirilirdi. İctimaiyyət nümayəndələrinin qarşılıqlı səfərləri həyata keçirilirdi və bu səfərlər SSRİ tərəfindən təşkil olunmuş bir sıra cəmiyyətlər vasitəsilə baş tuturdu. Həmçinin SSRİ-nin xarici dövlətlərlə dostluq cəmiyyətlərinin Azərbaycan şöbəsi bu cür səfərlərin təşkilində mühüm rol oynamışdır. Sovet dövründə Azərbaycanda mövcud olmuş cəmiyyətlər sırasında göstərmək olar: Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, “Vətən” cəmiyyəti, Azərbaycan Sülhü Müdafiə Komitəsi və s. [35,s.474].

Sovet hakimiyyəti illərində Azərbaycanın Xarici İşlər Nazirliyinin işi üç istiqamət üzrə müəyyənləşdirilmişdir. 1988-ci ildə Azərbaycan SSR Nazirlər Soveti Xarici İşlər Nazirliyinin təşkilati strukturu haqqında qərar qəbul etmişdir. Nazirlər Sovetinin qəbul etdiyi 323 nömrəli qərarda Nazirliyin strukturu müəyyənləşdirilmişdir və burada konsul şöbəsi, protokol şöbəsi, informasiya şöbəsi fəaliyyət göstərirdi [28,s.90].

Sovet hakimiyyəti illərində xarici ölkələrlə birbaşa əlaqələr SSRİ Xarici İşlər Nazirliyi vasitəsilə aparıldığı üçün Azərbaycan SSR XİN-in fəaliyyəti məhdud xarakter daşıyırdı. Xarici ölkələrlə birbaşa əlaqələr Azərbaycan 1991-ci ildə müstəqilliyini əldə etdikdən sonra yaradılmışdır və bu zaman XİN struktur baxımından yenidən təşkil olunmuşdur.

## 1.2 Azərbaycan SSR XİN-in fəaliyyət mexanizmi və fəaliyyət sahələri

Azərbaycan SSR XXİK yaradılan zaman burada siyasi şöbə, protokol-konsulluq şöbəsi, kadrlar şöbəsi və məxfi-şifr şöbəsi fəaliyyət göstərirdi. Komissarlıq fəaliyyətə başlayandan sonra məxfi-şifr şöbəsinə dair əvvəllər qəbul edilmiş məxfi təlimatlar SSRİ xarici işlər nazirinin müavini V.Dekanozov tərəfindən Bakı şəhərinə göndərilmişdir. Məsələn, belə təlimatlardan biri 1942-ci il 3 dekabr tarixində silahların saxlanılması və uçotuna dair qəbul olunmuş məxfi təlimat idi. Digər bir təlimatda məxfi-şifr şöbəsinin əməkdaşlarının əmək haqlarına əlavəyə dair SSRİ Xalq Komissarları Sovetinin 1944-cü il 31 avqust tarixində verdiyi əmrin sentyabrın 25-dən müttəfiq respublikalardakı müvafiq əməkdaşlara da tətbiq olunması öz əksini tapırdı.

Komissarlıqda fəaliyyət göstərən bütün şöbələrin fəaliyyəti SSRİ XXİK-lə razılaşdırılırdı. Bu şöbələrdən biri də məxfi-şifr şöbəsi idi. Məxfi-şifr şöbəsinin müdiri Tofiq Allahverdiyev təyin olunmuşdur və şöbədə görülən bütün işlərin planı onun tərəfindən SSRİ XXİK-ə göndərilirdi [22,s.114-115].

Komissarlıq yaradıldıqdan sonra kiçik bir diplomatik heyətlə fəaliyyətə başladı. Komissarlığın SSRİ-nin Türkiyə və İranla olan münasibətlərində fəal rol oynayacağı gözlənilirdi [22,s.118]. Komissarlığın rəhbər heyətinin bu ölkələrdə gedən siyasi proseslərlə tanış olmaları üçün SSRİ XXİK tərəfindən bir sıra məlumatlar Bakıya göndərilmişdir. Onların sırasında Türkiyə və İrandan eləcə də Misir və Əfqanıstandan sovet diplomatik nümayəndəliklərinin Moskva şəhərinə göndərdiyi hesabatlar, dövlət xadimlərinin xarakteristikaları, o cümlədən, bir sıra sənədlər yer alırdı [22,s.115].

1945-ci ildən Komissarlıq fəaliyyətini daha da genişləndirmişdir. M.Əliyev yanvar ayında D.Qayıbovun siyasi şöbənin müdiri vəzifəsinə, M.Qazıyevin komissar köməkçisi vəzifəsinə, M.Orucovun protokol-konsulluq şöbəsinin müdiri vəzifəsinə, T.Allahverdiyevin məxfi-şifr şöbəsinin müdiri, M.Əfəndiyevin isə kadrlar şöbəsinin müdiri vəzifəsinə təyin edilməsini V.Dekanozovdan xahiş etmişdir. Bu, Komissarlığın fəaliyyətinə əməli xarakter vermək üçün mühüm bir addım idi. Onlar 1944-cü ildən Komissarlıqda fəaliyyət göstərsələr də əmrləri təsdiq edilməmişdir. Sovet İttifaqının mövcud qaydalarına görə bu şəxslərin əmrləri İttifaq Komissarlığında təsdiq olunmalı idi [22,s.220].

Komissarlığın əsas fəaliyyət istiqaməti İranla bağlı məsələlərə yönəlmişdir. 1945-ci ildə Komissarlıq kiçik elmi potensialı ilə "İran hadisələrinə dair diplomatik sənədlər toplusu"nun təhlilinə dair M.Əliyev tərəfindən imzalanmış 15 səhifəlik sənəd hazırlamışdır. Bu sənədlər toplusu, hələ 1911-1913-cü illərdə Sankt-Peterburqda nəşr olunmuşdur. Sənədlər toplusu yeddi buraxılışdan ibarət idi və burada Cənubi Azərbaycanda baş verən hadisələr də öz əksini tapmışdır [22,s.223]. Bu dövrdə Komissarlıq tərəfindən Cənubi Azərbaycanda əhali arasında yayılması üçün Azərbaycan SSR-ə dair Azərbaycan dilində bir əsərin nəşr olunmasına xüsusi önəm verilirdi. M.Əliyev bunun üçün avqust ayında müvafiq olaraq SSRİ XXİK-ə müraciət

etmişdir. SSRİ XXİK həcmi 8-10 vərəqi əhatə edən, Azərbaycan dilində belə bir əsərin nəşr olunmasına etiraz etməmişdir [22,s.227].

Bu illərdə İranda keçirilən tədbirlərlə bağlı xarici ölkələrə gediş-gəliş artmışdır. Müvafiq olaraq Komissarlıq tərəfindən xaricə səfərləri tənzimləyən bir sıra normativ hüquqi aktlar hazırlanmışdır. Protokol-konsulluq şöbəsi tərəfindən "Xaricə ezam olunan Azərbaycan SSR vətəndaşları üçün qaydalar" adlı 35 bənddən ibarət sənəd hazırlanmışdır və bu sənəd, mart ayının 6-da M.Əliyev tərəfindən təsdiq olunmuşdur [22,s.228]. Digər bir sənəd isə "Xarici diplomatik nümayəndəliklərin, onların əməkdaşlarının və onlara bərabər tutulan şəxslərin qeydiyyatı haqqında qaydalar" adlı sənəd olmuşdur [22,s.230].

SSRİ-nin İranda neft və Cənubi Azərbaycanda ərazi maraqlarının həyata keçirilməsi onun xarici siyasət kursunun əsas istiqamətlərindən biri idi. Bu maraqların həyata keçirilməsində Azərbaycan SSR XXİK fəal rol oynayırdı. SSRİ-nin İran siyasəti çərçivəsində Azərbaycan SSR XXİK fəaliyyət sahəsini genişləndirmişdir. Azərbaycanlı nümayəndə heyəti Tehran və Cənubi Azərbaycanın digər şəhərlərinə ezam olunurdular və burada siyasi, diplomatik və hərbi təcrübə proqramlarında iştirak edirdilər. Artıq 1946-cı ildən SSRİ-də komissarlıq sisteminin ləğv olunması nəticəsində XXİK Xarici İşlər Nazirliyinə çevrilmişdir. Lakin XİN yenə də məhdud xarakterli bir qurum olaraq qalırdı və qurumun bütün fəaliyyəti SSRİ XİN-lə razılaşdırılırdı. Sovet hakimiyyəti illərində XİN-ə Mahmud Əliyev, Tahirə Tahirova, Elmira Qafarova kimi nazirlər rəhbərlik etmişlər [51,s.6-7].

Mahmud Əliyev komissar təyin olunmazdan əvvəl SSRİ xarici işlər komissarının müavini vəzifəsində fəaliyyət göstərmişdir. Daha sonra müttəfiq respublikalarda komissarlıqlar təşkil olunduqdan sonra xalq xarici işlər komissarı vəzifəsinə təyin olunmuşdur. Komissarlıq sisteminin ləğvindən sonra Azərbaycan SSR xarici işlər naziri vəzifəsində çalışmışdır. O, Azərbaycanın səlahiyyətli nümayəndəsi kimi bir sıra dövlətlərlə iqtisadi və mədəni əlaqələrin yaradılmasında iştirak edirdi. Eyni zamanda o, SSRİ nümayəndə heyətinin tərkibində bir sıra beynəlxalq toplantı və müşavirələrdə iştirak edirdi. Azərbaycan SSR XİN məhdud xarakterli qurum olduğu üçün

Azərbaycan nümayəndə heyəti xarici dövlətlərə sovet nümayəndə heyətinin tərkibində səfərlər edirdi.1953-cü ildən Azərbaycanın SSRİ-nin Şərq siyasətində rolu artmışdır [30,s.89].

M.Əliyevdən sonra Azərbaycan SSR XİN-ə Tahirə Tahirova rəhbərlik etmişdir. T.Tahirova 1959-1983-cü illər ərzində xarici işlər naziri kimi fəaliyyət göstərmişdir. O, Azərbaycan SSR xarici işlər naziri kimi xarici ölkələrlə elmi-texniki, mədəni və iqtisadi əlaqələrin genişləndirilməsində fəal iştirak etmişdir. Eyni zamanda o, SSRİ-nin xaricdəki sərgi və yarmarkalarında Azərbaycan SSR-in sənaye və kənd təsərrüfatı məhsullarının nümayiş etdirilməsində yaxından iştirak etmişdir. Şərqi Avropanın sosialist ölkələri olan Bolqarıstan, Almaniya Demokratik Respublikası(ADR) və Macarıstanın Bakıda ixtisaslaşdırılmış sərgilərinin keçirilməsində xarici işlər naziri kimi fəal iştirak etmişdir. T.Tahirova BMT-nin bir sıra sessiyalarında SSRİ nümayəndə heyətinin tərkibində iştirak edirdi və o, belə ali məclislərdə diplomat qismində iştirak etmiş ilk azərbaycanlı qadın olmuşdur [30,s.93-93].

Bu dövrdə Azərbaycan SSR XİN-in işində mühüm istiqamətlərdən biri xaricdən SSRİ-yə daimi yaşamaq üçün qayıdan sovet vətəndaşları üçün sənədlərin rəsmiləşdirilməsi ilə bağlı konsulluq fəaliyyəti olmuşdur [64,s.139]. 1962-ci il 16 iyun tarixində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən sovet vətəndaşlığına qəbul olunmaq üçün müraciət etmiş şəxslərin işlərinə baxılması üçün respublika komissiyasının yaradılması haqqında fərman qəbul edilmişdir. Komissiyaya Azərbaycan SSR xarici işlər naziri T.Tahirova, ictimai asayiş naziri X.Məmmədov və başqaları daxil idi [64,s.140].

60-cı illərin əvvəllərində Sovet-İran münasibətlərinin yaxşılaşması ilə əlaqədar respublika XİN-in iş yükü artmışdır. Sovet-İran iqtisadi və texniki əməkdaşlığının canlanması iki ölkə arasında 1963-cü il 27 iyul tarixində Araz çayında su-elektrik stansiyaları kompleksinin tikintisini nəzərdə tutan sazişin imzalanması ilə bağlı olmuşdur. Azərbaycan SSR XİN SSRİ ilə İran arasında siyasi, ticarət-iqtisadi, elmi və mədəni əlaqələrin daha da inkişaf etdirilməsinə yönəlmiş müxtəlif təkliflərin hazırlanmasında iştirak edirdi. Bu şəraitdə Azərbaycan SSR XİN Sovet İttifaqı

Kommunist Partiyası Mərkəzi Komitəsi(Sov.İKP MK) Katibliyinin 1958-ci il 19 apreldə qəbul etdiyi "İttifaq respublikalarının kadrlarının xarici siyasət fəaliyyətinə daha fəal cəlb edilməsi haqqında" qərarından istifadə edərək, fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün bir sıra təklif və tövsiyələr irəli sürmüşdür. Həmçinin Azərbaycan SSR XİN-ə Türkiyə, İran, ərəb ölkələrinin mətbuat icmallarının və bu ölkələrin siyasi, iqtisadi və mədəni həyatının öyrənilməsi üçün zəruri olan materialların təqdim olunması ilə bağlı, elmi kadrların, mədəniyyət xadimlərinin, tələbələrin mübadiləsinə dair təkliflər irəli sürülmüşdür [64,s.141].

T.Tahirovanın nazirliyə rəhbərlik etdiyi illərdə nazirliyin informasiya və mətbuat şöbəsinin müdiri vəzifəsində çalışmış, 1-ci dərəcəli birinci katib rütbəli Fikrət Sadıxov bildirirdi ki: "Bizim şöbə respublikanın xarici əlaqələr koordinatoru rolunu öz üzərinə götürüb." Respublikanın xaricdə imicinin formalaşmasında informasiya və mətbuat şöbəsinin rolu böyük idi.Respublika XİN-in həmin dövrdə yerinə yetirməli olduğu vəzifələr sırasında ilk növbədə vasitəçilik funksiyasını qeyd etmək olar: 1979-1988-ci illərdə İran-İraq müharibəsi zamanı T.Tahirovanın rəhbərlik etdiyi nazirlik münaqişənin həlli prosesində fəal iştirak etmişdir. F.Sadıxov qeyd edirdi ki, o, bir neçə dəfə T.Tahirovanın tapşırığı ilə İran-İraq danışıqlarında iştirak edən yüksək səviyyəli qonaqları müşayiət etmişdir. Onların sırasında Yasir Ərəfat, Kubanın xarici işlər naziri İsidora Malmierka və digərləri olmuşdur.

F.Sadıxov T.Tahirovanın respublikanın diplomatik kadrlarının yetişdirilməsində böyük işlər gördüyünü qeyd edirdi. O, bildirirdi ki:"Tahirə xanım bizim nazirliyin əməkdaşlarının SSRİ XİN-in protokol-konsulluq fəaliyyətinə cəlb olunması üçün, bizim orada təcrübə keçməyimiz üçün, xarici jurnalistlərin mətbuat konfranslarında iştirak etmək və nümayəndə heyətlərinin tərkibinə daxil olmağımız üçün çox çalışmışdır." F.Sadıxov tez-tez xaricdə olduqları üçün diplomat üçün lazım olan təcrübəni qazandıqlarını vurğulayırdı. O, 1978-ci ildə SSRİ-də rəsmi səfərdə olan İsveç kralı XVI Qustav və onun həyat yoldaşını müşayiət edən sovet nümayəndə heyətinin tərkibinə daxil olmuşdur [62].

XX əsrin 70-80-ci illərində Azərbaycan SSR-in beynəlxalq mədəni, humanitar və iqtisadi əlaqələri daha da genişlənmişdir. Xarici ölkələrin siyasi xadimləri SSRİ-yə səfər etdikdən sonra Azərbaycan SSR-ə də səfər edirdilər. Onların sırasında Türkiyə xarici işlər naziri İltər Türkmən, İran şahı, Finlandiya prezidenti və başqaları olmuşdur. SSRİ XİN-də XX əsrin 70-ci illərində fəaliyyət göstərən azərbaycanlı diplomatların sayı artmışdır. Bu illərdə təxminən 37 nəfər azərbaycanlı burada diplomat kimi fəaliyyət göstərirdi [30,s.93-94] Həmin illərdə xarici ölkələrin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfirləri Azərbaycan SSR-də olarkən respublika XİN-də də olurdular. Onların sırasında Yuqoslaviyanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Yoje Smolenin, Bolqarıstan səfiri Dimitr Julevin respublikaya səfərini, 1980-ci ildə Yuqoslaviya səfiri Marko Orlandiçin səfərlərini göstərmək olar [60].

T.Tahirovadan sonra Azərbaycan SSR XİN-ə Elmira Qafarova rəhbərlik etmişdir və o, 1983-1987-ci illər ərzində xarici işlər naziri kimi fəaliyyət göstərmişdir.E.Qafarova xarici işlər naziri kimi bir sıra Avropa, Asiya və Afrika ölkələri ilə ictimai və mədəni əlaqələrin genişləndirilməsində yaxından iştirak etmişdir. O cümlədən BMT-nin bir sıra sessiyalarında və komitələrin iclaslarında iştirak etmişdir [30,s.97].

1989-1991-ci illərdə ittifaq respublikaları dövlət və hökumət səfərlərinin hazırlanmasında və həyata keçirilməsində iştirak edir, onların mənafeyinə bilavasitə toxunan danışıqlarda iştirak edirdilər. İttifaq respublikaları Sovet xarici siyasətinin istiqamətlərindən biri olan Ümumavropa prosesində fəal iştirak edirdilər. SSRİ XİN respublikaların Xarici İşlər Nazirlikləri ilə Ümumavropa prosesində məsləhətləşmələr aparırdı və onlar vahid mövqeyə gəlmək üçün səylərini birləşdirirdilər. İttifaq respublikalarının nümayəndələri səmərəli şəkildə Ümumavropa prosesində müttəfiq nümayəndə heyətlərinin tərkibində fəaliyyət göstərmişlər. Azərbaycanın nümayəndə heyəti Bonn iqtisadi əməkdaşlıq konfransında, Türkiyədə Qara dəniz regionunda əməkdaşlığın inkişafı üzrə məsləhətləşmələrdə iştirak etmişdir [52,s.24-25].

Ümumiyyətlə, Azərbaycan SSR XİN-in fəaliyyəti formal xarakter daşıyırdı,çünki onun fəaliyyəti SSRİ XİN-in fəaliyyətinə uyğunlaşdırılırdı və Azərbaycanın

diplomatiya sahəsində SSRİ-nin beynəlxalq əlaqələrində iştirak etmək üçün geniş hüquqları yox idi. Azərbaycan SSR ölkənin diplomatik həyatında çox zəif təmsil olunurdu. SSRİ-nin diplomatik korpuslarında azərbaycanlı işçilərin də sayı az idi. 70 il ərzində SSRİ-nin diplomatik korpuslarında çalışan azərbaycanlılardan biri onun Pakistandakı səfiri A.X.Vəzirov olmuşdur [63,s.87].

Tədqiqat dövründə respublikanın xarici əlaqələri mərkəzin səlahiyyətində olmuşdur və ittifaq respublikaları müvafiq nazirliklərin fəaliyyətini Sovet İttifaqının bağladığı beynəlxalq müqavilə və sazişlərin müddəalarına uyğun olaraq SSRİ XİN-in fəaliyyətinə uyğunlaşdırmalı idilər.

# II FƏSİL. AZƏRBAYCAN SSR-İN ŞƏRQİ AVROPANIN SOSİALİST ÖLKƏLƏRİ İLƏ SİYASİ VƏ İQTİSADİ ƏLAQƏLƏRİ

## 2.1 Siyasi əlaqələr

Azərbaycan Sovet hakimiyyəti illərində xarici dövlətlərlə birbaşa olaraq siyasi əlaqələrə malik olmamışdır. Müstəqil xarici siyasət kursuna malik olmadığına görə onun ərazisində xarici dövlətlərin diplomatik orqanları fəaliyyət göstərmirdi. Şərqi Avropanın sosialist ölkələri ilə siyasi əlaqələr yalnız SSRİ-nin bu ölkələrlə olan əlaqələri çərçivəsində saxlanılırdı. Həmin ölkələrin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfirləri Azərbaycan SSR-ə səfərlərdə iştirak edirdilər. Bu səfərlər əsasən XX əsrin 70-80-ci illərindən təşkil olunurdu.

Azərbaycan SSR-in SSRİ-nin əlaqələri çərçivəsində xarici dövlətlərlə əlaqələrində respublikanın bir sıra dövlət orqanları, partiyaları müəyyən rol oynayırdılar. Bu orqanların sırasında Azərbaycan Kommunist Partiyası(KP) Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi, Azərbaycan SSR Nazirlər Soveti, Azərbaycan SSR XİN, Respublika Dövlət Plan Komitəsi, Azərbaycanın Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, Gənclər Təşkilatı Komitəsi və digər orqanları göstərmək olar [63,s.63]. Siyasi sahədə respublikamız digər ittifaq respublikaları kimi yalnız xarici ölkələrdən SSRİ-yə gəlmiş nümayəndə heyətlərinin qəbulunu, onların respublikaya səfər proqramlarının hazırlanması, sərgi və simpoziumlarda iştirakının təşkil olunması işində iştirak edirdi. Azərbaycan diplomatiya sahəsində SSRİ-nin beynəlxalq əlaqələrində iştirak etmək üçün geniş hüquqlara malik deyildi [63,s.86]. Azərbaycan SSR-ə səfər edən nümayəndə heyətləri ictimai-siyasi formalarına görə bir neçə yerə ayrılırdılar. Onların sırasında siyasi partiyalar, partiya və dövlətlərin birgə nümayəndəlikləri, qadın və gənclər təşkilatları,parlamentlərin nümayəndəlikləri yer alırdı [49,s.209].

Tədqiqat dövründə Şərqi Avropanın sosialist ölkələrinin nümayəndə heyətləri Azərbaycan SSR-ə səfərlərdə iştirak edirdilər. 1970-ci ildə Sarayevo şəhərinin nümayəndə heyətinin Azərbaycan SSR-ə səfəri olmuşdur. Nümayəndə heyətinin qəbulu Azərbaycan KP Bakı Şəhər Komitəsinə həvalə edilmişdir. Nümayəndə heyəti

ilə işləmək və onları respublika üzrə səfərdə müşayiət etmək üçün Azərbaycan KP Bakı Şəhər Komitəsinin katibi yoldaş Qafarov müəyyən edilmişdir. Qonaqların respublikada olması, o cümlədən fotoşəkillərin çəkilməsi və xatirə hədiyyələrinin təqdim edilməsi ilə bağlı 250 rubla qədər məbləğdə xərclər respublika Nazirlər Şurasının ehtiyat fonduna aid edilmişdir [59,s.258].

1971-ci ildə Rumıniya Kommunist Partiyasının (RKP) baş katibi Nikolaye Çauşesku SSRİ-yə səfər etmişdir. Bu səfər çərçivəsində aprel ayının 6-da onun başçılıq etdiyi 21 nəfərlik nümayəndə heyəti Azərbaycan SSR-də olmuşdur. N.Çauşeskunun başçılıq etdiyi nümayəndə heyətini Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsini icra edən Heydər Əliyev qəbul etmişdir. RKP nümayəndə heyəti səfər çərçivəsində Bakı şəhərinin görməli yerləri ilə tanış olmuşdur [25,s.22].

1976-cı ildə partiya komitəsinin katibi İonesku Florinin başçılığı ilə RKP Piteşti şəhər Komitəsinin nümayəndə heyətinin Azərbaycan SSR-də olması haqqında sənəd qəbul edilmişdir. Proqramın həyata keçirilməsinə yardım göstərmək üçün Azərbaycan KP Bakı Şəhər Komitəsi və Şamaxı Rayon Komitəsi müəyyənləşdirilmişdir. Qonaqları yoldaş Q.Seyidov qəbul etmişdir. Rumıniya nümayəndə heyətinin respublikada qalması ilə bağlı maliyyə məsələlərinə baxılması və həll edilməsi Azərbaycan SSR Nazirlər Sovetinə həvalə edilmişdir. Səfər 27 aprel tarixindən 3 may tarixinə qədər nəzərdə tutulmuşdur. Nümayəndə heyəti 27 aprel tarixində Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 56-cı ildönümünə və 1 May gününə həsr olunmuş təntənəli yığıncaqda iştirak etmişdir. 28 aprel tarixində Azərbaycan KP Sumqayıt Şəhər Komitəsində yoldaş K.Bağırovla görüşdə, şəhər partiya komitəsinin şöbələrində təcrübə mübadiləsi, Azərbaycan KP Sumqayıt Şəhər Komitəsi ilə RKP Piteşti Şəhər Komitəsi arasında əlaqələrin daha da inkişaf etdirilməsi üzrə tədbirlərin müzakirəsində iştirak etmişdir, partiya,ictimai təşkilatların və dövlət orqanlarının fəaliyyətinin qarşılıqlı təkmilləşdirilməsinə dair danışıqlar baş tutmuşdur. Nümayəndə heyəti 29 aprel tarixində Sumqayıt zavodları və organik məhsulların olduğu yerləri ziyarət etmişdir və partiya təşkilatlarında görüşlərdə iştirak etmişdir. 30 aprel tarixində isə

Bakı şəhərində Azərbaycan KP Mərkəzi Komitəsi tərəfindən qəbul edilmiş və 26 Bakı Komissarı Memorialını ziyarət etmişdir [60,s.23-24].

1976-cı il 12 sentyabr tarixində Sovet İttifaqında məzuniyyətdə olan RKP-nin bir qrup məsul işçisi mahal xalq şurasının sədr müavini yoldaş Dimitri Petreskinin başçılığı altında 3 günlük müddətə Bakıya gəlmişdir. Nümayəndə heyətinin tərkibinə 12 evli cütlük,o cümlədən 4 mahal partiya komitəsinin katibi, RKP rayon komitəsinin 3 katibi və bir sıra fəallar daxil idi. Səfər çərçivəsində nümayəndə heyətini tərçüməçilər T.V.Kuzmina və İ.V Şmakov müşayiət etmişdir [60,s.35].

1977-ci ildə 22 oktyabr tarixində RKP-nin nümayəndə heyəti Azərbaycan SSR-də olmuşdur. Qəbul olunmuş sənəddə RKP Mərkəzi Partiya Kollegiyasının üzvü, partiyanın rayon komitəsinin katibi Leke Tuşunun başçılığı ilə RKP-nin bir qrup məsul işçisinin Azərbaycan SSR-də qalma proqramı təsdiq edilmişdir. Nümayəndə heyətini yoldaş A.Kərimov qəbul etmişdir. Qonaqları respublika üzrə səfərdə müşayiət etmək üçün V.İ.Lenin adına Mərkəzi Muzeyin Bakı filialının direktor müavini yoldaş F.Qənizadə təyin edilmişdir [60,s.157].

1977-ci ildə Slovakiya Sosialist Respublikası höküməti sədrinin müavini Karol Martinkanın başçılıq etdiyi Çexslovakiya hökümətinin nümayəndə heyəti Azərbaycan SSR-də səfərdə olmuşdur. Proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə yardım göstərmək Azərbaycan KP Bakı və Sumqayıt Şəhər Komitələrinə həvalə edilmişdir. Qonaqları səfər çərçivəsində yoldaş N.Xələfbəyov müşayiət etmişdir və onları Q.Seyidov və İ.İbrahimov qəbul etmişdir. Xərclər və hədiyyələr 200 rubl məbləğində müəyyənləşdirilmişdir və bu, respublika Nazirlər Sovetinin ehtiyat fonduna aid edilirdi. 25 sentyabr tarixində qonaqlar A.Qədirov, K.Akimov, N.Xələfbəyov və A.Bəşirzadə tərəfindən Bakı hava limanında qarşılanmışdır və onlar üçün “Çayka” və “Qaz-24” avtomobilləri müəyyənləşdirilmişdir. 26 sentyabr tarixində nümayəndə heyəti 26 Bakı Komissarı Memorialını ziyarət etmişdir. Səfər çərçivəsində nümayəndə heyəti Azərbaycan SSR Nazirlər Sovetində olmuşdur. Eyni zamanda onlar Azərbaycan KP Mərkəzi Komitısi tərəfindən qəbul edilmişdir [60,s.153-155].

1978-ci ildə Çexslovakiya Qadınlar Komitəsinin sədri Mariya Kabrgelova Azərbaycan SSR-də 2 günlük müddətinə səfərdə oluşdur. Bakıda olarkən M.Kabrgelovanı Sovet Qadınlar Komitəsinin məsul katibi L.Koşelev, komitənin referenti L.Modlyakin və tərcüməçi T.Dobrınina müşayiət etmişdir. M.Kabrgelovanı yoldaş R.Məmmədzadə qəbul etmişdir [60,s.199].

1978-ci il tarixində Çexslovakiyanın xarici işlər naziri Boquslav Xneupek Azərbaycan SSR-də olmuşdur. Qonaqları qarşılamaq Azərbaycan SSR XİN-ə və respublika Nazirlər Sovetinin İnzibati İdarəsinə həvalə edilmişdir. B.Xneupeki respublika səfərində Azərbaycan SSR xarici işlər naziri T.Tahirova müşayiət etmişdir. Eyni zamanda B.Xneupekin H.Əliyev ilə görüşü baş tutmuşdur. B.Xneupekin səfəri ilə bağlı xərclər SSRİ Nazirlər Sovetinin ehtiyat fonduna aid edilirdi. Qonaqlara xatirə hədiyyələrinin təqdim edilməsi ilə bağlı xərclər üçün isə Azərbaycan SSR Nazirlər Soveti ehtiyat fondu nəzərdə tutulmuşdur. B.Xneupekin başçılıq etdiyi nümayəndə heyəti Bakıda olarkən Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi yoldaş H.Əliyelə görüşdə olmuşdur. Eyni zamanda B.Xneupek A.İbrahimov, R.Məmmədzadə və T.Tahirova tərəfindən qəbul edilmişdir [60,s.202].

1978-ci ildə Azərbaycan SSR hökümətinin nümayəndə heyətinə Zaqreb şəhərində keçirilən beynəlxalq yarmarkada Azərbaycan SSR Gününə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Yuqoslaviyaya səfər etmək tövsiyı olunmuşdur. Nümayəndə heyətinin tərkibinə S.Tatliev, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini Ş.Əliyev və başqaları daxil idi [60,s.251].

1978-ci ilin avqust-sentyabr aylarında Azərbaycan KP Bakı Şəhər Komitəsinin münayəndə heyəti 7 günlük müddətə Yuqoslaviyada səfərdə olmuşdur. Heyətin təkibinə Azərbaycan KP Bakı Şəhər Komitəsinin birinci katibi Ə.Kərimov, Bakı Şəhər İcraiyyə Komitəsinin sədr müavini V.Mayorov və Azərbaycan KP Bakı Şəhər Komitəsinin sənaye və nəqliyyat şöbəsinin müdiri T.Axundov daxil idi. Nümayəndə heyətinin Yuqoslaviyaya səfəri ilə bağlı maliyyə məsələləri Azərbaycan SSR Nazirlər Sovetinə həvalə olunmuşdur [60,s.239].

Həmin ilin oktyabr ayında Yuqoslaviya Kommunistlər İttifaqı Mərkəzi Komitəsinin üzvü, Yuqoslaviyanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Yoje Smole 2 günlük müddətə Bakı şəhərində səfərdə olmuşdur. SSRİ XİN-in Beşinci Avropa şöbəsinin müdiri V.Qrubyakov Y.Smole Azərbaycan SSR-də olarkən Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd,Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi H.Əliyev ilə görüşmək niyyətində olduğunu bildirmişdir. Məsələnin mahiyyəti üzrə Sov.İKP MK-nın müvafiq şöbəsinin Yuqoslaviya sektorunun müdiri L.Nikiforov ilə məsləhətləşmələr aparılmışdır. Sov.İKP MK-nın şöbə müdiri buna etiraz etməmişdir və H.Əliyev də bu fikri dəstəkləmişdir. Y.Smole Bakıda olarkən Azərbaycan KP Mərkəzi Komitəsi tərəfindən qəbul edilmişdir, eyni zamanda o, Azərbaycan SSR XİN-də olmuşdur, Bakı Şəhər Partiya Komitəsində A.Kərimovla görüşdə olmuşdur.

Yuqoslaviya Sosialist Federativ Respublikasının
SSRİ-dəki səfiri

11 oktyabr 1978

*Hörmətli yoldaş Əliyev,*

*Gözəl respublikanızda olduğumuz müddətdə bizə göstərilən səmimi diqqətə və maraqlı söhbətə görə səmimi minnətdarlığımı qəbul edin.Onu da nəzərinizə çatdırmaq istəyirəm ki, Azərbaycan SSR XİN çox gözəl proqram hazırlamışdır, bu da bizə Bakı şəhərinin nailiyyətləri ilə yaxından tanış olmaq imkanı verdi.Fürsətdən istifadə edərək, Sizə səmimi dostluq salamları və ən xoş arzularımı göndərirəm.*

*Hörmətlə.....*

İmza:Yoje Smole [60,s.255-257]

1978-ci il 30-31 oktyabr tarixlərində Bolqarıstanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Dimitr Julev Azərbaycan SSR-də səfərdə olmuşdur. Azərbaycan KP Bakı, Kirovabad Şəhər Komitələri, Qazax Rayon Komitəsi səfərin proqramında nəzərdə tutlmuş rədbirlərin həyata keçirilməsinə köməklik göstərmişlər [60,s.261].

1979-cu ildə Polşa Xalq Respublikasının(PXR) SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri K.Olşeviski 4 günlük müddətinə Azərbaycan SSR-də səfərdə olmuşdur. Azərbaycan KP Bakı Şəhər Komitəsi proqramda müəyyənləşdirilmiş tədbirlərin həyata keçirilməsi işində iştirak etmişdir. Səfər çərçivəsində K.Olşeviski yoldaş H.Əliyev tərəfindən qəbul edilmişdir, eyni zamanda Azərbaycan SSR XİN-də olmuşdur. K.Olşeviski səfər çərçivəsində 26 Bakı Komissarı Memorialını da ziyarət etmişdir [60,s.338].

1980-ci ildə Bolqarıstan Kommunist Partiyasının(BKP) nümayəndə heyəti Azərbaycan SSR-də olmuşdur. Nümayəndə heyətinin Azərbaycan səfəri ilə bağlı məsələlərə Azərbaycan KP Bakı Şəhər Komitəsi köməklik göstərmişdir.BKP-nin nümayəndə heyətinin qəbul edilməsi üçün yoldaş K.Bağırov təlimatlandırılmışdır. Qonaqlarla məşğul olmaq və onları səfər çərçivəsində müşayiət etmək üçün Azərbaycan KP Mərkəzi Komitəsi tərəfindən yoldaş T.Rəsulovun başçılıq etdiyi bir qrup təşkil edilmişdir. Nümayəndə heyəti 3 günlük müddətə Azərbaycan SSR-də səfərdə olmuşdur və onun tərkibinə BKP Mərkəzi Komitəsinin üzvlüyünə namizəd, BKP Silistra Rayon Komitəsinin birinci katibi yoldaş Q.Kardaşev, Silistra Şəhər Komitəsinin katibi D.Savov, Radulovski İcma Komitəsinin katibi D.Çauşev və Dimitrovski Kommunist Gənclər İttifaqının Silistra Rayon Komitəsinin katibi V.Draqonov daxil idi [60,s.363-364].

1980-ci ildə 10-13 avqust tarixlərində Bolqarıstan Xalq Respublikasının(BXR)bir qrup məsul partiya işçisi Azərbaycan SSR-də səfərdə olmuşdur. Səfərin proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə köməklik göstərmək Azərbaycan KP Bakı Şəhər Komitəsi, Abşeron Rayon Komitəsinə həvalə edilmişdir. Qonaqların qəbulu üçün isə yoldaş Q.İbrahimov təlimatlandırılmışdır. Respublikada olduqları müddətdə nümayəndə heyətini S.Kirov adına Respublika Siyasi Maarif Evinin məsləhətçisi A.Səfərov müşayiət etmişdir [60,s.386-387].

1980-ci ildə 14 dekabr tarixində Yuqoslaviyanın SSRİ-dəki fövqəladə və səlahiyyətli səfiri Marko Orlandiç 2 günlük müddətə Bakıda səfərdə olmuşdur. M.Orlandiç Bakıda olarkən Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi

H.Əliyev və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri K.Xəlilov ilə görüşlərdə iştirak etmişdir [60,s.421].

1981-ci ildə Bolqarıstan Teleqraf Agentliyinin nümayəndə heyəti agentliyin baş direktoru Boyan Traykovun başçılığı ilə Azərbaycan SSR-də olmuşdur. Nümayəndə heyətini H.Əliyev qəbul etmişdir və nümayəndə heyətini səfər çərçivəsində müşayiət etmək üçün yoldaş E.Qurviç təlimatlandırılmışdır [60,s.499].

Azərbaycan SSR Sovet İttifaqının bir üzvü kimi Qarşılıqlı İqtisadi Yardım Şurası(QİYŞ) daxilində Şərqi Avropanın sosialist ölkələri ilə siyasi və iqtisadi əlaqələrə malik olmuşdur. Bu ölkələrdən biri Macarıstan Xalq Respublikası(MXR) idi.XX əsrin 60-70-ci illərində Azərbaycan SSR və MXR arasında nümayəndəliklərin mübadiləsinə başlanılmışdır. Sovet hakimiyyəti illərində iki respublika arasında bir sıra razılaşmalar imzalanmışdır. Azərbaycan SSR-ə səfər edən nümayəndə heyətləri ilə hər zaman elm, mədəniyyət, kənd təsərrüfatı kimi sahələrə dair müvafiq sənədlər imzalanırdı və bu səfərlər qarşılıqlı olurdu.Azərbaycan SSR Macarıstanla birbaşa əlaqələr qurmuş dörd ittifaq respublikasından biri olmuşdur. Onlar nazirliklər, idarələr və birliklər səviyyəsində əlaqələr saxlayırdılar. Tərəflərin nümayəndə heyətlərinin ilk görüşü 1983-cü ildə baş tutmuşdur [53,s.84]. 1983-cü il mayın 3-6-da MXR Nazirlər Şurasının Katibliyinin rəhbəri Ferents Barta öz nümayəndə heyəti ilə Bakıda səfərdə olmuşdur. Həmin ilin noyabr ayında isə nümayəndə heyətlərinin Budapeşt şəhərində görüşləri baş tutmuşdur. 1985-ci ilin fevral ayında tərəflərin üçüncü rəsmi görüşü təşkil edilmişdir və bu siyasi əlaqələr SSRİ və MXR arasında 1981-ci ildə imzalanmış hökumətlərarası razılaşmanın nəticəsi idi [38,s.116-117].

XX əsrin 80-ci illərində SSRİ-nin siyasi,iqtisadi və mənəvi həyatında böhran mərhələsi başlanmışdır. 80-ci illərin ikinci yarısında Kommunist Partiyası tərəfindən Sovet İttifaqında böhran vəziyyətinin aradan qaldırılması üçün yenidənqurma cəhdləri edilsə də bu, bir nəticə verməmişdir [24,s.444].

80-ci illərin sonlarında Sovet İttifaqında baş verən proseslər Azərbaycanın Şərqi Avropa ölkələri ilə əlaqələrinə müəyyən təsir göstərmişdir. Sosializm sisteminin süquta yaxınlaşması bu ölkələrdə “məxməri inqilablar”ın baş verməsinə səbəb

olmuşdur. İttifaq respublikalarında milli azadlıq hərəkatları baş verirdi ki, bu respublikalardan biri Azərbaycan olmuşdur. Sovet İttifaqının dağılmasının nəticəsi olaraq Azərbaycan 1991-ci il 18 oktyabr tarixində öz müstəqilliyini bərpa etmişdir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra onun dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Rumıniya olmuşdur [25,s.27].

Beləliklə, Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Şərqi Avropa dövlətləri ilə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq etmişdir. Azərbaycan Respublikasının müvafiq ölkələrlə diplomatik əlaqələri qurulmuşdur və diplomatik nümayəndəliklər fəaliyyətə başlamışdır.

## 2.2 İqtisadi əlaqələr

Sovet hakimiyyəti illərində Azərbaycan müstəqil xarici siyasətə malik olmadığı üçün xarici dövlətlərlə birbaşa iqtisadi və siyasi əlaqələr saxlaya bilmirdi. Mərkəz tərəfindən əsasən mədəni əlaqələrin saxlanılmasına icazə verilirdi.Siyasi əlaqələr isə xarici ölkələrin sosialist partiyaları ilə saxlanılırdı. Yalnız XX əsrin 60-cı illərindən mərkəz tərəfindən Azərbaycanın xarici dövlətlərlə iqtisadi əlaqələr saxlamasına icazə verildi. Azərbaycanın xarici ölkələrlə olan beynəlxalq iqtisadi əlaqələrinin əsasını ölkənin zəngin təbii sərvətləri, coğrafi mövqeyi təşkil edirdi. Bu münasibətlər Azərbaycanda təsərrüfat sahəsinin inkişaf etməsinə müsbət təsir göstərirdi. Azərbaycanın xarici dövlətlərlə olan iqtisadi münasibətlərində neft amili önəmli faktor idi. Azərbaycan bu dövrdə öz neft məhsullarını müstəqil şəkildə dünya bazarına çıxara bilmirdi. 60-cı illərin sonlarından Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri bir qədər genişlənir və bu, Heydər Əliyevin Azərbaycana gəlməsi ilə bağlı olmuşdur. 70-80-ci illərdə Azərbaycanın iqtisadi əlaqələrinin əsasını xarici ticarət təşkil edirdi. Bu illərdə Azərbaycanın xarici ticarət əlaqələri saxladığı dövlətlərin sayı artmışdı,lakin əməkdaşlıq ediləcək dövlətlərin siyahısını Moskva müəyyənləşdirirdi.

Azərbaycan xarici ölkələrə neft və neft məhsulları,kənd təsərrüfatı məhsulları, müxtəlif elektronika məhsulları ixrac edirdi. Azərbaycanın xarici ticarət dövriyyəsinin əksəriyyətini Mərkəzi və Cənub-Şərqi Avropa ölkələri ilə əlaqələr təşkil edirdi.

Azərbaycanda fəaliyyət göstərən müəssisələr Çexslovakiya, Macarıstan, Polşa, Bolqarıstan, Yuqoslaviyaya məhsullar ixrac edirdi. Azərbaycanın xarici ölkələrlə iqtisadi əlaqələrində sərgi və yarmarkalar xüsusi yer tuturdu. Bu, ölkənin imkanlarını nümayiş etdirmək üçün səmərəli bir vasitə idi. Azərbaycan Plovdiv, Praqa, Poznan, Zaqreb, Leyspiq şəhərlərində keçirilən sərgi və yarmarkalarda iştirak edirdi. Eyni zamanda 70-80-ci illərdə Bakı şəhərində keçirilmiş sərgilərdə Azərbaycan elektronika, neft maşınqayırması, yüngül və yeyinti sənaye məhsullarını nümayiş etdirirdi [12].

Azərbaycan SSR QİYŞ daxilində Şərqi Avropanın sosialist ölkələri ilə iqtisadi əlaqələrə malik idi. 1949-cu ildə QİYŞ-in yaranması ilə bu təşkilat çərçivəsində Şərqi Avropanın sosialist ölkələri ilə iqtisadi və siyasi əlaqələr saxlanılmışdır. Müvafiq olaraq SSRİ-nin bu ölkələrlə əməkdaşlığında Azərbaycan SSR də iştirak etmişdir.

1960-cı illərin sonlarında Azərbaycan SSR-də çay çəkici-bükücü fabriki yaradılmışdır və Azərbaycan çayı xarici ölkələrin sərgilərində yüksək qiymətləndirilirdi. ADR, Çexslovakiya, Macarıstan, Bolqarıstan və digər sosialist ölkələrində təşkil olunmuş sərgilərdə Azərbaycan çayı nümayiş olunurdu [37,s.67].

XX əsrin 60-cı illərində Azərbaycan SSRİ-nin Şərqi Avropanın sosialist ölkələri ilə əməkdaşlığında yaxından iştirak edirdi. Bu illərdə Azərbaycan SSR-dən Bolqarıstana fantan armaturları, quraşdırma kranlar, nasos ştanqları, “URB-2A” markalı qazma aqreqatları, “LM-145” markalı maqnitlər ixrac olunurdu. Azərbaycan SSR-də B.Sərdarov adına, L.Şmidt adına, S.Kirov adına, Volodarski adına maşınqayırma müəssisələri bir sıra sosialist ölkələrinə məhsullar ixrac edirdilər. XX əsrin 60-70-ci illərində L.Şmidt adına Bakı maşınqayırma zavodundan Bolqarıstana 573,9 min manatlıq fantan armaturları ixrac olunmuşdur. Ümumiyyətlə, bu illər ərzində zavoddan Bolqarıstana 632,8 min manatlıq məhsul ixrac olunmuşdur. 1960-cı illərdə Bolqarıstan tərəfindən Bakı cihazqayırma zavoduna çoxsaylı sifarişlər edilirdi. Məsələn, “SM-66” markalı maşın, “B-10” markalı süzgəc, “RDV-5” markalı repraduktor bu sifarişlərin sırasında yer alırdı [50,s.12-14].

Azərbaycan SSR-də istehsal olunan 5 və 25 tonluq kranlar, dəzgahlar Bolqarıstan, Macarıstan kimi sosialist ölkələrdə istifadə olunurdu.Bu illərdə Sumqayıt boru-prokat

zavodundan Macarıstana borular ixrac olunurdu. Eyni zamanda Mingəçevir kənd təsərrüfatı təmiri zavodundan Bolqarıstana məhsullar göndərilirdi. Bakı mayesiz transformator zavodunun məhsulları isə Macarıstana ixrac olunurdu. Tədqiqat illərində Rumıniya,Bolqarıstan, Çexslovakiya kimi sosialist ölkələrdən Bakı şin zavodu, Sumqayıt alüminum zavodu, Kirovabad cihazqayırma zavoduna sifarişlər olunurdu. Bu illərdə Azərbaycan SSR-dən sosialist ölkələrə ixrac olunan məhsulları bu şəkildə göstərmək olar:

-Rumıniyaya Bakı tibb cihazları zavodu tərəfindən dərmanlar, Kirovabad yağ-piy kombinatı tərəfindən yuyucu maddələr, sabunlar, Maştağa konserv zavodu tərəfindən konservləşdirilmiş zeytun;

-Polşaya, ADR-ə, Macarıstana, Çexslovakiyaya Əli Bayramlı və Yevlax pambıq təmizləmə zavodu tərəfindən mahlıc;

-Yuqoslaviya və Macarıstana Bakı çaydoldurma fabriki tərəfindən Azərbaycan çayı;

-ADR və Çexslovakiyaya Sumqayıt kimya zavodu tərəfindən duru xlor və s. [18,s.4-5].

XX əsrin 60-cı illərində Azərbaycan SSR dünyanın  müxtəlif ölkələrinə 350 növ sənaye məhsulu ixrac edirdi. Azərbaycan SSR-in 300 adda məhsulu QİYŞ üzvü olan dövlətlərə ixrac edilirdi. Həmçinin sosialist ölkələrdən bir sıra məhsullar idxal edilirdi. Məsələn, bu illərdə konserv zavodları üçün Bolqarıstandan texnoloji avadanlıqlar, nəqliyyat sahəsinə dair bir sıra avadanlıqlar, tikilməkdə olan müəssisələr üçün ADR-dən metalçəkən dəzgah və aqreqatlar, konfetbükən maşınlar, Rumıniyadan böyük diametrli borular, transformatorlar, MXR-dən tibb ocaqları üçün, konserv zavodları və yeyinti məhsulları sənayesi üçün, yüngül və yerli sənaye üçün bir sıra avadanlıqlar idxal edilirdi.

Çexslovakiyadan Azərbaycan SSR-in zavodlarında istifadə üçün bir sıra avadanlıqlar idxal edilirdi. Onların sırasında Sumqayıt boru-prokat zavodu, Əli Bayramlı yağ-ekstrakt zavodu,Tumbul və Xaçmaz pivə zavodları üçün idxal olunan avadanlıqları, həmçinin kimya kombinatında istifadə üçün “Ema-Frida” firmasının məhsullarını göstərmək olar. Həmçinin ADR-dən bir sıra avadanlıqlar idxal olunurdu,

məsələn, ikimetrlik nadir teleskop burada mühüm yer tutur. Bu teleskop, həmçinin Şamaxı astrofizika laboratoriyasında qurulmuşdur. Digər sosialist ölkələri olan Bolqarıstan və Polşadan müxtəlif növ avadanlıq dəstləri, Rumıniyadan güc transformatorları idxal olunurdu [17,s.45-47].

1964-cü ildə Çexslovakiyanın partiya işçiləri Bakı şəhərində səfərdə olmuşlar. Nümayəndə heyətinə Çexslovakiya Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü Svaçina yoldaş başçılıq edirdi. Nümayəndə heyəti Bakıda olarkən Şin zavodu, Vladimir İliç adına Yeni Bakı neftayırma zavodu, həmçinin Neft daşlarını ziyarət etmişdir [16].

1969-cu ildə S.Murtuzayevin başçılığı ilə Abşeron rayonu zəhmətkeşlərinin nümayəndə heyəti Razqrad mahalına səfər etmişdir. Nümayəndə heyəti Razqraddakı, Kubratdakı,İsperixdəki və digər yerlərdəki antibiotiklər zavodu, şüşə və çini qablar zavodunu ziyarət etmişdir. Həmçinin nümayəndə heyəti Lojnista kəndindəki İvan Xoralanov adına əmək əkinçilik kooperativinə və ölkədə süd sağımına görə birinci olan "Prostorno" kooperativinə də səfər etmişdir [27].

Tədqiqat dövründə Sumqayıt Azərbaycan SSR-in ən böyük sənaye şəhəri hesab olunurdu. Sumqayıt zavodu ölkənin bir sıra neft rayonları ilə yanaşı xarici ölkələrin bəzi şəhərlərini də tikişsiz prokat borularla təchiz edirdi. Bundan əlavə Polşanın, Rumıniyanın, Bolqarıstanın və ADR-in neft mədənlərində Sumqayıt boru-prokat zavodunun məhsulu olan borulara rast gəlmək olardı [55,s.19].

Rumıniyalı kimyaçı-mühəndis Robert Lipkoviç ölkəmizdə olarkən sumqayıtlılar tərəfindən əziz qonaq kimi qəbul edilmişdir. R.Lipkoviç vurğulayırdı:" Mən ilk dəfədir Sovet İttifaqındayam. Mən sizin günəşli ölkənizin sadə sovet insanlarının həyatı və məişəti ilə çoxdan tanış olmaq istəyirdim. Mənim arzum artıq reallaşdı. Sumqayıtda olarkən mən sənaye müəssisələri ilə, bu müəssisələrdə çalışan zəhmətkeşlərin misilsiz nailiyyətləri ilə tanış oldum. Sumqayıtlıların bizə- rumın mütəxəssislərə göstərdikləri qayğının heç vaxt unutmayacağıq" [55,s.111].

Sumqayıtlı kimyaçılar Loyna qor zavodunun nümayəndələri olan alman mütəxəssislər Vilhelm Rixter və Verner Rozenkrantsın işləri ilə tanış olmuşdur.

Leyspiq yazırdı:”Bir qrup azərbaycanlı kimyaçılar ölkəmizdə səfərdə olmuşlar. Onlar Berlin və onun ətrafındakı kimya zavodlarını ziyarət edib, burada çalışan əməkdaşlara faydalı məsləhətlər vermişlər.”

Sumqayıtdakı boru-prokat zavodunda azərbaycanlı metallurqların macar-sovet dostluq cəmiyyətinin nümayəndə heyəti ilə görüşü olmuşdur. Sumqayıt macar dostlarına öz doğma şəhərlərini xatırladırdı.Həmin illərdə, həmçinin başqa ölkələrin nümayəndə heyətləri Sumqayıtda səfərdə olmuşdur. Onların sırasında Çexslovakiya, ADR, Polşa, Rumıniya, Yuqoslaviyanın nümayəndələri olmuşdur [55,s.112-113].

1970-ci illərdə keçirilən beynəlxalq Leyspiq sərgisində, beynəlxalq Plovdiv yarmarkasında Azərbaycan SSR-in barama sortları və ipəyi nümayiş olunurdu [37,s.140]. Bu illərdə H.Əliyev Azərbaycan SSR-də çay yarpağının istehsal olunmasına diqqət ayırırdı. Məsələn, 1975-ci ildə Macarıstanda keçirilmiş sərgilərdə Azərbaycan çayı nümayiş olunmuşdur və bir sıra mükafatlara layiq görülmüşdür [37,s.144].

1970-ci illərdə BXR-də neft yağlarının istehsalını həyata keçirən müəssisənin yaradılmasında Azərbaycan yaxından iştirak etmişdir [50,s.13]. 1970-1975-ci illər ərzində M.Qasımov adına, B.Sərdarov adına müəssisələrdən, Keşlə və Bakı maşınqayırma zavodlarından Bolqarıstana dəyəri 23148,6 min manatlıq “URB” markalı qazma aqreqatları ixrac olunmuşdur [50,s.15]. Azərbaycan SSR-in S.Kirov adına maşınqayırma zavodunun məhsulları dünyanın bir sıra sosialist ölkələrinə ixrac olunurdu. Onların arasında ADR, Bolqarıstanı göstərmək olar. Təkcə Bolqarıstana 1970-ci ilin birinci kvartalında 8340 manatlıq, ikinci kvartalında 60149 manatlıq məhsul ixrac olunmuşdur [50,s.16]. 1971-ci ildə Plovdiv şəhərində keçirilən beynəlxalq sərgidə Azərbaycan SSR Sovet İttifaqını təmsil edirdi və bir sıra sənaye və kənd təsərrüfatı məhsulları, yüngül sənaye məhsulları sərgidə nümayiş olunmuşdur [50,s.18]. XX əsrin 70-ci illərində Azərbaycan SSR-in müəssisələrində BXR-də istehsal olunan “12NDS”, “84DV”, “400D-190” markalı nasoslardan istifadə olunurdu [50,s.21].

XX əsrin 70-ci illərində Bolqarıstan zəhmətkeşləri Azərbaycan SSR-də səfərdə olmuşdur. Onlar burada olarkən Bakı quşçuluq fabrikini ziyarət etmiş və azərbaycanlı zəhmətkeşlərin təcrübələri ilə tanış olmuşlar. Bolqar zəhmətkeşləri Bakıda olarkən cins mal-qaranın seçilməsi, heyvandarlıq firmalarının kompleks mexanikləşdirilməsinə dair təcrübədən faydalanmışlar. Bolqarıstan nümayəndə heyətinə Velço Velçev başçılıq edirdi. V.Velçev qeyd etmişdir ki, azərbaycanlı zəhmətkeşlərin təcrübəsi tərəvəzin, üzümün məhsuldarlığını yüksəldir, heyvandarlıq məhsulları istehsalını artırır. Həmçinin o, bildirmişdir ki, Bakı quşçuluq fabrikinin təcrübəsinə dayanaraq Razqrad mahalında ildə 5 milyon broyler verən fabrikin tikintisinə başlanılmışdır [14].

XX əsrin 70-ci illərində Azərbaycan-Rumıniya arasında neft məhsulları, yeyinti məhsulları mübadilə olunurdu. 1970-ci illərdə Azərbaycan SSR-in müəssisələri məhsullarını Rumıniyaya ixrac edirdi. Bu müəssisələr arasında Bakı transformatorlar zavodu, Bakı alüminum prokat zavodu və s. müəssisələr olmuşdur [25,s.23].

Bu illərdə Bakı şəhərində keçirilmiş beynəlxalq sərgilərdə xarici şirkətlər iştirak edirdilər. Onların sırasında Almaniyanın "Simens-AQ" şirkəti də olmuşdur.Sosialist ölkələrlə iqtisadi əlaqələrdə kənd təsərrüfatı texnikası mühüm yer tuturdu. XX əsrin 70-ci illərində Çexslovakiya, Macarıstan, ADR, Rumıniya, Bolqarıstan kimi sosialist ölkələrdən kənd təsərrüfatı sahəsində istifadə olunan kombayn və traktorlar idxal edilmişdir [9,s.217-218].

Sumqayıt boru-prokat zavodu 1971-ci ildə BXR-dən 44000 manatlıq məhsul idxal etmişdir. 1970-1971-ci illərdə Bakı elektrik yığma zavodu isə 25782000 manatlıq məhsul idxal etmişdir. Azərbaycan SSR-in 23 sənaye müəssisəsi 1976-cı ildə Yuqoslaviya, Çexslovakiya və Bolqarıstandan ümumilikdə 118 adda məhsul idxal etmişdir [49,s.102-103].

Kənd təsərrüfatı texnikasının idxalı da sosialist ölkələrlə iqtisadi əlaqələrdə mühüm yer tuturdu. Azərbaycan SSR 1971-1979-cu illər ərzində Şərqi Avropanın bir sıra sosialist ölkələrindən aşağıdakı məhsulları idxal etmişdir:

-800 SP-7-6 M markalı əkən maşın Rumıniyadan;

-3 EM-11 markalı kök yığan maşın, 33 E-281 markalı silosyığan, 33 E-301 markalı biçki maşını ADR-dən;

-141 ÇVL-1 markalı üzümçülük üçün maşın Macarıstandan;

-3038 T-54 markalı traktor, 159 SNK-6 markalı şitil basdıran maşın, 1300 KAR-1,5 markalı biçən maşın BXR-dən;

-120 MFT-70 markalı mikrotraktor Çexslovakiyadan [49,s.103].

Tədqiqat illərində Şərqi Avropanın sosialist ölkələrinin Bakı şəhərində sərgi və yarmarkaları keçirilirdi. 1970-1990-cı illərdə bu ölkələrin 30-a yaxın sərgisi keçirilmişdir. Bu sərgilərin sırasında aşağıdakıları göstərmək olar:

-ADR-in "Kosmetika", "Məişət kimyası və avtokosmetika", "Aşağıvoltlu paylayıcı cihazlar", "Təməltikinti-80" sərgiləri;

-Bolqarıstanın "Bolankar" istehsalat birliyinin sərgisi, Bolqarıstan istilik cihazları və mətbəx avadanlıqları sərgiləri;

-Çexslovakiyanın dəqiq cihazlar və radio texnikası, elektrotexnika sənayesi məhsulları sərgiləri;

-Macarıstanın ölçü cihazları və laboratoriya şüşələri, "Macarıstan iqtisadiyyatı və texnikası günləri" sərgiləri;

-Polşanın "Polşa istehsalı", "Polşa texnikası günləri", "Polşa geyim modalarına baxış" sərgiləri;

-Yuqoslaviyanın formokologiya sənayesi məhsulları sərgisi və s. [49,s.105].

Bu illərdə Polşa Azərbaycan SSR-ə kənd təsərrüfatı məhsuları ixrac edir və dizel yanacaq idxal edirdi [58,s.107]. XX əsrin 70-ci illərində Macarıstan Azərbaycan SSR-dən neft və neft məhsulları, mahlıc, kondisioner idxal edirdi. Azərbaycan SSR isə Macarıstandan müxtəlif kənd təsərrüfatı maşınları, tibb avadanlıqları və s. məhsullar alırdı [33,s.120].

1970-ci illərdə Sumqayıt alüminum zavodunun məhsulları Bolqarıstana ixrac olunurdu. 1971-ci ildə bu zavoddan BXR-ə 2,6 ton alüminum məftili, 500 ton alüminum məhsulu ixrac olunmuşdur. 1975-ci ildə isə 250 min ədəd buxarlandırıcı göndərilmişdir [50,s.17]. Eyni zamanda Bolqarıstan istehsalı olan avadanlıqlar

Azərbaycan SSR-də geniş şəkildə istifadə olunurdu. Azərbaycan BXR-dən elektrik mühərrikləri, avtoyükdaşıyanlar, “Elka-22” markalı maşınlar idxal edirdi.[50,s.19] 1970-ci ildə Azərbaycanın boru-prokat zavodu BXR-dən 5 ton yük qaldırma qabiliyyətinə malik EN-161 markalı elektrokara, 200D60(8NDV) markalı nasoslar idxal etmişdir. 300DDO(2NDC) markalı nasos da daxil olmaqla bu məhsulların dəyəri 9500 manat təşkil edirdi [50,s.20].

1972-ci ildə SSRİ Atom Enerjisindən İstifadə üzrə Dövlət Komitəsi QİYŞ ölkələrinin Bakıda simpozium keçirmə təklifini qəbul etmişdir. Simpozium və iclaslarda QİYŞ ölkələrinin materialların və tibbi cihazların radiasiya sterilizasiyası və bu sahədə vahid normativ sənədlərin hazırlanması üzrə mütəxəssislərinin iştirakı nəzərdə tutulurdu. 7 iyul 1972-ci ildə Azərbaycan KP Mərkəzi Komitəsi Katibliyinin iclasında qəbul edilmiş sənəddə göstərilirdi ki:”Azərbaycan SSR Nazirlər Soveti simpozium və iclasların keçirilməsi, habelə 40-45 nəfərdən ibarət xarici mütəxəssislərin və QİYŞ Katibliyinin əməkdaşlarının respublikada qalması ilə bağlı məsələlərin həllinə baxsın” [59].

1976-cı ildə SSRİ Ticarət-Sənaye Palatası Bakı şəhərində “Macar iqtisadiyyatı və texnikası günləri”nin keçirilməsi təklifini qəbul etmişdir və müvafiq olaraq tədbirlər keçirilmişdir [60,s.11]. 1977-ci ildə Çexslovakiya-Sovet Palatasının və Çexslovakiya Ticarət Palatasının təklifləri əsasında Bakıda sentyabr-oktyabr aylarında “Çexslovakiya iqtisadiyyatı və texnika günləri” keçirilmişdir [60,s.110].

XX əsrin 80-ci illərində Azərbaycanda çay yarpağının istehsalına diqqət ayrılırdı.1 982-1986-cı illərdə Çexslovakiyada keçirilmiş sərgilərdə Azərbaycan çayı nümayiş olunurdu. ”Azərbaycan buketi” 1982-ci ildə ADR-in Leyspiq şəhərində, 1986-cı ildə Bolqarıstanda keçirilmiş sərgilərdə nümayiş etdirilmişdir [37,s.144].

Azərbaycan SSR 1981-1985-ci illərdə altı beynəlxalq yarmarkada iştirak etmişdir. Bu sərgilərdə Azərbaycanın 1000-ə qədər müxtəlif növ məhsulları nümayiş olunmuşdur. ADR-in Leyspiq şəhərində on bir min azad dəyişə bilən valyuta, həmçinin min III kateqoriyalı valyuta həcmində məhsullar satılmışdır [49,s.99]. 1989-cu ildə Azərbaycan SSR-də “Azərbaycan ixracı” adlı sərgi keçirilmişdir. Burada bir çox xarici

şirkətlər iştirak edirdi. Sosialist ölkələrdən olan Polşa ilə sərgi çərçivəsində protokol imzalanmışdır, birbaşa məhsul ixracına dair Macarıstan və Polşa ilə müqavilə imzalanmışdır. Azərbaycanın "Bakı elektrocihazları", "Bakı kondisioner", "Azərmeşəsənaye" birlikləri xarici ölkələrin firmaları ilə əlaqə yaratmaq imkanı qazanmışdır [49,s.101].

1980-1985-ci illərdə Azərbaycan SSR-dən sosialist ölkələrinə 331060 ton pambıq ixrac olunmuşdur. Bu illərdə Polşa, Bolqarıstan, və digər sosialist ölkələrə 110 min dekalitr konyak, 32600 min manatlıq şampan çaxırı ixrac olunmuşdur. Bakı Elmi-istehsal müəssisəsi 1981-ci ildə ADR-dən 8,7 milyon manatlıq məhsul idxal etmişdir. Yuqoslaviyadan 1988-ci ildə Bakı Kondisioner İstehsalat Birliyi üçün altı yüz yığma hissələri idxal edilmişdir [49,s.102-103].

Macarıstanın 10 nəfərlik nümayəndə heyəti 1983-cü ildə Azərbaycan SSR-ə səfər etmişdir. Səfər zamanı elm-texnika, beynəlxalq ixtisaslaşma və istehsalın kooperasiyalaşması üzrə danışıqlar aparılmışdır. Bu danışıqlar çərçivəsində MXR-in "Lexel" soyuducu zavodu ilə "Bakkondisioner" zavodu arasında əməkdaşlığın yaradılması nəzərdə tutulmuşdur. Həmçinin burada MXR-in "Boy" aqrar zavodu və Azərbaycan SSR-in Kənd Təsərrüfatı Nazirliyi, Aqrar Elmlər Universiteti və Debrents şəhərinin Konserv zavodu arasında əməkdaşlıq nəzərdə tutulurdu. Budapeşt şəhərində 1985-ci ildə beynəlxalq yarmarka keçirilən zaman Azərbaycan sovet povilyonu tərkibində burada iştirak etmişdir [38,s.117].

XX əsrin 80-ci illərində SSRİ və MXR arasında əməkdaşlıqda "İkarus" nəqliyyat vasitəsinin böyük rolu olmuşdur. 1984-cü ildə SSRİ Macarıstandan "İkarus 280.00", "İkarus 280.01", "İkarus 280.33", "İkarus 280.48" modelli avtobuslar idxal etmişdir. Azərbaycan SSR-də də 1985-ci ildə 1000-dən çox belə "İkarus" nəqliyyat vasitəsi mövcud idi. Qeyd etmək lazımdır ki, ilk vaxtlar Azərbaycanda bu avtobusların xarici ölkələrə göndərilməsi ilə məşğul olan "Moqürt" müəssisəsinin nümayəndəliyi mövcud deyildi və bu, bir sıra çətinliklərə yol açırdı. Lakin 1984-cü ildə Litvada bu nəqliyyat vasitəsinin keyfiyyəti ilə bağlı keçirilmiş simpoziumda "Moqürt" müəssisəsinin

nümayəndəliyinin Bakıda da fəaliyyət göstərməsi qərara alınmışdır və müvafiq olaraq 1985-ci ildən daimi nümayəndəlik fəaliyyətə başlamışdır [38,s.118].

Sovet İttifaqının xarici iqtisadi əlaqələrində hər bir ittifaq respublikası kimi Azərbaycan da fəal iştirak edirdi və sosialist ölkələrdən bir sıra məhsullar idxal edirdi, məsələn, ADR-dən Azərbaycan bu məhsulları idxal edirdi: metalkəsən dəzgahlar, müxtəlif aqreqatlar, toxuculuq və tikiş maşınları, avtomobillər üçün texniki qulluq avadanlıqları, maşın presləri və s. Öz növbəsində ADR Azərbaycandan qazma qurğuları, nasoslar, elektrik mühərrikləri, pambıq-lif və digər məhsullar idxal edirdi. Macarıstanla istehsal sahəsində əlaqələri bu şəkildə xarakterizə etmək olar: 80-ci illərdə Macarıstanın “1 May” adlı fabriki tərəfindən Bakıda Volodarski tikiş fabrikinin yenidən qurulması üçün texniki sənədlər hazırlanmışdır. Öz növbəsində Bakı Kondisioner zavodu Macarıstana ildə 2,5-3 min məişət kondisioneri tədarük etməyi öhdəliyinə götürmüşdür. Macarıstan Azərbaycanda ildə 12 min və 16 min ton ət istehsal etmək qabiliyyətinə malik iki böyük quşçuluq fabrikinin tikintisinə yardım göstərmişdir. Həmçinin Şəki süd-pendir zavodunda macar avadanlıqları quraşdırılmışdır [53,s.83-84].

1980-ci illərin ikinci yarısında etibarən dünya sosializm sistemi öz zəifliyini biruzə verməyə başlamışdır. Artıq sosialist ölkələrdə kommunist partiyalarının hakimiyyətinə son qoyulurdu. Şərqi Avropa ölkələrində çoxpartiyalı sistem yaranırdı. Macarıstan, Çexslovakiya, Bolqarıstan, Rumıniya, Polşa kimi sosialist ölkələrdə yeni cəmiyyətlər qurulurdu. Bu dövrdə artıq QİYŞ də əvvəlki əhəmiyyətini itirmişdir. 1991-ci ildə Macarıstanın Budapeşt şəhərində müşavirə keçirilən zaman QİYŞ-in buraxılması barədə qərar qəbul olunmuşdur [48,s.1].

Bundan əvvəl 1990-cı ildə 9 yanvar tarixində Bolqarıstanın paytaxtı Sofiya şəhərində QİYŞ sessiyasının 45-ci iclası keçirilmişdir. İclasda Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya və Sovet İttifaqının nümayəndə heyətləri iştirak etmişdir. İclasda Bolqarıstan hökumətinin başçısı G.Atanasov iştirakçıları salamlayaraq çıxış etmişdir. O, bildirirdi ki: ”QİYŞ öz mövcudluğunun 40 ili ərzində ölkələrimizin sosial-iqtisadi inkişafında mühüm rol oynamışdır. Buna baxmayaraq o, son illər ərzində öz

səmərəliliyini itirmişdir. QİYŞ-in fəaliyyətində bir sıra nöqsanlar aşkara çıxmışdır. Nəticə etibarilə, QİYŞ-də əsaslı islahatlar həyata keçirilməlidir. ”İclasda Sovet İttifaqı nümayəndə heyətinə N.Rıjkov başçılıq edirdi və o, öz nitqində vurğulamışdır: ”QİYŞ ölkələrində baş verən inqilabi dəyişikliklərə baxmayaraq Sovet İttifaqı prinsipial olaraq bu təşkilatın fəaliyyətini ölkələrarası iqtisadi əməkdaşlıqda faydalı hesab edir. Son illər ərzində ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı öz dinamikasını itirmişdir. Hamımıza məlumdur ki, bu mənfi halların səbəbləri mürəkkəbdir. Bunlar göstərir ki, bütün iqtisadi əlaqələr sistemi əsaslı şəkildə yenidən qurulmalıdır” [31].

XX əsrin sonlarında sosializm sisteminin zəifləməsi, QİYŞ-in dağılması, eyni zamanda Şərqi Avropa dövlətlərində baş verən proseslər ölkələrarası iqtisadi əməkdaşlığın zəifləməsinə gətirib çıxarmışdır. Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra müstəqil xarici siyasət kursunu qazanmışdır və müvafiq olaraq bu ölkələrlə birbaşa olaraq iqtisadi əməkdaşlıq sistemi qurulmuşdur.

# III FƏSİL. HUMANİTAR VƏ MƏDƏNİ ƏLAQƏLƏR

## 3.1 Elm və təhsil sahəsində əməkaşlıq

XX əsrin ikinci yarısından Azərbaycan SSR humanitar sahədə SSRİ-nin bağladığı müqavilə və sazişlərə uyğun olaraq dünyanın bir sıra dövlətləri ilə əməkdaşlıq edirdi. Xüsusilə,Azərbaycan SSR-in qardaş sosialist ölkələrlə olan əlaqələri ölkələrarası humanitar və mədəni əməkdaşlığın inkişafında mühüm rol oynayırdı. XX əsrin 50-ci illərindən Azərbaycanın Şərqi Avropanın sosialist ölkələri olan Bolqarıstan, Macarıstan, Polşa, Çexslovakiya, Rumıniya kimi ölkələrlə humanitar sahədə əməkdaşlığı genişlənmişdir. Bu əlaqələrin genişlənməsində azərbaycanlı elm xadimlərinin böyük rolu olmuşdur. Eyni zamanda xarici ölkələrin elm xadimləri Azərbaycan SSR-ə səfər edib, elmi-tədqiqatlar aparırdılar.

Sovet hakimiyyəti illərində Azərbaycanda əsl elmi və mədəni inqilab baş vermişdir. 1960-cı illərdə Sovet Azərbaycanının 12 universitetində 9 minə yaxın tələbə təhsil alırdı. Azərbaycanın ali məktəblərini bitirmiş mütəxəssislər təkcə respublikada və Sovet İttifaqının digər şəhərlərində deyil, həm də ölkəmizin hüdudlarından kənarda olan, qardaş sosialist respublikalarda çalışırdılar: Çexslovakiyada, Polşada, Rumıniyada, Bolqarıstanda, həmçinin bir çox şərq ölkələrində [56,s.68-69].

Azərbaycan SSR-in xarici ölkələrlə elm və təhsil əlaqələrinin inkişafında respublika Elmlər Akademiyasının(EA) mühüm rolu olmuşdur. 1945-ci ildə Azərbaycan SSR-də elmi-tədqiqat işlərinin genişləndirilməsi məqsədilə elm mərkəzinin nizamnaməsi və strukturunun tərtib edilməsi haqqında Rəyasət Heyəti tərəfindən qərar qəbul edilmişdir. 1945-ci il martın 7-də Azərbaycan SSR Xalq Komissarları Şurası tərəfindən "Azərbaycan SSR Elmlər Akademiyasının yaradılması barədə" qərar qəbul edildi. EA-nın strukturu 4 şöbədən ibarət idi:Fizika-texnika elmləri bölməsi; İctimai elmlər bölməsi; Geoloji-kimya elmləri və neft bölməsi; Geologiya və kənd təsərrüfatı elmləri bölməsi. Azərbaycan SSR EA-nın ilk prezidenti akademiyanın təsisçi alimlərindən biri olan Mir Əsədulla Mirqasımov idi və akademiyanın Rəyasət Heyətinin 15 həqiqi üzvü var idi. Azərbaycan SSR EA-nın yaradılması qardaş sosialist ölkələrin Elmlər Akademiyaları ilə qarşılıqlı əməkdaşlığa təkan olmuşdur [20].

Şərqi Avropanın sosialist ölkələrindən biri olan ***Bolqarıstan*** ilə Azərbaycan SSR arasında XX əsrin ikinci yarısından elmi əlaqələr intensiv inkişaf etmişdir. 1952-ci ildə SSRİ və BXR arasında SSRİ-nin ali məktəblərində bolqar gənclərinin təhsil alması haqqında müqavilə imzalanmışdır və bu müqavilə müvafiq olaraq Azərbaycan SSR-in ali təhsil müəssisələrinə də şamil edilirdi [34,s.57].

Maarifçiliyin inkişafı Bolqarıstanın ali təhsil müəssisələrində yenidənqurma tələb edirdi.Müvafiq olaraq Sovet İttifaqından 1953-cü ildə müəllimlərdən ibarət nümayəndə heyəti BXR-ə göndərilmişdir və bu heyətin tərkibində Azərbaycanın elm xadimləri də var idi. Onların sırasında Məmmədağa Şirəliyev, Yusif Məmmədov kimi pedaqoqlar var idi. BXR-in Sofiya Universitetinin nəzdində müəllim kadrlarının hazırlanması üçün xüsusi şöbə yaradılmışdır və Azərbaycanın elmi heyəti bu şöbədə çalışırdı. Azərbaycan müəllimləri həmçinin rəhbər vəzifələrə təyin olunurdular, məsələn, Məmmədağa Şirəliyev türk filologiyası fakültəsinin dekanı vəzifəsinə təyin olunmuşdur [50, s.33].

1960-cı illərdə bolqar və azərbaycanlı geoloqlar qarşılıqlı fəaliyyət göstərirdilər. Görkəmli bolqar geoloqu Y.Karakovlev 1964-cü ildə Bakıya səfər etmişdir. Y.Karakovlev burada qabarıq perlitlər sahəsində fəaliyyətini davam etdirmişdir. 1960-cı illərin sonlarında coğrafiya sahəsində Azərbaycan və Bolqarıstan elm xadimlərinin təcrübə mübadiləsi həyata keçirilmişdir. Azərbaycanın elmi işçilərindən ibarət nümayəndə heyəti Bolqarıstan Qızıl gül, Efir yağları və Dərman bitkiləri İnstitutunda təcrübə proqramlarında iştirak edirdilər [34,s.58].

Elmi əməkdaşlıq məsələlərinə dair SSRİ ilə Bolqarıstan arasında 1960-cı ilin sentyabr ayında yeni bir müqavilə bağlanmışdır. Bu müqaivələdə ali təhsil müəssisələrində təhsil alan tələbələrin təhsilinin genişləndirilməsi nəzərdə tutulmuşdur. Müvafiq olaraq Sovet İttifaqının ali təhsil müəssisələrində bolqar tələbələr üçün geniş imkanlar yaradılırdı.Həmçinin, Azərbaycan SSR-in ali təhsil müəssisələrində bolqar tələbələrə geniş yer ayrılırdı və təhsilini uğurla başa vuran bolqar gəncləri aspiranturada saxlanılırdı [50,s.34-36].

1960-cı illərdə bolqar tələbələr Azərbaycan Neft və Kimya İnstitutunda, Azərbaycan Dövlət Konservatoriyasında təhsil alırdılar. 1970-ci ilin ikinci yarısında Azərbaycan Universitetləri və Bolqarıstanın Sofiya Universiteti arasında pedaqoji heyətin mübadiləsi haqqında müqavilə imzalanmışdır [34,s.57]. Elm və təhsil sahəsində Azərbaycan SSR EA və Bolqarıstan Şərqşünaslıq İnstitutu əməkdaşlıq etmişdir. Azərbaycan SSR alimləri balkanşünaslıq üzrə keçirilən I Beynəlxalq Konqresdə iştirak etmişdir. 1971-ci ildə Bolqarıstanda ümumdünya sərgisi keçirilmişdir və burada azərbaycanlı elm xadimləri K.Məmmədzadə, T.İsmayılov və digərləri iştirak etmişdir [43].

Azərbaycan SSR və BXR-in ali təhsil müəssisələri arasında tələbə inşaat dəstələrinin mübadiləsi aparılırdı. Bolqar tələbələri 1978-ci ildə yay əmək semestrlərini Bakı şəhərində keçirmiş və azərbaycanlı inşaatçılarla birgə fəaliyyət göstərmişdir. Eyni zamanda azərbaycanlı tələbələr də Bolqarıstana yollanırdılar, məsələn, Azərbaycan Pedaqoji İnstitutunun Lenin adına Qırmızı Əmək Bayrağı ordenli tələbələri dərs illərinin üçüncü semestrini Bolqarıstanda keçirərək, bolqar arxeoloqları ilə birgə elmi tədqiqatlar aparmışlar [50,s.37].

Şərqi Avropanın sosialist ölkələrindən olan ***Macarıstan*** və Azərbaycan SSR arasında elm və təhsil sahəsində əməkdaşlıq dinamik inkişaf etmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan və Macarıstan institutları arasında elmi-təcrübi mübadilələr həyata keçirilirdi, onların sırasında MXR-in Mişkolts Texniki İnstitutu ilə Azərbaycan Neft və Kimya İnstitutu arasında olan mübadilələri göstərmək olar.Azərbaycan və Macarıstan EA-ları səmərəli şəkildə əməkdaşlıq edirdilər. Loranda Etvens adına Budapeşt Universiteti Azərbaycan Dövlət Universiteti ilə əməkdaşlıq edirdi və onların nümayəndələri bir sıra elmi simpozium və konfranslarda bir araya gəlirdilər.

Elmi əməkdaşlıq bitki fiziologiyası və kimya, kibernetika, riyaziyyat və başqa sahələr üzrə aparılırdı. 1961-ci ildə MXR-də A.Mirzəcanzadənin “SSRİ-də qazma və hasilat üzrə hidravlik tədqiqatların xülasəsi” mövzusunda məruzəsi olmuşdur [33,s.121]. Budapeşt şəhərində 1963-cü ildə makromolekulyar kimyanın nəzəri

problemlərinə dair XV Beynəlxalq Simpozium keçirilmişdir. Bu simpoziumda Bakı şəhərindəki Ümumittifaq Elmi-tədqiqat Olefinlər İnstitutunun nümayəndələri də iştirak etmişdir. İnstitutun direktoru M.Dalin və laboratoriya müdiri A.Bünyadzadə simpoziumda məruzələrlə çıxış etmişdirlər. Məruzələrin mövzuları bunlar idi:"Yüksək tempraturlarda polimer maddələrin parçalanma mexanizmi haqqında", "Çatlamaya qarşı davamlı olan yeni növ polietilen alınması" [44].

Görkəmli macar alimi Tibor Tot 1967-ci ildə Azərbaycan SSR-də elmi məzuniyyətdə olmuşdur. Alim macar xalqının mənşəyinin müəyyən edilməsi sahəsində tədqiqat işləri aparırdı. Azərbaycanda olarkən Azərbaycan SSR EA Tarix İnstitutunun elmi işçisi olan R.Qasımovanın tədqiqat işləri ilə tanış olmuşdur. Həmçinin onun "Mingəçevir qazıntıları zamanı əldə edilmiş kəllələrin antropoloji tədqiqi" adlı monoqrafiyasını nəzərdən keçirmişdir. Tibor Tot Şamaxıya da səfər edərək buradakı antropoloji və arxeoloji materiallarla tanış olmuşdur. Eyni zamanda o, tədqiqat işi ilə bağlı Azərbaycan Tarix Muzeyindəki daş və tunc dövrünə aid materialları nəzərdən keçirmişdir [33,s.121].

1970-ci ildə Budapeşt şəhərində Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Bu konfransda Azərbaycan EA-nın Fizika İnstitutunun laboratoriya rəhbəri M.Talıbi də iştirak etmişdir. M.Talıbi konfransda "Selen və Tellur əsasında nazik təbəqəli metal-dielektrik yarımkeçirici strukturlarının fiziki xassələrinin tədqiqi" mövzsusunda məruzə ilə çıxış etmişdir [44].

1976-cı ildə Azərbaycan SSR-də macar elm günləri keçirilmişdir və bu tədbirlər ölkələrarası elmi əməkdaşlığın inkişafında müsbət rol oynamışdır. Keçirilən tədbirlər çərçivəsində elm xadimləri 18 məruzə ilə çıxış etmişdirlər. Elm günlərində, həmçinin ölkələrarası elmi əməkdaşlıqdakı problemlərə də toxunulmuşdur [13,s.558].

XX əsrin ikinci yarısında Azərbaycanın elm və təhsil sahəsində əməkdaşlıq etdiyi sosialist ölkələrdən biri ***Polşa*** olmuşdur. XX əsrin 50-80-ci illərində Azərbaycan SSR-də bir çox polyak tələbə təhsil alırdı. Polyak aspirantlar Azərbaycan SSR-in müxtəlif institut və universitetlərində tədqiqat işi ilə məşğul olurdular. Bu təhsil müəssisələrinin

sırasında Azərbaycan Dövlət Universiteti, Azərbaycan Neft və Kimya İnstitutunu göstərmək olar [13,s.529].

Polyak xalqının nümayəndələrindən olan Y.Yesman, A.Makolevski, M.Abramoviç Azərbaycanda elm sahəsində fəal iştirak etmişlər. Azərbaycanla Polşa arasında tələbə mübadiləsi həyata keçirilirdi. Eyni zamanda azərbaycanlı elm xadimləri Polşa universitetlərində pedaqoji fəaliyyətlə məşğul olurdular. Məsələn, Varşava Politexnik İnstitutunda texnika elmləri doktoru N.Qasımzadə mühazirə oxuyurdu. Həmçinin Z.Bünyadzadənin Polşanın Plotsk şəhərində elmi cəmiyyətdəki fəaliyyətini misal göstərmək olar [45].

XX əsrin 60-cı illərində Polşanın görkəmli elm xadimləri Azərbaycan SSR-də səfərdə olarkən Azərbaycan SSR EA Fizika İnstitutuna gəlmiş və laboratoriyalarla tanış olmular. 1968-ci ildə Azərbaycan SSR EA Riyaziyyat və Mexanika İnstitutunun təşkil etdiyi yay məktəbində PXR-in elm xadimləri də iştirak etmişdir. Onlar azərbaycanlı elm xadimlərinin “Qrupların təmsil nəzəriyyəsi”nə dair tədqiqat işləri ilə tanış olmuşlar. Polşanın Varşava Universitetinin riyaziyyat elmləri doktoru Yevgeni Neçiporoviç Azərbaycan SSR-də səfərdə olmuş və azərbaycanlı həmkarları ilə fikir mübadiləsi aparmışdır [19,s.22].

Elm və təhsil sahəsində Azərbaycan və Polşa arasında elmi əməkdaşların mübadiləsi həyata keçirilirdi. Məsələn, 1970-ci illərin sonlarında 159 nömrəli məktəbin əməkdaşı Sevil Cəbrayılova Polşaya elmi əməkdaşlıq görüşünə getmişdir, burada elm-maarif sahəsində görülən bir sıra işlərlə tanış olmuşdur. PXR-də elm və təhsil sahəsində “açıq məktəb” layihəsi ilə tanış olmuşdur [46]. Azərbaycan SSR nümayəndə heyətinə A.Karalova başçılıq edirdi.Nümayəndə heyəti PXR-in Maarif və Tərbiyə Nazirliyində olmuşdur. Eyni zamandan Varşava və Krakov şəhərlərinə təşkil olunan ekskursiyalarda iştirak etmişdir. Polşaya səfərin məqdəsi təlim-tərbiyə sahəsində görülmüş işlərlə tanış olmaq idi. Bu sahədə onlar Müəllimlərin Təhsili İnstitutunun heyəti ilə görüşlərdə iştirak edirdilər [15].

XX əsrin 70-ci illərində Azərbaycan SSR ilə Polşanın humanitar sahədə əməkdaşlığı genişlənmişdir. 1972-ci ildə Polşanın ali təhsil müəssisələrinin tələbələri

Azərbaycanda müxtəlif görüşlərdə iştirak edirdilər. Azərbaycan SSR-ə səfər etmiş Polşa elm xadimləri Bakı şəhəri ilə, həmçinin Mirzə Fətəli Axundov adına kitabxana ilə tanış olurdular [34,s.54].

XX əsrin 80-ci illərində Azərbaycan SSR-də kitab günləri keçirilirdi və burada polyak kitabları da nümayiş olunurdu [34,s.52]. Bu illərdə Polşada Polşa-Sovet dostluğu cəmiyyəti fəaliyyət göstərirdi və bu cəmiyyətin mətbu nəşri olan "Pşiyazn" jurnalının bir nömrəsi Azərbaycan SSR-in elmi-mədəni həyatına həsr edilmişdir [34,s.54]. Polşada nəşr olunan T.Lankameranın "Günəşli Zaqafqaziya", A.Miloşovun "Qafqaz" kitablarında Azərbaycana dair məlumatlar öz əksini tapmışdır. 1989-cu ildə "Azərbaycan tarixi" kitabının polyak dilinə tərcümə olunması ölkələr arasında humanitar sahədə əməkdaşlığa xüsusi töhfə vermişdir. "Azərbaycan tarixi" kitabını polyak dilində Boqdan Baranovski və Kşiştov Baranovski Polşanın Vrotslav şəhərində nəşr etdirmişlər [46].

Azərbaycan SSR-in humanitar sahədə əməkdaşlıq etdiyi sosialist ölkələrdən biri ***Çexslovakiya*** olmuşdur. SSRİ və Çexslovakiya arasında elmi və mədəni əlaqələrin inkişaf etdirilməsi məqsədilə bağlanmış müqaviləyə uyğun olaraq Azərbaycan SSR və Çexslovakiya institutları arasında əməkdaşlıq mövcud olmuşdur. Azərbaycan SSR-də 1963-cü ildə Çexslovakiya Xalq Respublikasının(ÇXR) elm və texnika sahəsinə dair sərgi təşkil olunmuşdur. ÇXR-in sənət nümayəndələri Azərbaycanın qədim abidələri ilə tanış olmuşlar. Məsələn, Qobustan qayaüstü rəsmlərinin öyrənilməsinə dair bir sıra elmi mübadilələr həyata keçirilirdi [13,s.550].

Çexslovakiyanın Praqa Milli Muzeyi və Azərbaycan SSR EA Zoologiya İnstitutu kənd təsərrüfatının müxtəlif sahələri üzrə birgə fəaliyyət göstərirdilər. Bunların sırasında kənd təsərrüfatı zərərvericilərinin artmasının qarşısının alınmasına dair birgə səyləri göstərmək olar. 1965-ci ildə Azərbaycan SSR EA Zoologiya İnstitutunun elmi işçisi L.Rzayeva Çexslovakiyada səfərdə olmuşdur. Çexslovakiyanın Praqa Milli Muzeyinin məcmuəsində "Azərbaycan SSR daxilində Böyük Qafqazın faunası" adlı məqalə dərc olunmuşdur.

1966-1967-ci illər üzrə nəzərdə tutulmuş tədqiqat planında azərbaycanlı və çex alimlərin "Parazitlərin bioloji xüsusiyyətləri" probleminə dair əməkdaşlığı öz əksini tapmışdır. Bu plana uyğun olaraq çex elm xadimləri Azərbaycan SSR-də səfərdə olmuşdur. Bu alimlərin sırasında Z.Bouçeki göstərmək olar.Alim ölkəmizin bir sıra şəhərlərini gəzmiş və azərbaycanlı alimlərin tədqiqat işləri ilə tanış olmuşdur [19,s.6].

Azərbaycanlı alimlər 1967-ci ildə Çexslovakiyada keçirilən Beynəlxalq Astonomiya İttifaqının Baş məclisində, həmçinin 1968-ci ilin avqust ayında keçirilən 23-cü Ümumdünya Konqresində iştirak etmişlər. 1970-ci ildə Çexslovakiyada polivinilxloridin istehsalı məsələlərinə dair beynəlxalq simpozium keçirilmişdir. Bu simpoziumda Azərbaycan SSR EA Fizika İnstitutunun nümayəndələri də iştirak etmişdir. Bu alimlərin sırasında doktor Y.Məmmədəliyev və M.Bağırov olmuşdur. Praqa şəhərində protozooloqların I Ümumdünya Konqresi keçirilən zaman azərbaycanlı alimlərdən Altay Veysov iştirak etmişdir [19,s.13-14].

1970-ci ildə Praqa Universitetinin Fizika İnstitutunun direktoru V.Proser Azərbaycan SSR-də səfərdə olmuşdur. Eyni zamanda doktor İ.Kudaçek də səfərdə iştirak etmişdir və səfər çərçivəsində onlar Azərbaycan SSR EA Fizika İnstitutunda olmuşlar. Onlar burada selen və selenli birləşmələrə dair aparılmış tədqiqat işləri ilə tanış olmuşlar [19,s.23].

Sovet hakimiyyəti illərində ***Rumıniya*** və Azərbaycan SSR arasında humanitar sahədə əməkdaşlıq xüsusi yer tuturdu. 1948-ci ildə SSRİ və Rumıniya arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş imzalanmışdır və bu sazişə uyğun olaraq Azərbaycan SSR və Rumıniya arasında humanitar sahədə əməkdaşlıq inkişaf etmişdir. İlk növbədə elmi sahədə tərəfdaşlıq humanitar əlaqələrin genişləndirilməsinin əsas amillərindən idi. 1964-cü ildə torpaqşünaslıq üzrə Beynəlxalq Konqres keçirilən zaman azərbaycanlı akademik Q.Əliyev bu konqresdə məruzə ilə çıxış etmişdir. Bu illərdə Azərbaycan-Rumıniya elmi əlaqələri dinamik inkişaf edirdi. Bir sıra elm xadimlərinin təcrübə mübadilələri və elmi ezamiyyətlərdə iştirakı əməkdaşlığın inkişafına müsbət təsir göstərmişdir [13,s.561-562]. Neft sahəsində Azərbaycan və

Rumıniya alimləri birgə işlər həyata keçirirdilər. Məsələn, 1965-ci ildə N.Tahirov Rumıniyanın ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmuşdur [47].

1968-ci ildə professor Heybət Abdullayev tibbi konfransda iştirak etmişdir. 60-cı illərin axırlarında Azərbaycan alimləri Rumıniyanın təhsil ocaqlarında elmi fəaliyyətlə məşğul olurdular. Eyni zamanda Rumıniyanın tələbə heyəti Azərbaycana gəlirdi, məsələn, 1968-ci ildə Rumıniyanın Buxarest Universitetinin nümayəndə heyətinin Azərbaycana gəlməsini misal göstərmək olar. 70-80-ci illərdə də Azərbaycan institut və zavodları Rumıniya Elmlər Akademiyası ilə əməkdaşlıq edirdi [25,s.23-24].

Azərbaycan Neft-Kimya İnstitutunun texnika elmləri üzrə professoru M.Mərdanov bir neçə dəfə Rumıniyada ezamiyyətdə olmuşdur. Bunların sırasında M.Mərdanovun 1969-cu ildə Rumıniyada bir aylıq elmi ezamiyyət müddətini gösətmək olar. Doktor Rumıniyada olarkən rumın alimlərinin tədqiqat işləri ilə tanış olmuşdur. Eyni zamanda rumın alimlərinin neft kimyası proseslərinin tədqiqinə dair təcrübələrindən faydalanmışdır [19,s.9]. Eyni zamanda Rumıniyanın Buxarest Neft, Qaz və Geologiya İnstitutunda təhsil alan tələbələr Azərbaycan Neft-Kimya İnstitutunda təcrübə keçirdilər [19,s.21].

Azərbaycan SSR və ***Almaniya Demokratik Respublikası*** arasında elmi əlaqələr 1950-ci illərin ikinci yarısından başlayaraq intensiv şəkildə inkişaf etmişdir. XX əsrin 50-ci illərində Sovet İttifaqı ADR ilə ideoloji cəhətdən yaxın olduğu üçün elmi, mədəni və digər sahələrdə əməkdaşlığa önəm verirdi və buna müvafiq olaraq Azərbaycan SSR ilə ADR arasında elmi və mədəni sahələrdə əlaqələr mövcud olmuşdur. Bu illərdə Azərbaycan SSR və ADR elmi-tədqiqat institutları arasında səmərəli əməkdaşlıq aparılırdı. Bu illərdə ADR-in dəniz seysmik kəşfiyyat işlərində azərbaycanlı əməkdaşlar da iştirak edirdi. Onların sırasında Ümumittifaq Elmi-Tədqiqat Geofiziki Kəşfiyyat Üsulları İnstitutunun Bakı filialınının əməkdaşlarını göstərmək olar. XX əsrin 50-ci illərində ADR-lə elmi-mədəni əlaqələr saxlayan institulardan biri də Sumqayıt Neft-Kimya Avtomatları Elmi-Tədqiqat və Layihə İnstitutu olmuşdur. Eyni zamanda Azərbaycan Dövlət Neft və Kimya İnstitutu da ADR-lə humanitar sahədə

əməkdaşlıq edirdi. Bu institut ali-texniki müəssisələrlə əməkdaşlıqda yaxından iştirak edirdi [13,s.448-449].

XX əsrin 60-cı illərində ADR-də bir sıra elm məclisləri təşkil olunurdu və azərbaycanlı elm xadimləri burada iştirak edirdilər. Onların sırasında Ə.Abdullayev, M.Topçubaşov, F.Dadaşov və başqalarını göstərmək olar. Azərbaycanlı akademiklərin ADR-in müxtəlif şəhərlərində mühazirələri təşkil olunurdu. 1963-cü ildə ADR-də "Sosialist Azərbaycanı mədəniyyətinin çiçəklənməsi" mövzusuna dair görkəmli elm xadimi Ə.Sumbatzadə tərəfindən mühazirə keçirilmişdir [41]. 1965-ci ildə ADR-in Dövlət Şurasının sədri V.Ulbrixt Bakıda səfərdə olmuşdur və bu səfər çərçivəsində Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun təşkil etdiyi tədbirlərdə iştirak etmişdir.Bu illərdə alman alimləri azərbaycanlı alimlərin qazma elektroenerjisi və neftin çıxarılmasında əldə etdiyi nailiyyətlərdən istifadə edirdilər [13,s.448-449].

1965-ci ildə ADR-in Frayberq Dağ-Mədən Akademiyasının 200 illik yubileyi keçirilmişdir və bu yubiley tədbirlərində akademik A.Mirzəcanzadə də iştirak etmişdir [19,s.12]. 1967-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunda neft mütəxəssislərinin Ümumittifaq Məclisi keçirilən zaman ADR-in mütəxəssisləri burada iştirak etmişdir. ADR-in Maqdeburq şəhərində neft və qaz yataqlarına həsr olunmuş beynəlxalq konfransda Azərbaycan SSR-in nümayəndələri olan S.Salayev və F.Dadaşov iştirak etmişlər. 1968-ci ildə ADR-in elm xadimləri Bakıda keçirilmiş riyaziyyatçıların yay məktəbində iştirak etmişdir [18,s.13]. 1968-ci ildə ADR EA-nın Berlin şəhərindəki Ulduzlar Fizikası İnstitutu ilə Şamaxı Astrofizika Rəsədxanası arasında 1968-1971-ci illərdə "Ulduzlar və dumanlıqlar" probleminin birgə tədqiqinə dair saziş imzalanmışdır [19,s.6].

Tədqiqat illərində Azərbaycan SSR-in humanitar sahədə əməkdaşlıq etdiyi ölkələrdən biri ***Yuqoslaviya*** olmuşdur. Bu illərdə qardaş sosialist ölkələrin elm xadimləri M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda təcrübə keçirdilər. Onlar, həmçinin neft mədənləri ilə tanış olurdular. Yuqoslaviyanın "İna naftaplin" neft müəssisəsinin nümayəndəsi olmuş mühəndis Maloş Yoze Azərbaycan SSR-də bu cür təcrübə mübadilələrində iştirak etmişdir. Maloş Yoze Azərbaycanda

olarkən azərbaycanlı neftçilərin yenilikləri ilə tanış olmuşdur. M.Yoze layın su şırnağı ilə yayılması, quyudibi zonaya xlorid turşusunun təsiri və digər sahələrə dair ölkəmizdə təcrübə keçmişdir. Astrofizika, fizika və riyaziyyat üzrə əldə olunmuş nailiyyətlərlə tanış olmaq məqsədilə Yuqoslaviya elm xadimləri ölkəmizdə aparılan tədqiqat işlərində iştirak edirdilər [19,s.21-22].

XX əsrin 80-ci illərində SSRİ-nin humanitar əlaqələri olduqca geniş idi və buna müvafiq olaraq Azərbaycan SSR-in də xarici dövlətlərlə humanitar əlaqələri göstərilən illərdə daha da inkişaf etmişdir. 1981-1985-ci illər ərzində azərbaycanlı elm xadimləri sosialist ölkələrdəki həmkarları ilə 60-a yaxın elmi problemin həllinə dair birgə fəaliyyət göstərmişlər [36,s.26].

1980-ci illərdə Azərbaycan SSR-in sosialist ölkələr ilə humanitar əlaqələri intensiv inkişaf edirdi. Azərbaycanlı elm xadimləri Polşa, Yuqoslaviya, Rumıniya, Macarıstan, ADR-də elmi-tədqiqat işləri aparmış, beynəlxalq yarmarkalar və təcrübə mübadilələrində iştirak etmişlər. Eyni zamanda bu ölkələrdə kadr hazırlanması sahəsində təcrübə mübadilələrində yaxından iştirak etmişlər [36,s.27]. Bu illərdə onlar həm də Polşanın Plovdiv və Poznan şəhərlərində, ADR-in Berlin və Leyspiq, Macarıstanın Budapeşt şəhərində keçirilmiş beynəlxalq sərgi və yarmarkalarda iştirak etmişlər [26,s.71].

Beləliklə, Azərbaycan SSR ilə Şərqi Avropanın sosialist ölkələri arasında humanitar sahədə əməkdaşlıq hərtərəfli inkişaf etmişdir. Azərbaycan elminin beynəlxalq arenada tanınması üçün azərbaycanlı elm xadimlərinin bu ölkələrdə keçirilən simpozium və konfranslarda iştirakı, eləcə də bu ölkələrin nümayəndələrinin ölkəmizə olan səfərləri mühüm rol oyanmışdır. Sovet hakimiyyəti illərində bu ölkələrlə Azərbaycan arasında humanitar sahədə mövcud olmuş əlaqələr, Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra saxlanılan birbaşa əlaqələrin inkişafı üçün təməl daşı rolunu oynayır. Tədqiq olunmuş illər ərzində Azərbaycan və Şərqi Avropanın sosialist ölkələri arasında zəngin humanitar və mədəni əlaqələr mövcud olmuşdur.

### 3.2 Mədəniyyətin müxtəlif sahələrində əlaqələr

XX əsrin ikinci yarısından etibarən Azərbaycan SSR SSRİ-nin mədəni əlaqələr sahəsində bağladığı müqavilə və sazişlərə uyğun olaraq xarici dövlətlərlə mədəni sahədə əməkdaşlıq etmişdir. Azərbaycan SSR-in beynəlxalq mədəni əlaqələrinin genişlənməsi XX əsrin 50-ci illərinə təsadüf edir. Azərbaycan SSR bu illərdə Şərqi Avropanın sosialist ölkələri olan Bolqarıstan, Macarıstan, Polşa, Çexslovakiya, Rumıniya, ADR və Yuqoslaviya ilə mədəniyyətin müxtəlif sahələrində əməkdaşlıq etmişdir. Ölkələrarası mədəni əməkdaşlıqda qardaşlaşmış şəhərlər hərəkatı özünəməxsus yer tuturdu. Məsələn, Bakı şəhəri Yuqoslaviyanın Sarayevo, Sumqayıt şəhəri Rumıniyanın Piteşti şəhəri ilə, Abşeron rayonu Bolqarıstanın Razqrad mahalı ilə qardaşlaşmışdır.

Azərbaycan SSR-in xarici dövlətlərlə mədəni əlaqələrinin saxlanılması üçün bir sıra cəmiyyətlər yaradılmışdır. Bunların sırasında Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, “Vətən” cəmiyyəti, bir sıra ittifaq və təşkilatlar, o cümlədən Azərbaycan SSR XİN-i göstərmək olar. Bu dövrdə beynəlxalq mədəni əlaqələrin həyata keçirilməsinin bir sıra formaları var idi. Adətən mədəniyyət dekadaları təşkil olunurdu, sərgi və yarmarkalar keçirilirdi, qardaşlaşmış şəhərlər hərəkatı burada xüsusi rol oynayırdı. Həmçinin ədəbi sahədə əməkdaşlıq, televiziya və radio sahəsində əlaqələrin saxlanılması mühüm yer tuturdu [32].

Tədqiqat dövründə Azərbaycan SSR-in mədəni əlaqələr saxladığı ölkələrdən biri ***Bolqarıstan*** olmuşdur. Azərbaycan-Bolqarıstan mədəni əlaqələrinin tarixi kökləri vardır. Sovet hakimiyyəti illərində iki ölkə arasında zəngin mədəni əlaqələr olmuşdur və onlar mədəniyyətin müxtəlif sahələrini əhatə edirdi. Həmçinin, qardaşlaşmış şəhərlər hərəkatına uyğun olaraq Bolqarıstanın Razqrad şəhəri ilə Azərbaycan SSR-in Abşeron rayonu qardaşlaşmışdır.

1948-ci ilin mart ayında Sovet İttifaqı və Bolqarıstan Xalq Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanmışdır və bu müqaviləyə uyğun olaraq Azərbaycan SSR və BXR arasında mədəni əlaqələr inkişaf etmişdir [50,s.59].

Ölkələr arasında ədəbi sahədə əməkdaşlıq olduqca inkişaf etmişdir. 1949-cu ildə görkəmli azərbaycanlı yazıçı Mehdi Hüseynin “Abşeron” adlı romanı bolqar dilinə tərcümə olunaraq dərc olunmuşdur. Həmin əsər 1958-ci ildə türk dilinə tərcümə olunaraq BXR-in “Narodno prosveta” nəşriyyatı tərəfindən nəşr olunmuşdur. ”Narodno kultura”, ”Narodnaya molodej” və digər nəşriyyatlar tərəfindən dərc edilmiş əsərlər sırasında H.Abbaszadənin “Məhəbbət trilogiyası”, H.Seyidbəyli və İ.Qasımovun “Uzaq sahillərdə” povestini göstərmək olar [50,s.63].

Azərbaycan SSR və Bolqarıstan ədəbi əlaqələri 1950-ci illərdən daha çox inkişaf etmişdir. Bolqar xalqının görkəmli Azərbaycan şairi Səməd Vurğunun yaradıcılığına böyük marağı var idi. S.Vurğun yaradıcılığında “Ölüm kürsüsü” poeması, “Bolqar torpağında” şeiri ədəbi əlaqələrin inkişafında xüsusi yer tuturdu [34,s.56]. S.Vurğun görkəmli bolqar yazıçısı Stoyan Daskalovla görüşmüşdür və bu görüşdən sonra S.Daskalov “Övladın anaya məhəbbəti” adlı əsərini yazmışdır. Bu əsərin adının bu cür olması təsadüfi hal deyildi. Belə ki, S.Daskalov S.Vurğunla görüşü zamanı ona belə bir sual ünvanlamışdır: ”Ədəbiyyatımızın xalq yaradıcılığına olan münasibəti nə cür olmalıdır?”.S.Vurğun bu suala belə cavab vermişdir:” Övladın anaya məhəbbəti kimi”. S.Daskalov onun bu cavabından təsirlənərək əsərin adını bu cür müəyyənləşdirmişdir [42].

XX əsrin 60-80-ci illərində məşhur Azərbaycan yazıçıları S.Rəhimov, M.İbrahimov, C.Məmmədquluzadənin povestlərindən ibarət toplu tərtib olunmuşdur və bu toplu BXR-in “Xalq mədəniyyəti” nəşriyyatında çap olunmuşdur [32].

Bu illərdə iki ölkənin xalqları arasında, ədəbiyyat və incəsənət xadimləri arasında qarşılıqlı əlaqələr və dostluq münasibətləri möhkəmlənmişdir. Süleyman Hacıbəyovun yaradıcılığında “Bolqar süitası” əsərinin yer alması ədəbi əlaqələrin inkişafından xəbər verirdi [57,s.66].

1960-70-ci illərdə Azərbaycan SSR və Bolqarıstan arasında mətbuat sahəsində əməkdaşlıq intensiv inkişaf etmişdir. Bolqarıstanın “Nov jivot”, “Narodna mladost” kimi mətbu nəşrlərində Azərbaycana dair məlumatlar öz əksini tapırdı [34,s.59]. 1964-cü ildə nəşr olunan “Abşeron” qəzetində Razqrad-Abşeron dostluğuna dair parlaq

nümunələr öz əksini tapmışdır. Burada göstərilirdi ki:"Bolqarıstandan gələn dostlarımız Abşeronu, paytaxtımızın görməli yerlərini gəzirlər. Qonaqlarımız Neft daşlarını, Zığ zeytun, Zirə, Subtropik bitkilər və Altıağac sovxozlarını ziyarət edirlər" [10,s.66]. 1965-ci ildə "Abşeron" qəzetində Razqrad mahal Kənd Təsərrüfatı İdarəsinin rəisi Marin Atasanovun Abşeronda olarkən çox sevdiyi "Lirik mahnı"nın misralarını asta avazla oxuduğu yazılırdı:"Baxa-baxa yollara, axtarıram səni mən".O, "Bülbül" və "Olmaz-olmaz" xalq mahnılarını da çox sevdiyini bildirirdi [10,s.72]. 1979-cu ildə "Azərbaycan müəllimi" qəzetində bolqar yazıçısı Lyuben Stoyçev Karavelovun 100 illiyinə həsr olunmuş "Görkəmli bolqar yazıçısı" adlı məqalə dərc olunmuşdur və burada onun həyat və yaradıcılığı haqqında oxuculara məlumat verilmişdir [23].

Azərbaycan-Bolqar Dostluq Cəmiyyətinin yaradılması ölkələrarası mədəni əlaqələrin genişləndirilməsində əhəmiyyətli rol oynamışdır. 1963-cü ildə Azərbaycan SSR-də Bolqarıstan Mədəniyyəti Dekadası keçirilmişdir. Eyni zamanda Bolqarıstanda da Azərbaycan mədəniyyət günləri keçirilirdi. Azərbaycan SSR-də mədəniyyət günlərində iştirak edən bolqar nümyəndə heyətinə Mixail Manev başçılıq edirdi. Dekada çərçivəsində tədbirlər Bakı, Sumqayıt, Kirovabad şəhərlərində keçirilirdi [43]. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti və Sovet-Bolqarıstan Dostluq Cəmiyyətinin Azərbaycan şöbəsi tərəfindən 1963-cü il sentyabr ayının 9-u Bolqarıstanın faşistlərdən azad edilməsinin 19-cu ildönümünə həsr olunmuş qala gecəsi keçirilmişdir. Qala gecəsi M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında baş tutmuşdur. Tədbirə bir sıra sənaye müəssisələrinin işçiləri,elm və mədəniyyət xadimləri,əcnəbi tələbələr də dəvət olunmuşdur [5]. Həmçinin 1972-ci ildə də bu cəmiyyətlər tərəfindən Bolqarıstanın faşist işğalından azad olunmasının 28 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir. Yığıncaqda görkəmli şair Əliağa Kürçaylı özünün bolqar poeziyasından tərcümələrini səsləndirmişdir [7].

Azərbaycan SSR və BXR arasında mədəni əlaqələrdə idman sahəsində əməkdaşlığın inkişaf ertdirilməsi məqsədilə keçirilən yarışlarda azərbaycanlı idmançılar da iştirak edirdi. Sofiyada 1952-ci ildə Olimpiya yarışlarına hazırlıq üçün

qabaqcadan yarışlar təşkil olunurdu və bu yarışlarda SSRİ komandasının tərkibinə daxil olan azərbaycanlı idmançılar Musa Babayev və Rəşid Məmmədbəyov da iştirak edirdi. Azərbaycanlı və bolqar idmançılar bir sıra beynəlxalq tədbirlərdə qarşılaşırdılar. 1960-cı ildə Sofiya şəhərində təşkil olunmuş güləş üzrə yarışlarda azərbaycanlı idmançı Aydın İbrahimov iştirak etmişdir [50,s.72-73].

Bolqarıstan və Azərbaycan SSR arasında incəsənət sahəsində də əməkdaşlıq intensiv inkişaf edirdi. Bolqarıstanın Sofiya, Plovdiv, Razqrad şəhərlərinin teatr səhnələrində Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası, S.Vurğunun "Fərhad və Şirin" dram əsəri bir neçə dəfə oynanılmışdır. Azərbaycan SSR-in teatr səhnələrində Bolqarıstanın görkəmli dramaturqu S.Stoyanovun "Falçı" pyesi, eyni zamanda X.Xodjiuevin "İyul axşamları" pyesi oynanılırdı. Bolqarıstanda da C.Cabbarlının "Sevil", M.İbrahimovun "Yaxşı adam", S.Rəhmanın "Əliqulu evlənir", Ü.Hacıbəylinin "O olmasın bu olsun" əsərləri tamaşaya qoyulurdu [34,s.59].

Göstərilən illərdə Bolqarıstanın məşhur fırça ustaları Azərbaycan SSR-ə,eyni zamanda Azərbaycan rəssamları BXR-ə səfər edirdilər. BXR-də azərbaycanlı rəssamlar V.Səmədova, M.Abdullayev, M.Rəhmanzadə, L.Feyzullayevin sənət əsərləri nümayiş etdirilirdi [50, s.73]. Bolqarıstanın Sofiya şəhərində Azərbaycan rəngkarlığı sərgisi təşkil olunmuşdur və bu sərgiyə dair professor Boris Kolevin təəssüratları 1964-cü ildə nəşr olunan "Zevidelsko znamya" mətbu nəşrində əks olunmuşdur [13,s.543].

XX əsrin 60-80-ci illərində Azərbaycan SSR ilə Bolqarıstan arasında musiqi sahəsində əməkdaşlıq dinamik inkişaf edirdi. Azərbaycanlı solistlər Bolqarıstana qastrol səfərlərində iştirak edirdilər. Görkəmli bolqar dirijoru D.Potkovun çıxışları azərbaycanlılar tərəfindən maraqla qarşılanırdı [34,s.59]. 1968-ci ildə Bolqarıstanda IX Ümumdünya gənclər və tələbələr festivalı keçirilən zaman "Qaya" vokal kvarteti qızıl medala layiq görülmüşdür [18,s.12]. Rəşid Behbudovun rəhbərlik etdiyi Azərbaycan Dövlət Mahnı Teatrı Bolqarıstanda keçirilmiş beynəlxalq folklor festivalında ölkəmizi təmsil etmişdir. Bolqarıstanın "Çernomorski front" qəzetində azərbaycanlı incəsənət xadimlərinin fəaliyyəti yüksək qiymətləndirilmişdir [19,s.31].

1983-cü ildə Azərbaycan SSR-in yaradıcı kollektivləri BXR-də konsert proqramları ilə çıxış etmişdir. Onların sırasında “Xəzər” ansamblı, “Bahar” rəqs və mahnı ansablını göstərmək olar. 1987-ci ildə Rumıniya, Bolqarıstan, ADR, Macarıstan incəsənət xadimləri Azərbaycanda musiqi proqramları ilə çıxış edirdilər. Həmin illərdə SSRİ və Bolqarıstanın gənc ifaçılarından ibarət nümayəndə heyəti ilə görüş təşkil olunmuşdur [26, s.95-96].

Azərbaycan SSR və Bolqarıstan kino sahəsində də əməkdaşlıq edirdi.Azərbaycan xalqı bolqar filmlərinə böyük maraq göstərirdi və “Balaca qız”, “Kapitan”, “Vətən üzərində səhər”, “Kirpilər tikansız doğulur” kimi bolqar filmləri Azərbaycan SSR-də nümayiş olunurdu. ”Koroğlu”, “Arşın mal alan”, “Yeddi oğul istərəm”, “Uzaq Sahillərdə”, “Nəsimi” kimi Azərbaycan filmləri Bolqarıstanda nümayiş olunurdu [50, s.74].

Şərqi Avropanın sosialist ölkələrindən biri olan ***Macarıstan*** və Azərbaycan SSR arasında mədəni əlaqələr dinamik inkişaf etmişdir. 1947-ci ildə SSRİ və Macarıstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş imzalanmışdır və buna müvafiq olaraq Azərbaycan SSR və MXR arasında mədəni sahədə əməkdaşlıq inkişaf istiqaməti götürmüşdür [13,s.555].

Macarıstan və Azərbaycan arasında ədəbi əlaqələr əməkdaşlığın dinamik inkişafında mühüm yer tuturdu.Macarıstanın görkəmli ədəbiyyatşünasları respublikamızda səfərlərdə iştirak edirdilər və onların sırasında D.Rado və başqalarını göstərmək olar. Macar mədəniyyətinə Azərbaycan xalqının böyük marağı var idi. D.Radonun yaradıcılığında Azərbaycanla bağlı xoş təəssüratlarını ifadə etdiyi “Abşeron”, “Əfsanə və neft”, “Xəzərlə vidalaşma” kimi əsərləri görmək olar [13,s.558-559]. M.P.Vaqifin 1967-ci ildə keçirilmiş yubiley tədbirinə digər ölkələrlə yanaşı MXR-in də ədəbiyyat nümayəndələri qatılmışdır. Azərbaycan və Macarıstan ədəbiyyat xadimləri XX əsrin 70-ci illərində çoxsaylı səfərlərdə iştirak etmişlər. Macarıstanın “Uy tükər” dərgisində C.Bərgüşadın hekayələri nəşr olunmuşdur. Bu hekayələri D.Şitev tərcümə etmişdir [33].

Azərbaycan SSR və MXR arasında mətbuat sahəsində də əlaqələr mövcud olmuşdur. XX əsrin 80-ci illərində Macarıstanın "Məşəl" mətbu nəşrində Azərbaycana dair ədəbi materiallar dərc olunmuşdur. M.İbrahimbəyova aid "Qardaşdan yaxşısı yoxdur" kitabı XX əsrin 80-ci illərində Macarıstanda dərc olunmuşdur. Eyni zamanda yazıçı Anarın əsərlərindən olan "Beşmərtəbəli evin altıncı mərtəbəsi" 1980-ci illərdə Macarıstanın Budapeşt şəhərində dərc olunmuşdur. Macarıstanın görkəmli şairi İ.Dabi yüksək səviyyədə Azərbaycan dili biliklərinə malik idi və o, 1985-ci ildə Azərbaycan SSR-də ezamiyyətdə olmuşdur. O, ölkəmizdə olarkən Azərbaycan Yazıçılar İttifaqının qonağı olmuşdur. Görkəmli yazıçı N.Rəsulzadənin "Addımlar" kitabı 1980-ci illərin sonlarında "Avropa" nəşriyyatı tərəfindən nəşr edilmişdir [33].

XX əsrin 60-cı illərində Azərbaycan SSR və MXR arasında mədəniyyət dekadaları təşkil olunurdu. Azərbaycan SSR-də 1965-ci ildə Macarıstan Mədəniyyət Dekadası keçirilmişdir. Dekada çərçivəsində Bakı, Gəncə, Mingəçevir şəhərlərində tədbirlər təşkil olunurdu. Müvafiq olaraq Macarıstanda da Azərbaycan Mədəniyyət Dekadası keçirilmişdir [13,s.558]. 1988-ci ildə MXR-də Azərbaycan mədəniyyəti günləri keçirilmişdir [36,s.68]. Budapeşt şəhərində 1985-ci ildə Ümumavropa prosesi iştirakçıları olan ölkələrin "Mədəniyyət məclisi" keçirilmişdir və məclisdə mədəni əməkdaşlığın genişləndirilməsinin formaları müəyyənləşdirilmişdir [36,s.86].

Azərbaycan SSR və MXR arasında incəsənət sahəsində əlaqələr geniş olmuşdur. Macarıstanın Budapeşt şəhərində 1960-cı ildə incəsənət sahəsində silsilə sərgilər təşkil olunurdu. Bu sərgilərdə Azərbaycan təsviri sənəti macar xalqının marağına səbəb olmuşdur. Sərgidə azərbaycanlı rəssamlar Tahir Salahov, Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə və digər görkəmli rəssamların sənət əsərləri nümayiş olunmuşdur. Bundan başqa Budapeşt Tətbiqi Sənət Muzeyində təşkil olunmuş sərgiyə dair sənətşünas İmre Katon öz xoş təəssüratlarını bildirmişdir. Bu sərgi əsərlərin janr müxtəlifliyi, rəngarəngliyi ilə böyük marağa səbəb olmuşdur [13,s.557]. XX əsrin 70-80-ci illərində azərbaycanlı rəssamlar Macarıstana yaradıcılıq məzuniyyətlərində iştirak edirdilər. Bu illərdə MXR-də "Azərbaycan" adlı foto-sərgi təşkil olunmuşdur. Macarıstanda 1970-ci illərin sonlarında müxtəlif sərgilər təşkil olunurdu. Bu sərgilərə

misal olaraq, tətbiqi-dekorativ sənət, qrafika, foto sərgilərini göstərmək olar. Budapeşt şəhərində 1980-ci ildə görkəmli azərbaycanlı rəssam Y.Vəlizadənin foto-sərgisi təşkil olunmuşdur [33,s.122].

Azərbaycan və MXR arasında musiqi sahəsində əməkdaşlıq göstərilən illərdə intensiv inkişaf edirdi. Macar xalqının klassiklərindən olan Kadom, Ferens List Azərbaycan xalqı tərəfindən sevilirdi. Macarıstan xalq ansambıllarından olan “Mavi Dunay” Azərbaycan SSR-ə qastrol səfəri çərçivəsində gəlmişdir. Görkəmli azərbaycanlı bəstəkar Arif Məlikovun “Xudahafiz Budapeşt” adlı mahnısı ölkələrarası əməkdaşlığın inkişafında mühüm yer tuturdu. Görkəmli macar bəstəkarı İştvan Rayç 1976-cı ildə Azərbaycan SSR-ə səfər etmişdir və onun ölkəmizlə bağlı təəssüratları Macarıstanın “Nensavadşaq” mətbu nəşrində dərc olunmuşdur. İştvan Rayç Azərbaycan SSR-də olarkən bəstəkar Oqtay Zülfüqarov, Tofiq Quliyev ilə görüşmüşdür [13,s.557]. 1985-ci ildə “Budapeşt musiqi həftəsi” festivalı keçirilən zaman görkəmli bəstəkar A.Məlikov da bu festivalda iştirak etmişdir. Görkəmli skripkaçı A.Kiş 1987-ci ildə Azərbaycan SSR-ə səfər edən musiqiçilərdən ibarət nümayəndə heyətinin tərkibində olmuşdur [33,s.122].

Mədəni əməkdaşlığın digər bir sahəsi kino sahəsi idi. 1967-ci ildə Macarıstanın görkəmli kinoşünası Karod Nemeş Azərbaycan SSR-də səfərdə olmuşdur. Səfər çərçivəsində o, Azərbaycan kinosuna dair materiallar yığmışdır. Müvafiq olaraq M.Qurbanov da 1969-cu ildə Macarıstana səfər etmişdir [13,s.558]. M.Qurbanovun bu səfəri Azərbaycan-Macarıstan arasında kino sahəsində əməkdaşlıqda olduqca mühüm əhəmiyyət kəsb edirdi [40]. Macarıstanın məşhur aktrisası Xedi Varadi 1975-ci ildə Azərbaycan SSR-də səfərdə olmuşdur və Bakı şəhəri haqqında öz xoş təəssüratlarını bildirmişdir. Xedi Varadi və həmkarları bakılıların çox qonaqpərvər olduqlarını düşünürdülər [13,s.558].

Kino sahəsində beynəlxalq mədəni əməkdaşlıq XX əsrin 70-80-ci illərində geniş xarakter almışdır. Bu dövrdə Bakıda beynəlxalq kino həftələri keçirilirdi və 1986-cı ildə Bolqarıstan, Rumıniya, Çexslovakiya kino həftələrinin keçirilməsi Azərbaycanla bu ölkələr arasında mədəni əməkdaşlığın inkişaf etməsində önəmli faktorlardan biri

olmuşdur. Bu illərdə, həmçinin Azərbaycan filmləri beynəlxalq kino festivallarında nümayiş olunurdu [40]. 1987-ci ildə Moskva şəhərində ənənəvi beynəlxalq kino festivalı keçirilmişdir. Məşhur azərbaycanlı ssenarist Rüstəm İbrahimbəyov festivalda münsiflər heyətinin tərkibinə daxil idi. Kino festivalında R.Ocaqov, E.Quliyev, F.Yusifov, Ə.Əliyev kimi görkəmli kino xadimləri iştirak edirdilər. Onlar, eyni zamanda Azərbaycanda nümayiş olunacaq filmlərin seçilməsində iştirak etmişlər. Bu festivaldan sonra Azərbaycanın bir çox şəhərlərində Macarıstan, Çexslovakiya və ADR-in filmləri nümayiş olunmuşdur [36,s.61].

Azərbaycan SSR və sosialist ölkələr arasında kitab nəşri sahəsində də əlaqələr inkişaf etmişdir. 1980-ci ildə Macarıstanın Budapeşt şəhərində M.İbrahimbəyovun “Və o, qardaşından yaxşı deyildi” kitabı “Europa Konukviada” nəşriyyatı tərəfindən nəşr olunmuşdur. 1982-ci ildə həmin nəşriyyatda məşhur “Müasir ədəbiyyat” silsiləsində yazıçı Anarın “Beşmərtəbəli evin altıncı mərtəbəsi” adlı romanı işıq üzü görmüşdür [54,s.71].

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra onun xarici ölkələrlə diplomatik-siyasi əlaqələrinə son qoyulmuşdur və xarici ölkələrlə əlaqələr daha çox iqtisadi və mədəni sahədə saxlanılırdı. Belə ölkələrdən biri ***Polşa*** olmuşdur.Polşa azərbaycanlı mühacirlərin ən çox məskunlaşdığı ölkələrdən biri olmuşdur. 1938-ci ildən M.Ə.Rəsulzadə öz fəaliyyətinə Polşada davam etmişdir. Onun 1939-cu ildə Varşava şəhərində “Azərbaycan istiqlal mübarizəsi” adlı kitabı kitabı çap olunmuşdur. Bununla yanaşı Rəsulzadənin “Panturanizm və Qafqaz problemi” kitabı, “Dövrün sintezi” adlı məqaləsi də Polşada nəşr olunmuşdur.

İkinci dünya müharibəsindən sonra SSRİ və Polşa arasında bağlanmış müqavilə və sazişlərə uyğun olaraq Azərbaycan SSR-Polşa arasında mədəni əlaqələr inkişaf istiqaməti götürmüşdür. 1948-ci ildə Polşada, Vrodslav şəhərində sülh tərəfdarlarının Ümumdünya Konqresi keçirilmişdir. Bu konqresdə sovet nümayəndə heyətinin tərkibində Azərbaycanın görkəmli şairi Səməd Vurğun da iştirak etmişdir. Səməd Vurğun “Əsgər haqqında ballada”sını Polşa uğrunda döyüşlərdə iştirak etmiş İ.Məmmədova həsr etmişdir. S.Vurğunun əsərləri 1951-ci ildə polyak dilinə tərcümə

olunmuşdur. 1975-ci ildə isə Azərbaycanın görkəmli şairləri Nizami Gəncəvi, M.P.Vaqif, Məhəmməd Füzulinin şeirləri Polşanın "Lodz" nəşriyyatında nəşr edilmişdir [34,s.49-51]. Həmçinin XX əsrin 80-ci illərində "Lodz" nəşriyyatı Bəxtiyar Vahabzadənin şeirlər məcmuəsini, eyni zamanda Azərbaycan nağıllarını dərc etdirmək istədiyini bəyan etmişdir. "Azərbaycan kulinariyası" kitabının polyak dilinə tərcümə olunaraq Polşada nəşr olunması üçün Polşanın "Vator" şirkəti razılıq əldə etmişdir. 1980-ci illərin sonlarında Polşanın "Vrotslav" milli nəşriyyatı tərəfindən Boqdan və Kiştof Boqdanovların "Azərbaycan tarixi" kitabı nəşr edilmiş və polyak oxuculara çatdırılmışdır [36,s.72-73].

Polşa ilə Azərbaycan SSR arasında göstərilən illərdə ədəbi sahədə əməkdaşlığın yüksək səviyyədə inkişaf etməsini qeyd etmək məqsədəuyğundur. Polşa EA-nın akademiki, Polşanın Varşava Universitetinin türkologiya kafedrasının müdiri A.Zayonçkovskinin 1957-ci ildə "Pişiyazn" jurnalında "Səməd Vurğun Azərbaycanın nəğməkarıdır" adlı məqaləsi dərc olunmuşdur. A.Zayonçkovski S.Vurğun yaradıcılığının yazıldığı dildə oxunmasının tərəfdarı idi, çünki o, bildirirdi ki, əsərin ikinci dilə tərcümə olunması onun bütün füsunkarlığını itirir [45].

1963-cü ildə A.Zayonçkovskinin 60 illik yubileyi keçirilmişdir.Bu yubiley tədbirində Azərbaycan alimlərindən M.Ş.Şirəliyev də iştirak etmişdir. Ümumiyyətlə, Polşada keçirilən tədbirlərdə azərbaycanlı nümayəndələr fəal iştirak edirdilər. Azərbaycanın görkəmli şairi M.İbrahimov Polşada sülhün qorunması ilə əlaqədar keçirilən konfranslarda iştirak etmişdir.

1960-cı illərdə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası polyak xalqı tərəfindən böyük marağa səbəb olmuşdur. "Arşın mal alan " operettası Polşada "Çadra altında qız" adı altında nümayiş olunurdu. 1958-ci ildə Polşanın Mazoveski Teatrının rejissoru Banda Brublevskaya tərəfindən bu tamaşanın premyerası keçirilmişdir. "Arşın mal alan" tamaşası Polşanın bir çox şəhər və kəndlərində nümayiş olunmuşdur.

Görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığına Polşada böyük maraq var idi. Bu məqsədlə professor A.Zayonçkovski Azərbaycanda səfərdə olmuşdur. A.Zayonçkovski bildirirdi ki, Nizami ən çox müraciət olunan şairlərdən

biridir, məsələn, məşhur Azərbaycan bəstəkarı S.Vurğun Nizaminin "Xosrov və Şirin" poemasından təsirlənərək 1941-ci ildə "Fərhad və Şirin" dram əsərini yazmışdır. Hətta Polşa universitetlərindən birində "Fərhad və Şirin" mövzusunda dissertasiya işi yazılmışdır. A.Zayonçkovski ilə yanaşı T.Xruşelevski, Stanislav Rimkeviç kimi polyak ziyalılar Azərbaycan ədəbiyyatına maraq göstərmişlər.

Jurnalistika sahəsində əməkdaşlığa nəzər saldıqda, görmək olar ki, 1950-ci illərin sonlarında Polşanın məşhur jurnalistlərindən olan A.Poplovski "Pşiyazn" jurnalında Azərbaycanla bağlı məqalə dərc etdirmişdir, Bakı və Azərbaycan xalqı haqqında olan xoş təəssüratlarını bu məqalədə əks etdirmişdir.

Azərbaycan SSR-PXR arasında mədəni əməkdaşlığın bir forması mədəniyyət günlərinin keçirilməsi olmuşdur. 1969-cu ildə Polşada Azərbaycan mədəniyyət günləri keçirilmişdir və polyak xalqı tərəfindən böyük marağa səbəb olmuşdur. Görkəmli Azərbaycan rəssamları T.Salahov, M.Abdullayev və digər rəssamların sənət əsərləri bu mədəniyyət günlərində nümayiş olunmuşdur. Azərbaycanlı solistlər və pianoçular mədəniyyət günlərində çıxış edirdilər [46]. Müvafiq olaraq 1969-cu ildə Azərbaycan SSR-də sovet-polyak dostluq günləri keçirilmişdir. Azərbaycan SSR-də olan nümayəndə heyətinin tərkibinə 34 nəfərlik turist qrupu, rəssamlar, xanəndələr və digərləri daxil olmuşdur [8,s.58].

XX əsrin 60-cı illərində Azərbaycan və Polşa arasında kino sahəsində əməkdaşlıq intensiv inkişaf etmişdir. 1968-ci ildə Polşanın kinematoqrafiya sahəsində nümayəndə heyəti Azərbaycan SSR-də səfərdə olmuşdur.Azərbaycan SSR-in sənədli filmləri Polşada keçirilən film festivallarında nümayiş etdirilirdi. 1969-cu ildə Moskva şəhərində beynəlxalq kino festivalı keçirilmişdir.Polşa kinematoqrafları 1969-cu ildə Moskva şəhərində keçirilən VI Beynəlxalq kinofestivalda iştirak etdikdən sonra Azərbaycan SSR-ə də səfər etmişdir. Polşanın Varşava şəhərində "Azərbaycanfilm" studiyasının istehsalı olan 10 film nümayiş etdirilmişdir [34,s.53].

XX əsrin ikinci yarısında Azərbaycan və Polşa arasında incəsənətin müxtəlif sahələrində geniş əlaqələr mövcud olmuşdur. 60-cı illərdə Azərbaycan rəssamları Polşada yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün oraya ezam olunmuşlar. Eyni

zamanda Polşa rəssamları da Azərbaycana səfər edərək burada yaradıcılıq fəaliyyəti ilə məşğul olurdular. Artıq Azərbaycan rəssamları beynəlxalq səviyyədə tanınırdılar. Azərbaycanlı heykəltəraş və memarlar Azərbaycanın mədəni əlaqələrinin genişlənməsində mühüm rol oynamışlar. Məsələn, 1982-ci il Polşanın Varşava şəhərində dekorativ və tətbiqi əsərlər sahəsində Azərbaycan sərgisi keçirilmişdir [40].

1989-cu ildə Polşanın Krakov şəhərində keçirilən beynəlxalq rəsm festivalında Azərbaycan SSR-in rəssamlarının əl işləri nümayiş olunurdu, xüsusilə, məşhur azərbaycanlı rəssam E.Abbaslının əl işləri bürünc medala layiq görülmüşdür. Azərbaycanın məşhur fırça ustaları olan Səttar Bəhlulzadə və Tahir Salahovun əsərləri Polşa, Bolqarıstan, Çexslovakiya, Macarıstan kimi ölkələrdə nümayiş olunurdu [34,s.55]. Bu VIII Beynəlxalq festivalda E.Abbaslı həm bürünc medal qazanmışdır, həm də təşkilat komitəsinin xüsusi mükafatını qazanmışdır. 1989-cu ildə Polşanın Zelenaqura şəhərində görkəmli azərbaycanlı rəssamlar Sara Manafova, İsmayıl Məmmədovun sənət əsərləri nümayiş olunmuşdur [36,s.65].

Azərbaycan və Polşa arasında musiqi sahəsində əməkdaşlıq XX əsrin 60-cı illərindən genişlənmişdir. Azərbaycanın məşhur bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Üzeyir Hacıbəyli polyak xalqı tərəfindən çox sevilirdi. Eyni zamanda polyak bəstəkarı Friderik Şopenin əsərləri Azərbaycanda böyük marağa səbəb olurdu [46]. XX əsrin 80-ci illərində SSRİ xalq artistləri Rəşid Behbudov, Müslüm Maqomayevin çoxsaylı qastrol səfərləri baş tuturdu. M.Maqomayev çoxsaylı beynəlxalq tədbirlərdə iştirak edirdi, məsələn, PXR-də keçirilmiş musiqi festivalında uğur qazanmış və “Varşava mahnısı” festivalında iştirak etmişdir [26,s.52].

XX əsrin ikinci yarısında Azərbaycan SSR-in SSRİ-nin bağladığı müqavilə və sazişlərə uyğun olaraq mədəni əməkdaşlıq etdiyi ölkələrdən biri ***Çexslovakiya*** olmuşdur. 1955-ci ildə 12 oktyabr tarixində Moskvadan Sovet-Çexslovakiya dostluq cəmiyyətinin nümayəndə heyəti Azərbaycan SSR-də olmuşdur. Nümayəndə heyətinin tərkibinə professor Boquslav Qavranek, rus dili müəllimi Rudolf Dımaçek, professor Vladislav Demel və digərləri daxil idi [4,s.82]. Qonaqlar Bakı şəhərinin görməli

yerlərini ziyarət etmişlər. Axşam idə "Xəzər neftçilərinin povesti" və "Doğma insanlar" kinofilmlərinə baxmışlar [4,s.84].

Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti tərəfindən 12 dekabr 1963-cü ildə saat 19:00-da müharibədən sonra SSRİ və Çexslovakiya arasında imzalanmış qarşılıqlı yardım və əməkdaşlıq haqqında müqavilənin 20 illiyinə həsr olunmuş yığıncaq təşkil olunmuşdur. Gecəyə sənaye müəssisələrinin işçiləri, bir sıra partiya və komsomol işçiləri, elm, ədəbiyyat və incəsənət xadimləri dəvət olunmuşdur. Gecədə SSRİ, Çexslovakiya və Azərbaycan SSR-in dövlət himnləri səsləndirilmişdir [5,s.92].

Azərbaycan və Çexslovakiya arasında mədəniyyət günlərinin təşkil olunması Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti və Sovet-Çexslovakiya dostluq cəmiyyəti xətti ilə həyata keçirilirdi. 1964-cü ildə Azərbaycan SSR-də Çexslovakiya mədəniyyət dekadası keçirilmişdir. Dekada çərçivəsində Bakı, Sumqayıt, Kirovabad şəhərlərində bir sıra görüşlər təşkil olunmuşdur. Dekada çərçivəsində Mingəçevir şəhərinin bir küçəsinə çex qəhrəmanı Yuliust Fuçikin adı verilmişdir. Müvafiq olaraq 1965-ci ildə Çexslovakiyada Azərbaycan mədəniyyət dekadası keçirilmişdir. Dekadanın açılış mərasimi Praqa şəhərinin Voldşteyn sarayında həyata keçirilmişdir. Dekada çərçivəsində görkəmli rəssam Toğrul Nərimanbəyovun sərgisi təşkil olunmuşdur [13,s.551-552].

1964-cü ildə Azərbaycanda keçirilmiş Çexslovakiya mədəniyyət ongünlüyü çərçivəsində kinoteatrlarda çex filmləri nümayiş olunurdu və film festivalları keçirilirdi. Azərbaycan televiziya və radiosu tərəfindən Çexslovakiyaya dair proqramlar hazırlanırdı [13,s.551].

XX əsrin ikinci yarısından başlayaraq Azərbaycan SSR-Çexslovakiya ədəbi əlaqələri intensiv inkişaf etmişdir. Çexslovakiyanın şərqşünas filoloqları Zelenski Vesela, Yan Rıpka ədəbi əlaqələrin inkişafında mühüm rol oynamışdır. Filoloq Yan Rıpka Nizami Gəncəvi yaradıcılığını tədqiq etmişdir və onun bir sıra əsərlərini çex dilinə tərcümə etmişdir. Filoloq Zelenski Vesela C.Məmmədquluzadə, M.Füzuli yaradıcılığına müraciət etmişdir və onların bir sıra əsərlərini çex dilinə tərcümə

etmişdir. Z.Vesela poeziya janrı olan Azərbaycan bayatılarını da çex dilinə tərcümə etmişdir və bu bayatılar “Azerbaydjanskaya lidova çtijiverşi” adı ilə dərc etdirmişdir. Bu dövrdə azərbaycanlı şairlər S.Vurğun, N.Xəzri, S.Rüstəm ilə çex yazıçı və şairləri arasında qarşılıqlı əməkdaşlıq mövcud olmuşdur [13,s.548-549].

Azərbaycan və Çexslovakiya arasında təsviri sənət sahəsində əlaqələrin nəticəsi olaraq görkəmli rəssam Tahir Salahov Çexslovakiyaya səfər etmişdir. T.Salahovun bir sıra sənət əsərləri Çexslovakiyada nümayiş olunmuşdur. Onların sırasında “Praqa tunelləri”, “Praqada döngə”, “Praqanın şəhəri” əsərləri var idi. Həmçinin akvarellə çəkilmiş sənət əsərləri də bu əsərlərin sırasında yer alırdı – “Balıqçılar”, “Bexində axşam” və s. [13,s.550].

1964-1969-cu illərdə qardaş sosialist ölkələrdə keçirilən mədəniyyət ongünlükləri çərçivəsində azərbaycanlı rəssamların sərgiləri təşkil olunurdu və belə ölkələrdən biri Çexslovakiya olmuşdur. Görkəmli rəssam M.Abdullayevin sənət əsərləri Praqa şəhərində nümayiş olunurdu. Azərbaycanlı rəssam M.Rəhmanzadə bir neçə dəfə Çexslovakiyaya səfər etmişdir və onun yaradıcılığına dair məlumat Çexslovakiyanın “Svet sovetu” mətbu nəşrində öz əksini tapmışdır [19,s.44].

Bu illərdə Çexslovakiyanın Praqa Milli Teatrının səhnələrində Q.Qarayevin “Yeddi gözəl” baleti səhnələşdirilmişdir. Eyni zamanda bəstəkar B.Smetananın “Satılmış qadın” operası Azərbaycan Opera və Balet Teatrı səhnəsində oynanılmışdır [13,s.549].

Bu illərdə ölkələr arasında musiqi sahəsində əməkdaşlıq intensiv inkişaf etmişdir. 1967-ci ildə Çexslovakiyada pianoçuların B.Smetana adına Beynəlxalq Müsabiqəsi keçirilmişdir. Bu müsabiqədə respublikamızı Leuisenka və Xviçiya ilə birlikdə Fərhad Bədəlbəyli təmsil etmişdir. Fərhad Bədəlbəyli Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi olmuşdur və müsabiqənin laureatı adını qazanmışdır. Azərbaycanın incəsənət xaidimi Arif Məlikov 1967-ci ildə Brno İncəsənət Akademiyasının 20 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir [19,s.34-35].

Azərbaycanın musiqiçiləri Çexslovakiyada təşkil olunmuş “Praqa baharı” musiqi festivalında çıxış etmişdir. Xüsusilə, maestro Niyazi və Fikrət Əmirov yaradıcılığı

Çexslovakiyada böyük marağa səbəb olmuşdur. Professor Miroslav Barvik Niyazinin yaradıcılığını nəzərdən keçirmiş və onu qüdrətli bir sənətkar kimi qələmə vermişdir [13,s.549-550].

1971-ci ildə azərbaycanlı incəsənət xadimləri Çexslovakiyada konsert proqramları ilə çıxış edirdilər [29,s.40]. 1972-ci ildə Çexslovakiyada sovet uşaq ədəbiyyatı və incəsənət festivalı keçirilən zaman İ.Tapdıq burada iştirak etmişdir. Çex ədəbiyyatı tərcüməçilərinin beynəlxalq görüşü zamanı isə Ç.Novruz burada iştirak etmişdir [29,s.32].

Çexslovakiyanın XX əsrin sonlarında iki yerə parçalanması nəticəsində Çexiya və Slovakiya dövlətləri yaranmışdır və Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra bu ölkələrlə birbaşa olaraq mədəni əlaqələr saxlamağa başlamışdır.

XX əsrin ikinci yarısında Azərbaycan SSR-in mədəni sahədə əlaqələr saxladığı ölkələrdən biri ***Rumıniya*** olmuşdur. 1948-ci ildə SSRİ və Rumıniya arasında bağlanmış dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq Azərbaycan və Rumıniya arasında ədəbi əlaqələr intensiv inkişaf etmişdir [13,s.562]. Keçən əsrin ortalarında Azərbaycan ədəbiyyatında yer alan bir sıra əsərlər rumın dilinə tərcümə olunmuşdur. Rumıniyanın Buxarest şəhərində 1956-cı ildə S.Vurğunun kitabı nəşr olunmuşdur. Azərbaycan xalqı da rumın ədəbiyyatı ilə tanış idi. Onlar Mixay Sadovyanunun "Mitrya Kokor", "Möcüzəli palıdlıq" kitabları ilə tanış idilər [34,s.61]. 1968-ci ildə görkəmli rumın şairi Romulus Vulpeskun Bakıda M.P.Vaqifin 250 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.

1970-ci ildə Rumıniya və SSRİ arasında sosialist ölkələri ilə əməkdaşlığın genişləndirilməsinə dair müqavilə imzalanmışdır. Bu müqaviləyə uyğun olaraq Azərbaycan SSR və Rumıniya arasında əlaqələr 70-ci illərdən daha da genişlənmişdir. Görkəmli şair Məmməd Rahim 1970-ci ildə Rumıniyada yaradıcılıq səfərində olmuşdur [13,s.562-563]. XX əsrin 70-ci illərində rumın ədəbiyyatının bir sıra xalq nağılları Azərbaycan dilinə tərcümə olunmuşdur. Onların sırasında "Pəhləvan

Ageran", "Ağıllı Naye", "Qız, günəş və leylək", "Dalğıc geyimi axtarıram" kimi xalq nağılları var idi [34,s.62].

XX əsrin 50-60-cı illərində Rumıniyada Azərbaycan SSR-in teatrlarının solistləri çıxış edirdilər. Azərbaycan teatrlarında da görkəmli rumın dramaturqlarının pyesləri oynanılırdı. Onların sırasında V.Yeftimiunin "Ölümü görmüş adam" pyesini göstərmək olar [34,s.61].

O dövrdə Azərbaycan bəstəkarlarının əsərləri Rumıniyaya göndərilirdi. Məsələn, 1964-cü ildə Rumıniyada III Beynəlxalq Musiqi festivalı keçirilmişdir və Ü.Hacıbəylinin "Koroğlu" operasının klaviri, F.Əmirovun simfoniyası və s. musiqi festivalına göndərilmişdir.

Mədəni əlaqələrin inkişafında təsviri sənət əsərləri, keçirilmiş sərgilər önəmli rol oynamışdır. Məsələn, 1971-ci ildə Rumıniya rəssamlarının sənət əsərləri Azərbaycan SSR-də V.Səmədova adına sərgi salonunda nümayiş olunmuşdur. Növbəti illərdə Rumıniyanın məşhur rəssamlarından olan Anjella Laueriade Azərbaycan SSR-də olmuşdur və Bakıda mədəniyyət abidələri ilə yaxından tanış olmuşdur [25,s.25].

Rumıniya sosializm sisteminin aparıcı ölkələrindən biri olmuşdur.Azərbaycan-Rumıniya mədəni əlaqələrinin formalaşması məqsədilə 1951-ci ildə Rumıniya ictimaiyyətinin nümayəndə heyəti Bakı şəhərinə gəlmişdir. Azərbaycanın nümayəndə heyəti SSRİ tərəfindən Rumıniyanın paytaxtı Buxarest şəhərində və bir sıra digər şəhərlərdə keçirilmiş tədbirlərə göndərilirdi. 1967-ci ildə Buxarestdə ticarət-sənaye sərgisi təşkil olunmuşdur. Azərbaycan da bu sərgidə iştirak etmişdir və Azərbaycan pavilyonu 400 mindən çox tamaşaçını özünə cəlb etmişdir [47].

1963-cü ildə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti və Azərbaycan KP Bakı Şəhər Komitəsi tərəfindən Rumıniyanın faşist işğalından azad olunmasının 19 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir. Tədbir 22 avqust tarixində M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilmişdir. Yığıncaqda SSRİ Rumıniya Xalq Respublikası(RXR) və Azərbaycan SSR-in dövlət himni səsləndirilmişdir. Konsert proqramı sovet və rumın mahnıları ilə sonlanmışdır.

Tədbir haqqında məlumatlar televiziya və radio proqramlarında öz əksini tapmışdır [5,s.37].

60-70-ci illərdə iki ölkə arasında mövcud olmuş əlaqələrdə kino sahəsində əməkdaşlıq özünəməxsus yer tuturdu. Bakıda 1974-cü ildə rumın kino həftəsi keçirilmişdir. Burada Rumıniyanın məşhur rəssamlarından olan B.Rotaru iştirak etmişdir. İki ölkə arasında kino sahəsində aparılan əməkdaşlığın nəticəsi olaraq 1986-cı ildə Azərbaycanda rumın uşaq filmləri həftəsi keçirilmişdir.

Rumıniya və Azərbaycan arasında mədəni sahədə aparılan əməkdaşlıqda qardaşlaşmış şəhərlər hərəkatı xüsusi yer tuturdu. 1972-ci ildə iyunun 13-də Azərbaycan SSR-in Sumqayıt şəhəri ilə Rumıniyanın Piteşti şəhəri qardaşlaşmış şəhər elan edilmişdir. Bu şəhərlər arasında istehsalat sahəsində təcrübə mübadiləsi həyata keçirilirdi [25,s.26].

Azərbaycan-Rumıniya arasında jurnalistika sahəsində əlaqələrə nəzər saldıqda, rumın jurnalistlərin Azərbaycana olan səfərlərini, onların səfər zamanı ölkənin sosial-iqtisadi, mədəni həyatı ilə tanış olmaları, ölkə ilə bağlı mülahizələrini öz məqalələrində bildirmələri müsbət dəyərləndirilə bilər.

Azərbaycan-Rumıniya əlaqələrində musiqi sahəsinə də diqqət ayrılmışdır. Azərbaycanın incəsənət xadimləri Rumıniyada baş tutan konsertlərdə iştirak edirdilər. Rumın bəstəkarı Kristianın Azərbaycana səfər etməsi ölkələr arasında mədəni sahədə əməkdaşlığın inkişaf etməsinin nümunəsi olmuşdur.

1977-ci ildə “Sovet və Rumıniya gənclərinin dostluq görüşü” keçirilmişdir. Buna uyğun olaraq Azərbaycan SSR-də də bir sıra tədbirlər keçirilmişdir. Azərbaycana aid olan proqramda ölkənin mədəni həyatı ilə tanış olmaq üçün kütləvi tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Rumıniya gəncləri Azərbaycanın boru-prokat zavodlarında istehsalat təcrübəsi keçirdilər. Dostluq festivalı çərçivəsində rumın xalq musiqisi geniş təbliğ edilirdi. Yaşıl Teatrda Rumıniyanın “Karpat çələngi” ansamblı ilə Azərbaycan SSR-in “Xəyal”, “Simurq”, “Mehri” ansambılları birgə çıxış etmişlər. Eyni zamanda dostluq festivalında rumın tarixindən bəhs edən poçt miniatürləri nümayiş olunurdu [47].

XX əsrin ikinci yarısında Azərbaycan SSR-in mədəni əlaqələr saxladığı sosialist ölkələrdən biri ***Almaniya Demokratik Respublikası*** olmuşdur. SSRİ və ADR arasında bağlanmış müqavilə və sazişlərə uyğun olaraq Azərbaycan və ADR arasında mədəni əlaqələr intensiv inkişaf etmişdir. Alman alimləri Azərbaycan ədəbiyyatına, azərbaycanlı yazıçıların yaradıcılıq fəaliyyətinə maraq göstərirdilər. 1958-ci ildə alman alimi H.Brand Mirzə Fətəli Axundov haqqında monoqrafiya yazmışdır və bu monoqrafiyada onu "Şərqin Mülleri" adlandırmışdır [11,s.23].

İki ölkə arasında ədəbi əlaqələrin inkişafında ədəbiyyat xadimlərinin görüşləri, yaradıcılıq ezamiyyətləri mühüm rol oynamışdır .ADR-in Leyspiq Biblioqrafiya İnstitutu tərəfindən XX əsrin 60-cı illərində Q.Şmidtin "Azərbaycan ədəbiyyatı" adlı monoqrafiyası dərc olunmuşdur. Bu monoqrafiyanın tərkibinə "Koroğlu" dastanı, "Kitabi Dədə Qorqud" dastanı, həmçinin azərbaycanlı şair və yazıçıların əsərləri də daxil idi. Görkəmli şair S.Vurğun öz yaradıcılığında "Berlin", "Rot Front" kimi əsərlərini alman xalqına həsr etmişdir. Ölkələrarası əlaqələr qarşılıqlı şəkildə inkişaf etdiyi üçün bu illərdə alman yazıçısı Ervin Bekker də öz yaradıcılığında Azərbaycan mövzusuna yer vermişdir. Onun yaradıcılığında "Yeddi gəmi adası" əsərində Neft daşlarına və oradakı həyata toxunulmuşdur. Bu illərdə ADR-in "Noyes Doycland" mətbu nəşrində "Ədəbi məşəl", "Dənizdə neft istehsalı", "26 Bakı Komissarı bağında" kimi əsərlər dərc olunmuşdur [13,s.450-451].

Bu dövrdə alman ədəbiyyatının bir çox əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur. Onların arasında Heinenin "Seçilmiş şeirlər"i, Hötenin "Gənc Verterin izdirabları", Remarkın "Qərb cəbhəsində təbəddülat yoxdur", Hauptmanın "Toxucular" əsəri və digər əsərlər yer almışdır [7,s.58].

Tədqiqat illərində Azərbaycan SSR və ADR arasında mədəniyyət ongünlükləri keçirilirdi. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti tərəfindən 7 oktyabr 1963-cü ildə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında ADR-in elan olunmasının 14 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirilmişdir [5,s.62]. 7 oktyabr – ADR-in elan olunduğu gün – Azərbaycan zəhmətkeşləri tərəfindən öz bayramları kimi qeyd olunurdu [7,s.60] .

Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti və ADR-Sovet Dostluq Cəmiyyətinin Azərbaycan şöbəsi ilə Azərbaycan KP Bakı Şəhər Komitəsinin birgə fəaliyyəti nəticəsində 9 oktyabr 1972-ci ildə ADR-in elan olunmasının 23 illiyinə həsr olunmuş yığıncaq keçirilmişdir. Tədbirdə ADR, SSRİ və Azərbaycan SSR-in dövlət himnləri səsləndirilmişdir [7,s.92]. ADR-də də 1979-cu ildə Azərbaycan mədəniyyət günləri keçirilmişdir və bu günlərə dair alman mətbuatında məqalələr dərc olunmuşdur [13,s.453].

XX əsrin 70-ci illərində ADR və Azərbaycan arasında musiqi sahəsində əlaqələr özünəməxsus yer tuturdu. Azərbaycan SSR-də klassik alman musiqisinə dair bir sıra tədbirlər keçirilirdi, məsələn, onların arasında alman klassiki Bethovenin 200 illik yubileyi ilə bağlı keçirilən tədbiri göstərmək olar. Bethovenin yaradıcılığına həsr olunmuş yığıncaqlarda onun əsərləri ifa edilirdi [13,s.451]. 1970-ci ilin sonu - 1971-ci ilin əvvəlində konservatoriya nümayəndələrinin ADR-də konsertləri baş tuturdu. Opera və balet teatrı və filarmoniyanın nümayəndə heyəti ADR-ə səfərlərdə iştirak edirdilər. 1971-ci ildə baş tutmuş səfərdə nümayəndə heyətinin tərkibi 17 nəfərdən ibarət idi, hansı ki, buraya bəstəkarlar, ifaçılar və bir sıra rəqs qrupları daxil idi. M.F.Axundov adına Azərbaycan Dövlət Opera və balet teatrının solisti Lütfiyar İmanov da ADR-ə qastrol səfərində iştirak etmişdir [7,s.59].

Bu illərdə ADR-də "Şlayker" dostluq festivalı təşkil olunmuşdur. Bu festivalda Azərbaycan SSR-dən "Qaya" vokal kvarteti çıxış etmişdir və ansamblın çıxışı çox bəyənildiyi üçün kvartetin ifası lentə alınmışdır. Azərbaycan SSR-in görkəmli bəstəkarlarının baletləri ADR-in Veymar, Leyspiq kimi şəhərlərində tamaşaya qoyulurdu və böyük marağa səbəb olurdu. Bu baletlərə misal olaraq, bəstəkar Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletini göstərmək olar.

XX əsrin 60-70-ci illərində iki ölkə arasında kino və teatr sahəsində əlaqələr olduqca inkişaf etmişdir. Azərbaycan Dövlət Musiqili Komediya Teatrında alman dramaturqların komediyaları nümayiş olunurdu. Onların sırasında Q.Breq, A.Hard və Naçinskinin ortaq yazdıqları "Salam, Peter!" komediyasını göstərmək olar. 1968-ci ildə ADR-in Berlin şəhərində uşaq filmləri festivalı keçirilmişdir. Bu festival

çərçivəsində "Sehrli xalat", "Bir qalanın sirri" kimi Azərbaycan filmləri nümayiş olunmuşdur. Bu festivaldan sonra filmlər alman dilinə dublyaj olunaraq ADR televiziyasında nümayiş olunmuşdur.

1970-ci ildə Leyspiq şəhərində Beynəlxalq Kino Festivalı keçirilmişdir.Bu festivalda "Azərbaycan ağsaqqalları" filmi uğur qazanmışdır. 1974-cü ildə Leyspiq şəhərində XVI Beynəlxalq Kino Festivalı keçirilən zaman "Xəzər neftçiləri haqqında ballada" filmi uğur qazanmışdır. O zamanlar Azərbaycan SSR-in və ADR-in televiziya studiyasının bir sıra əməkdaşlarının birgə fəaliyyəti nəticəsində "Neft boy maddəsi"nə ithaf olunmuş bir sənədli film istehsal olunmuşdur. ADR-in "DEFA" kinostudiyasının Azərbaycan SSR ilə əməkdaşlığı kino sahəsində mədəni əlaqələrin inkişafında mühüm yer tuturdu. XX əsrin 60-cı illərində ADR-in Berlin şəhərində görkəmli SSRİ xalq rəssamı M.Abdullayevin sərgisinin təşkil olunması ilə bağlı "DEFA" kinostudiyasında sənədli film çəkilmişdir. Növbəti illərdə "Həmişə cavan", "Alman tələbələri Azərbaycanda" kinolentləri kinostudiyada əhəmiyyət kəsb edirdi [41]. ADR-in kinorejissorları Azərbaycan televiziyasının işçiləri ilə birlikdə Azərbaycan haqqında sənədli film hazırlamışdır və bu, "Sağlamlıq iksiri" adlanırdı.

Azərbaycanın təsviri sənət əsərləri ADR-də məşhur idi.Xüsusilə, azərbaycanlı rəssam, SSRİ xalq rəssamı Mikayıl Abdullayevin əsərləri rəngli plakatlarda, albomlarda nəşr olunmuşdur [7,s.59]. Azərbaycan sənətkarlarının ADR-də sərgiləri təşkil olunan zaman məşhur alman sənətkarı A.Çofen sərgi ilə bağlı öz xoş təəssüratlarını bildirmişdir. XX əsrin 60-cı illərində ADR-də Azərbaycan sənətkarlarının tanınması üçün sərgilər təşkil olunurdu. Almaniyanın "Bildende Kunts" mətbu nəşrində məşhur rəssam T.Salahovun əsərləri ən yaxşı nümunələr arasında qeyd olunmuşdur. Eyni zamanda bu cür tədbirlər Azərbaycan SSR-də də təşkil olunurdu. Bu sərgilərdə alman rəssamları Franenşteyn, Volfqanq və digərlərinin sənət əsərləri nümayiş olunurdu [41]. XX əsrin 80-ci illərinin sonlarında Bakı şəhərində keçirilən sərgidə ADR rəssamları da iştirak etmişdir. Bu sərgilər sırasında V.Səmədova adına sərgi salonunda keçirilən "Azərbaycan rəssamlarının gözü ilə" sərgisini göstərmək olar [36,s.66].

XX əsrin ikinci yarısında Azərbaycanın mədəni əlaqələr saxladığı sosialist ölkələrdən biri ***Yuqoslaviya*** olmuşdur. XX əsrin 60-cı illərində Azərbaycan bəstəkarları F.Əmirov, Q.Qarayev, A.Məlikov qardaş sosialist ölkələrdə çıxış edirdilər. 1967-ci ildə görkəmli bəstəkarlar Yuqoslaviyada qastrol səfərində olmuşdur. Eyni zamanda Yuqoslaviya bəstəkarları ölkəmizə səfər edirdi. Məsələn, görkəmli Yuqoslaviya bəstəkarı Vlastemir Nikolovski Yuqoslaviya və Azərbaycan SSR arasında təcrübə mübadilələrində iştirak edirdi [39]. 1961-ci ildə Yuqoslaviyanın 25 nəfərdən ibarət "Skmichi Orkestrı"nın artistləri Bakı şəhərində olmuşlar [54,s.138]. 1972-ci ildə isə Azərbaycan bəstəkarları Yuqoslaviyanı ziyarət etmişlər. 1984-cü ildə azərbaycanlı bəstəkarlar A.Məlikov, V.Adıgözəlov, T.Bakıxanov, P.Bülbüloğlu, F.Əmirov və E.Sabitoğlu Yuqoslaviyaya səfərdə iştirak etmişlər [54,s.145]. Yuqoslaviya ifaçılarından Rodmila Karaklaiç, Corc Maryanoviç və başqaları Azərbaycana qastrol səfərlərinə gəlirdilər. Bu dövrdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında skripkaçı V.Şkerlakın konserti baş tutmuşdur [7,s.119].

Yuqoslaviya və Azərbaycan SSR arasında kino sahəsində əlaqələr dinamik inkişaf etmişdir. Yuqoslaviyanın kino ustaları azərbaycanlı həmkarlarına birgə kinolentlər çəkməyi təklif edirdilər. Eyni zamanda "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan filmlər Yuqoslaviyada nümayiş olunurdu [19,s.41]. 1972-ci ildə azərbaycanlı kinematoqraflar Yuqoslaviyada yaradıcı işgüzar səfərdə iştirak etmişdir [54,s.178]. 1981-ci ildə Yuqoslaviyada "Azərbaycanfilm" və "Suteskafilm" studiyası birgə fəaliyyət nəticəsində kino çəkmişlər [49,s.172].

Bütün sovet xalqı kimi Azərbaycan SSR və qardaş Yuqoslaviyanın zəhmətkeşləri bir-birinə düyünlə bağlı idi. Azərbaycan – Yuqoslaviya arasında dostcasına mədəni əlaqələr saxlanılırdı. Yuqoslaviyanın tarix və mədəniyyətinə, yazıçılarının kitablarına Azərbaycanda maraq var idi. Respublikanın "Azərnəşr", "Gənclik" nəşriyyatları tərəfindən Yuqoslaviya ədəbiyyatından Bronislav Nuşiçin "Avtobioqrafiya"sı, "Yuqoslaviya hekayələri" kolleksiyası, bir sıra xalq nağılları nəşr olunmuşdur [7,s.118-119]. Bu illərdə Şükri Avdonun xahişi ilə Ü.Hacıbəylinin "Arşın mal alan"

musiqili komediyasının, eyni zamanda “Qaynana” operettasının partiturası türk dilinə tərcümə olunaraq Yuqoslaviyaya göndərilmişdir [7,s.121].

1971-ci ildə dostluq cəmiyyəti tərəfindən xarici ölkələrə 1203 nüsxə ədəbiyyat nümunələri göndərilmişdir və azərbaycan, rus, ingilis, ərəb, alman dillərində qonaqlara təqdim olunmuşdur. Azərbaycanın klassik kitabları və müasir yazıçılarının əsərləri, monoqrafiyaları dünyanın 42 ölkəsinə göndərilmişdir – bu ölkələrin içərisində Yuqoslaviya da olmuşdur [6].

XX əsrin 70-ci illərində Azərbaycan xarici ölkələrdə təşkil olunan sərgilərdə yaxından iştirak edirdi. 1973-cü ildə bu cür sərgilər təşkil olunmuşdur və Yuqoslaviyada keçirilən “Beynəlxalq Qrafika Sərgisi”ndə Azərbaycan da iştirak etmişdir [2,s.86].

1979-cu ildə Yuqoslaviyanın Sarayevo şəhərində Bakı günləri keçirilmişdir. Burada 50 nəfərdən ibarət nümayəndə heyəti iştirak etmişdir. 1983-cü ilin fevral ayında Sarayevo şəhərindən nümayəndə heyəti Azərbaycan SSR-də səfərdə olmuşdur [54,s.255].

XX əsrin 80-ci illərində Bakı şəhəri Yuqoslaviya rəssamlarının sənət əsərlərində nümayiş olunurdu [54,s.198]. 1990-cı ilin oktyabr ayında Bakıda beynəlxalq rəsm simpoziumu keçirilən zaman Yuqoslaviyanın magistratura tələbələri burada iştirak etmişdir. Ekspozisiya özündə 50 rəsm əsərini birləşdirirdi [54,s.218].

Onu da qeyd etmək lazımdır ki, XX əsrin 80-ci illərində SSRİ və xarici ölkələr arasında mədəni sahədə əməkdaşlığın inkişaf etdirilməsində 109 dostluq cəmiyyəti fəaliyyət göstərirdi və bu cəmiyyətlərin 1000 şöbəsi SSRİ-də, 66 şöbəsi isə müvafiq olaraq Azərbaycan SSR-də fəaliyyət göstərirdi [36,s.49].

Beləliklə, 1945-1991-ci illər ərzində Şərqi Avropanın sosialist ölkələri və Azərbaycan SSR arasında zəngin mədəni əlaqələr mövcud olmuşdur və bu əlaqələr hərtərəfli inkişaf etmişdir. XX əsrin 80-ci illərində dünyada baş verən proseslər, dünya sosializm sisteminin dağılması və Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi müvafiq ölkələrlə mövcud əlaqələrə yeni xarakter qazandırmışdır.

# NƏTİCƏ

XX əsrin əvvələrində AXC-nin süqutundan sonra Azərbaycanda baş verən hakimiyyət dəyişiklikləri onun xarici siyasət fəaliyyətinə birbaşa təsir göstərmişdir. Ölkədə sovet hakimiyyəti qurulandan sonra onun xarici dövlətlərlə diplomatik-siyasi əlaqələri məhdudlaşdırılmışdır. Ölkədə fəaliyyət göstərən xarici əlaqə orqanlarının fəaliyyətinin həyata keçirilməsində bir sıra çətinliklər yaranırdı. Bu çətinliklər orqanlarda fəaliyyət göstərən diplomatik heyətə birbaşa təsir göstərirdi. Tədricən bu orqanların da fəaliyyətinə son qoyulmuşdur. Yalnız XX əsrin 40-cı illərindən onların fəaliyyəti bərpa edilməyə başlanılmışdır. SSRİ-də mövcud olan komissarlıq sisteminə uyğun olaraq Azərbaycan SSR-də XXİK-in fəaliyyəti bərpa olunmuşdur və onun diplomatik heyəti formalaşdırılmışdır. Lakin bu qurumun fəaliyyəti məhdud xarakterli idi.Bütün xarici əlaqələr SSRİ XXİK vasitəsilə saxlanılırdı və Azərbaycan SSR də fəaliyyət göstərən komissarlıqda şöbələrin sayı da məhdud idi. Belə ki, bu şöbələrin ştat tərkibi, fəaliyyət istiqamətləri SSRİ XXİK tərəfindən müəyyən olunurdu və Azərbaycan SSR-in hansı dövlətlərlə əlaqə saxlayacağı da mərkəz tərəfindən müəyyənləşdirilirdi. Azərbaycan SSR XXİK-in diplomatik heyətinin nümayəndələri xarici ölkələrə sovet nümayəndə heyətinin tərkibində yollanırdılar. SSRİ-də komissarlıq sisteminin ləğv olunmasından sonra nazirliklər yaranmağa başlanılmışdır. Müvafiq olaraq 1946-cı ildə Azərbaycan SSR XXİK XİN-ə çevrilmişdir və öz fəaliyyətinə davam etmişdir. Qeyd olunduğu kimi nazirliyin fəaliyyət istiqamətləri məhdud idi və onun bütün fəaliyyəti SSRİ XİN-lə uyğunlaşdırılırdı. Nazirlik xarici ölkələrin nümayəndə heyətlərinin Sovet İttifaqında səfərdə olarkən Azərbaycan SSR-ə səfər etmələri, ölkədəki siyasi dairlələrlə görüşlərin təşkil olunması və s. məsələlərin həllində fəaliyyət göstərirdi. Azərbaycan SSR XİN-in sovet hakimiyyəti illərində fəaliyyəti formal xarakter daşıyırdı.

Sovet hakimiyyəti illərində Azərbaycanın Şərqi Avropanın sosialist ölkələri ilə müxtəlif sahələrdə əlaqələri mövcud olmuşdur. Bu əlaqələr siyasi, iqtisadi, elmi və mədəni sahələrdə saxlanılırdı. Azərbaycan SSR-in xarici ölkələrlə birbaşa olaraq diplomatik-siyasi əlaqələr saxlamaq hüququ yox idi. Azərbaycan müstəqil xarici

siyasətə malik olmadığı üçün onun ərazisində bir neçə ölkənin nümayəndəliklərindən başqa xarici ölkələrin diplomatik orqanları fəaliyyət göstərmirdi. Xarici ölkələrlə siyasi əlaqələr zəif xarakter daşıyırdı və yalnız XX əsrin 70-ci illərindən məhdud şəkildə diplomatik-siyasi əlaqələr saxlanılmışdır. Bu sahə ilə respublikada bir sıra qurumlar məşğul olurdu. Onların sırasında Azərbaycan KP Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi, Azərbaycan SSR XİN və s. orqanları göstərmək olar. Xarici ölkələrlə siyasi əlaqələr partiyalar, dövlətlərin birgə nümayəndəlikləri, parlamentlər səviyyəsində aparılırdı. Müvafiq olaraq Şərqi Avropanın sosialist ölkələrinin partiya nümayəndələri, qadın və gənclər təşkilatların nümayəndələri, bu ölkələrin SSRİ-dəki fövqəladə və səlahiyyətli səfirləri və s. Azərbaycan SSR-ə səfər edirdilər. Azərbaycan SSR, həmçinin Şərqi Avropanın sosialist ölkələri ilə QİYŞ daxilində siyasi və iqtisadi əlaqələr saxlayırdı. Siyasi əlaqələrdən fərqli olaraq respublikanın iqtisadi əlaqələri bir qədər geniş idi. Azərbaycan SSR SSRİ-nin xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrində və əməkdaşlığında fəal rol oyanıyırdı. Burada respublikanın təbii ehtiyatları mühüm rol oynayırdı. Göstərilən illərdə sosialist ölkələrlə iqtisadi əlaqələr hərtərəfli inkişaf etmişdir. Azərbaycan SSR xarici ölkələrdə iqtisadi sahədə keçirilən sərgi və yarmarkalarda sovet pavilyonunun tərkibində fəal iştirak edirdi. Şərqi Avropanın sosialist ölkələrinə müxtəlif məhsullar ixrac edilir,eyni zamanda idxal olunurdu. XX əsrin sonlarında sosializm sisteminin zəifləməsi, QİYŞ-in dağılması, eyni zamanda Şərqi Avropa dövlətlərində baş verən proseslər ölkələrarası iqtisadi əməkdaşlığın zəifləməsinə gətirib çıxarmışdır.

Azərbaycan SSR-in Şərqi Avropanın sosialist ölkələri ilə humanitar və mədəni sahədə əlaqələrinə gəldikdə isə, bu əlaqələr olduqca geniş idi. XX əsrin ikinci yarısından SSRİ-nin bağladığı müqavilə sazişlərə uyğun olaraq Azərbaycan SSR-in qardaş sosialist ölkələrlə olan əlaqələri ölkələrarası humanitar və mədəni əməkdaşlığın inkişafında mühüm rol oynayırdı. Şərqi Avropanın sosialist ölkələrinin təhsil müəssisələri ilə Azərbaycan SSR-in təhsil müəssisələri, xüsusilə EA-lar qarşılıqlı əlaqələrin dinamik inkişaf etməsində mühüm rol oynamışdır. Bu ölkələrin elm xadimləri ilə azərbaycanlı elm xadimlərinin elmin müxtəlif sahəsələri üzrə problemlər

üzrə məsləhətləşmələr və birgə tədqiqat işlərinin aparılması elm və təhsil sahəsində əməkdaşlığa töhfə olmuşdur. Göstərilən illər ərzində mədəni sahədə əlaqələrin zənginliyi nəzərə çarpır. Mədəniyyətin müxtləif sahələrində - ədəbi, incəsənət, musiqi, kino və teatr, mətbuat, kitab çapı və digər sahələrdə hərtərəfli əlaqələr mövcud olmuşdur. Ölkələr arasında mədəniyyət dekadalarının keçirilməsi xüsusi əhəmiyyət kəsb edirdi.

XX əsrin sonlarından dünya sosializm sisteminin iflas etməsi və Şərqi Avropa ölkələrində baş verən müəyyən proseslər, Azərbaycanda baş verən milli azadlıq hərəkatı və 1991-ci ildən dövlət müstəqilliyinin bərpası bu ölkələrlə əlaqələrə yeni xarakter qazanmışdır. 1991-ci ildən sonra Azərbaycan Respublikasının müstəqil xarici siyasət kursu formalaşmışdır və Şərqi Avropa ölkələrindən Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət Rumıniya olmuşdur. Bundan sonra müvafiq olaraq Azərbaycan xarici ölkələrlə birbaşa əlaqələr saxlamışdır və xarici ölkələrin diplomatik nümayəndəlikləri respublika ərazisində fəaliyyət göstərməyə başlamışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1.Azərbaycan Respublikası Dövlət Arxivi: F.28, siy.6c, iş 1, v.1-2

2.Azərbaycan Respublikası Dövlət Arxivi: F.28, siy.12, iş 77, v.86

3.Azərbaycan Respublikası Dövlət Arxivi: F.28, siy.19, iş 6, v.27-28

4.Azərbaycan Respublikası Dövlət Arxivi: F.2693, siy.1, iş 23, v.82,84

5.Azərbaycan Respublikası Dövlət Arxivi: F.2693, siy.1, iş 76, v.37,62, 92

6.Azərbaycan Respublikası Dövlət Arxivi: F.2693, siy.1, iş 137, v.48

7.Azərbaycan Respublikası Dövlət Arxivi: F.2693, siy.1, iş 147, v.58,59,60,92,118-119,121

8.Azərbaycan Respublikası Dövlət Arxivi: F.2693, siy.1, iş 149, v.58

9.Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2000, 456 s.

10.Abbasov N.R. Razqrad-Abşeron qardaşdır. Bakı: Azərnəşr, 1973, 108 s.

11.Abdullayev Ç.Ə. Almaniya-Azərbaycan əlaqələri. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2000, 156 s.

12.Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr. II hissə 1946-1999-cu illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 450 s.

13. Beynəlxalq mədəni əlaqələr:Dərslik/ M.C Manafovanın və N.T Əfəndiyevanın redaktəsi ilə. Bakı:Sabah, 2008, 660 s.

14.Bolqar dostlar Abşeronda. “Kommunist” qəz. Bakı, 1973, 27 sentyabr, № 227(15442)

15.Cəbrayılova S. On gün Polşa Xalq Respublikasında. “Azərbaycan müəllimi” qəz. Bakı, 1979, 7 fevral, № 11(3105)

16.Çexslovakiyanın partiya işçiləri Bakıda. “Kommunist” qəz. Bakı, 1964, 27 sentyabr, № 227(12698)

17.Dursunəliyev Ə.A. Qarşılıqlı əməkdaşlıq. Bakı: Azərnəşr, 1983, 64 s.

18.Hacıyev H.A. Azərbaycanın xarici ölkələrlə iqtisadi, elmi və mədəni əməkdaşlığı. Bakı: Elm, 1970, 35 s.

19.Hacıyev H.A. Sosialist ölkələri ilə elmi və mədəni əməkdaşlıq. Bakı, 1975, 48 s.

20.Hacıyeva Z.Ə., Əliyarlı N.A. Azərbaycan Elmlər Akademiyasının yaranma tarixi. Bakı: AMEA, 2015, 114 s.

21.Həsənli C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti:1920-1939. Bakı: Adiloğlu, 2012, 653 s.

22.Həsənli C.P. İkinci Dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə:1939-1945, Bakı, 2015, 540 s.

23. Həyatzadə M. Görkəmli bolqar yazıçısı.”Azərbaycan müəllimi” qəz. Bakı, 1979, 7 fevral, № 11(3105)

24.XX əsr Azərbaycan tarixi: 2 cilddə, II c., Bakı: Təhsil, 2009, 559 s.

25.İmanova S.Ə. Rumıniya-Azərbaycan münasibətləri (1991-2011-ci illər): Tarix.fəl.dok....dis. Bakı, 2014, 212 s.

26. İsmayılov İ.A. Azərbaycan SSR beynəlxalq humanitar əlaqələr sistemində (XX əsrin 80-ci illəri): Tarix.fəl.dok....dis. Bakı, 2014, 188 s.

27.Qardaş ölkədə. “Kommunist” qəz. 1969, 21 sentyabr, № 222(14218)

28.Qasımova H.A. Azərbaycan Respublikasının xarici əlaqə orqanlarının təşkili və fəaliyyətinin milli və beynəlxalq hüquqi əsasları. Hüq.elm.dok........dis. Bakı, 2006, 187 s.

29.Qasımlı M.C. Azərbaycan Respublikası dünya meridianlarında: mədəni əməkdaşlıq. Bakı: Gənclik, 1992, 88 s.

30.Qasımlı M.C., Hüseynova E.Ə. Azərbaycanın xarici işlər nazirləri. Bakı: Adiloğlu, 2003, 112 s.

31.QİYŞ: əsaslı yenidənqurma mərhələsi. “Kommunist” qəz. Bakı, 1990, 11 yanvar, № 9(21077)

32.Məmmədova C. Heydər Əliyevin Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələrində rolu(1969-1982-ci illər)//Tarix və onun problemləri, 2013, №2, s.189-196

33.Məmmədov H.N. Azərbaycan-Macarıstan münasibətlərinin inkişaf tarixindən // Pedaqoji Universitet xəbərləri-humanitar elmlər seriyası, 2015,№2, s.120-124

34.Məmmədov H.N. Azərbaycan-Şərqi Avropa: mədəniyyətlərarası əməkdaşlığın tarixi. Bakı:Mütərcim, 2008, 311 s.

35.Musa İ.M. Azərbaycanın xarici siyasəti:Dövlətlərarası münasibətlər və Azərbaycan: aprel 1920- oktyabr 1991-ci illər. Bakı: Bakı Universiteti, 2008, 515 s.

36.Muradov N.N Azərbaycanın beynəlxalq humanitar əlaqələri(1980-1991-ci illər): Tarix.elm.nam...........dis. Bakı, 2000, 172 s.

37.Nəbiyev B.E. Heydər Əliyev və Azərbaycan SSR-in iqtisadi inkişafı(1969-1982-ci illər): Tarix.elm.nam............dis. Bakı, 2007, 183 s.

38.Nuriyeva Z. Azərbaycan Sovet Respublikası və Macarıstan Xalq Respublikası arasında XX əsrin 80-ci illərində mövcud əlaqələrə baxış // Tarix və onun problemləri, 2014, №4, s.115-119

39.Ömərov V.A/ Azərbaycanın beynəlxalq mədəni əlaqələri (XX əsrin 60-cı illəri) // https://sesqazeti.az/news/mia/373669.html istinad tarixi: 31 oktyabr, 2013

40.Ömərov V.A/ Azərbaycanın beynəlxalq mədəni əlaqələri: XX əsrin 70-80-ci illəri // https://sesqazeti.az/news/mia/373887.html istinad tarixi: 1 noyabr, 2013

41.Ömərov V.A/ Azərbaycan-Almaniya: mədəni inteqrasiyanın güclənməsi (XX əsrin 60-80-ci illəri) // https://sesqazeti.az/news/mia/360728.html istinad tarixi: 15 avqust, 2013

42.Ömərov V.A/ Azərbaycan-Bolqarıstan mədəni əlaqələri (XX əsrin birinci yarısında) // https://sesqazeti.az/news/mia/367356.html istinad tarixi: 24 sentyabr, 2013

43.Ömərov V.A/ Azərbaycan-Bolqarıstan mədəni inteqrasiyası (XX əsrin 70-ci illəri) // https://sesqazeti.az/news/mia/366336.html istinad tarixi: 19 sentyabr, 2013

44.Ömərov V.A. Azərbaycan-Macarıstan mədəni əlaqələri ( XX əsrin 70-ci illərinədək). "Səs" qəz. Bakı, 2013, 23 sentyabr, №177(4425)

45.Ömərov V.A/ Azərbaycan-Polşa mədəni əlaqələrinin tarixi // https://sesqazeti.az/news/mia/365571.html istinad tarixi: 16 sentyabr, 2013

46.Ömərov V.A/ Azərbaycan-Polşa mədəni inteqrasiyası: XX əsrin II yarısından müasir dövrədək // https://sesqazeti.az/news/mia/364816.html istinad tarixi: 11 sentyabr, 2013

47.Ömərov V.A/ Azərbaycan-Rumıniya mədəni əlaqələri (XX əsrin 70-ci illərinədək) // https://sesqazeti.az/news/mia/366909.html istinad tarixi: 22 sentyabr, 2013

48.Ruintən S. Yeni dünya düzəninin formalaşması və Azərbaycanın xarici siyasətinin yeni hədəfləri // Tarix və onun problemləri, 2012, №3, s.81-88

49.Sayadov S.A. XX əsr: Azərbaycan və dünya: beynəlxalq inteqrasiya sistemində: SSRİ, Avropa, Asiya, Afrika, Amerika: 1945-1990-cı illər. Bakı: Elm, 2006, 186 s.

50.Sərdarov Z.H. Səmərəli əməkdaşlıq:Sovet İttifaqının Bolqarıstanla əməkdaşlığında Azərbaycanın iştirakı. Bakı, 1979, 82 s.

51.Sovetlər dövrü / Azərbaycan diplomatiyası // www.peslib.az istinad tarixi: 20 noyabr, 2021

**Rus dilində**

52.Батурин Ю.М. Позиция МИД СССР по разграничению союзной и республиканских компетенций во внешней политике (К истории подготовки Нового Союзного договора 1990-1991 гг.). Москва, 2020, 42 с.

53.Гаджизаде А. Экономические связи со странами СЭВ // Коммунист Азербайджана, 1987, № 12, с.82-85

54.Гасымлы М. Азербайджан в международных культурных связях: 1946-1990.Тбилиси, 2005, 297 с.

55.Дулаева З.А. Сумгаит - индустриальный гигант Азербайджана. Баку, 1962, 127 с.

56.Казиев М. История Азербайджана. Баку, 1969, 70 (2) с.

57.Кулиев Р.И. Глазами зарубежных друзей. Баку, 1971, 95 с.

58.Мамедзаде Н.С. Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и Восточной Европы. Баку, 2006, 145 с.

59.Международные связи Азербайджана в документах: июль 1969-ноябрь 1982 гг.: в 2 томах (Т.1) /Управление Делами Президента Азербайджанской Республики, Архив Политических Документов. Баку, 2017, 570 с.

60.Международные связи Азербайджана в документах: июль 1969-ноябрь 1982 гг.: в 2 томах (Т.2) /Управление Делами Президента Азербайджанской Республики, Архив Политических Документов. Баку, 2018, 639 с.

61.Мильман А.Ш. Азербайджанская ССР- суверенное государство в составе СССР. Баку, 1971, 299 с.

62.Микеладзе Г/ Женщины Азербайджана: Ханум-министр Таира Таирова // https://1news.az/54/20090308033512603.html 08.03.2009

63.Саядов О. XX век: Азербайджан в системе международных отношений СССР: история, практика (70-80-е годы). Баку: Элм, 2005, 320 с.

64.Садыхов Ф.Я. Дипломатическая служба Азербайджана: политические приоритеты, этапы формирования. Баку: Адильоглы, 2004, 300 с.